**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodik jurnal*

**2023, 2 (39)**

**BAKI-2023**

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 2 (39), 2023

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2020-ci ildən tarix və antropologiya elmi istiqamətləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Tarix elmləri doktoru, professor Abbas Seyidov** *(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Xəqani Məmmədov**
**Tarix üzrə elmlər doktoru, professor Fəzail Vəliyev**
**Antropologiya üzrə elmlər doktoru, professor Əliağa Məmmədli**
**Tarix üzrə elmlər doktoru Eynulla Mədətli**
**Tarix üzrə elmlər doktoru, dosent Sevinc Əliyeva**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yasin Qaraməmmədli**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Ərəstun Mehdiyev**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədova** *(məsul katib)*

# BİG DATA ƏSRİNDƏ AKADEMİK KITABXANAÇILARDAN TƏLƏB OLUNAN İNNOVATIV İDARƏETMƏ BACARIQLARI

**Nərminə Abdullayeva**
**AMEA M.Füzuli ad. Əlyazmalar İnstitutu**
**narmina-abdullayeva@unec.edu.az**

***Açar sözlər:*** *innovativ kitabxana işi, menecment, idarəetmə bacarıqları, menecment səviyyələri, böyük verilənlər*

*Hal-hazırda Big Data müxtəlif sahələrdə əhəmiyyətli bir problemə çevrilmiş və həm tədqiqatlarda, həm də təcrübədə ona xüsusi diqqət yetirilir. Kitabxana-informasiya elmlərisahəsindən olan alimlər big data-nın kitabxana tədqiqatları üçün dəgenişimkan yaratdığını iddia etsələr də (Gordon-Murnane, 2012) [1,s.30-34], onun kitabxananın idarə edilməsi və innovasiyaların tətbiqində rolu qeyri-müəyyən olaraq qalır və əlavə araşdırmaya ehtiyac duyur. Məlum olduğu kimi, verilənlərə əsaslanan böyük kitabxanalaröz istifadəçilərinə fərdi, uzaqdan, real vaxt rejimində - ənənəvi və virtual xidmətlər təqdim edir. Bu məqalə təkcə kitabxananın innovativ yenilikləri, texnologiyası və xidmətlərinin əhatə edən kitabxana menecmenti və innovasiya məsələlərini deyil, həm də böyük verilənlərdövründə kitabxanaçıların qarşılaşdığı çətinlikləri aradan qaldıracaq texniki və idarəetmə yanaşmalarını, yaranan problemlərin həll yollarını təklif etmək məqsədi daşıyır. Bu məqalə həm kitabxana idarəçiliyinə, həm də ümumən kitabxana-informasiya elmləri üzrə mütəxəssislərə əhəmiyyətli və orijinal töhfələr verə bilər. Kitabxana işçiləri və tədqiqatçılar üçün nəzərdə tutulan bu tədqiqat işi əsas idarəetmə problemlərini həll etmək və kitabxanada müxtəlif yenilikləri təşviq etməkdə idarəedici rəhbərlərin rolunu vurğulayır. Daim dəyişən mühitdə innovasiya demək olar ki, hər bir təşkilat, o cümlədən kitabxanalar üçün prioritet məsələdir. Yenilik mütləq kortəbii şəkildə tətbiq olunmur; yeniliyi tətbiq edən kitabxana işçi heyətinin mütləq şəkildə bir sıra bilik və bacarıqlara malik olması vacibdir.*

# ИННОВАЦИОННЫЕ НАВЫКИ УПРАВЛЕНИЯ, НЕОБХОДИМЫЕ АКАДЕМИЧЕСКИМ БИБЛИОТЕКАРЯМ В ЭПОХУ БОЛЬШИХ ДАННЫХ

**Нармина Абдуллаева**

***Ключевые слова:*** *инновационная библиотечная работа, управление, управленческие навыки, уровни управления, большие данные.*

*В настоящее время большие данные стали значимой проблемой в различных областях и им уделяется особое внимание как в исследованиях, так и в практике. Хотя ученые в области библиотечного дела и информатики утверждают, что большие данные также открывают широкие возможности для библиотечных исследований, их роль в библиотечном управлении и инновациях остается неясной и требует дальнейших исследований. Как известно, большие библиотеки, управляемые данными, предоставляют своим пользователям индивидуальные, удаленные, работающие в реальном времени — традиционные и виртуальные услуги. Эта статья призвана предложить не только вопросы библиотечного управления и инновации, охватывающие инновации, инновационные технологии и услуги библиотеки, но и технические и управленческие подходы, которые помогут преодолеть трудности, с которыми сталкиваются библиотекари в эпоху больших данных, и найти решения проблем. Эта статья может стать существенным и уникальным вкладом в библиотечное управление, библиотекарей и информационных специалистов в целом. Это исследование, предназначенное для библиотекарей и исследователей, подчеркивает роль менеджеров в решении ключевых вопросов управления и продвижении различных инноваций в библиотеке. В постоянно меняющейся среде инновации являются приоритетом почти для каждой организации, включая библиотеки. Инновации не обязательно применяются спонтанно; Важно, чтобы сотрудники библиотеки, реализующие нововведение, обладали определенным багажом знаний и навыков.*

# INNOVATIVE MANAGEMENT SKILLS REQUIRED FROM ACADEMIC LIBRARIANS IN THE BIG DATA AGE

Narmina Abdullayeva

***Keywords:*** *innovative library work, management, management skills, management levels, big data*

*Currently, Big Data has become a significant problem in various fields and is given special attention in both research and practice. Although scholars in the field of library and information science claim that big data also provides ample opportunities for library research, its role in library management and innovation remains unclear and needs further research. As you know, large data-driven libraries provide their users with individual, remote, real-time - traditional and virtual services. This article aims to offer not only library management and innovation issues covering the library's innovations, innovative technologies and services, but also technical and management approaches that will overcome the difficulties faced by librarians in the big data era, and solutions to problems. This article has the potential to be a substantial and unique contribution to library management and librarians and information scientists in general. Designed for librarians and researchers, this research highlights the role of managers in addressing key management issues and promoting various innovations in the library. In an ever-changing environment, innovation is a priority for almost every organization, including libraries. Innovation is not necessarily applied spontaneously; It is important that the library staff who implements the innovation has a certain amount of knowledge and skills.*

## Giriş

Big Data həm sıravi işçilər, həm də tədqiqatçılar üçün mühüm tədqiqat sahəsinə çevrilmiş geniş və mürəkkəb strukturları olan böyük verilənlər topluları üçün istifadə edilən bir termindir. Big data fərdi yanaşmanı nəzərə alaraq və intellektual xidmətlər təqdim etməklə kitabxananın ağıllı və istifadəçi dostu olmasına imkan verir. Ümumiyyətlə, kitabxananın big data-sı iki qrupa bölünə bilər: kataloq verilənləri və proses məlumatları. Kataloq sistemi kitabxananın özünəməxsus məlumatları deməkdir və kitabxanada mövcud olan sənədlər (fayllar) haqda informasiyadır, proses məlumatları isə çox vaxt kitabxananın idarə edilməsi və xidmət prosesi əsnasında yaranan məlumatlardır. Birinci növ verilənlər qrupu ümumiyyətlə sənədli, biblioqrafik və maliyyə məlumatları ehtiva edir, ikinci qrupa isəsənədlər, istifadəçilər barədə

qeydlər/məlumatlar daxildir. Kitabxananın big data-sının təhlili kitabxanaçı, istifadəçi və xidmətlər üçün əhəmiyyətli dəyər kəsb edən fərditövsiyə xarakterli xidmətlərin təqdim olunmasına və istifadəçilərin davranışının/vərdişlərinin təhlili kimi nəhəng rəqəmsal kitabxana innovasiyalarını həyata keçirməyə imkan verir. Kitabxanaçı amilikitabxanaya minimal xərclərlə rəqabətqabiliyyətli məhsul və xidmətlər təqdim etməyə imkan verir. İstifadəçi amili kitabxana istifadəçilərinin təcrübəsinin inkişafını və onların məmnunluğunu əhatə edir. Xidmət amilinəkitabxananın müxtəlif formalarda olan big data-sının təhlili ilə xidmət və proseslərin keyfiyyətinin və səmərəliliyinin artırılması daxildir.

Rəqəmsal kitabxana innovasiyası həmçinin kitabxanadan davamlı və ağıllı rəqəmsal idarəetmə sisteminin təmin olunmasını tələb edir. Böyük verilənlərin (big data) həcmi, müxtəlifliyi, sürəti və doğruluğuna görə kitabxana idarəetmə sisteminin inkişafı təkcə kitabxananın yeni arxitektur dizaynını deyil, həm də kitabxananın böyük verilənlərinin idarə edilməsində (məsələn, verilənlərin əldə edilməsi, saxlanması, emal edilməsi) rəqəmsal texnologiyanın tətbiqini tələb edir. Buna görə də, həm rəqəmsal kitabxana idarəçiliyi, həm də rəqəmsal kitabxana innovasiyası bir-birilə əlaqəli bir sistemdir, burada kitabxana innovasiyaları kitabxana menecmentini idarə edir, o da öz növbəsində kitabxana innovasiyası üçün idarəetmə sistemlərini və lazımi dəstəyi təmin edir. Yuxarıda qeyd olunan müzakirələrə əsaslanaraq, bu məqalədə böyük verilənlərə əsaslanan kitabxana idarəçiliyi və innovasiyaların inkişaf yolu nəzərdən keçiriləcək.

Məqalə elmi-nəzəri ədəbiyyatın müqayisəli təhlili və sintezi, məntiqi və tarixi yanaşma, qruplaşdırma metodlarından istifadə olunaraq hazırlanmışdır.

**Əsas hissə**

Kitabxanaların effektiv idarəçiliyində əsas rolu təbii ki, peşəkar kitabxana mütəxəssisi oynayır. Kitabxana mütəxəssislərinin idarəetmə bacarığının olması vacib şərtdir və bu bacarığı olan kitabxanaçı rahatlıqla inkişaf edə bilir [2]. Big data əsrində kitabxana işinin konsepti də kökündən dəyişilmişdir. Buna görə də bütün peşəkar kitabxanaçılar aşağıdakı ilkin bacarıqlara malik olmalıdırlar ki, öz vəzifələrini layiqincə yerinə yetirsinlər.

1. Dəyişikliklərin idarə edilməsi - Ali təhsil daim dəyişən bir sektordur - siyasət, texnologiya, pedaqogika və tələbə davranışı bütün bunlar müəssisənin fəaliyyətinə təsir göstərir. Akademik/universitet kitabxanaları da bu dəyişikliklərə məruz qalır və müəssisə daxilində kitabxananın mövqeyini nəzərdən keçirməyə və yenidən müzakirə etməyə ehtiyac var. Dəyişiklikləri effektiv idarə edə bilmək kitabxana rəhbərləri üçün ən yüksək bacarıqlardan biridir.

2. Dəyəri sübut etmək - Getdikcə daha çox sübuta və informasiyaya əsaslanan sektorda kitabxanaların təşkilata öz dəyərini sübut etmələri və onlara qoyulan sərmayənin qaytarılması həmişəkindən daha vacibdir. Tələbə

təcrübəsinin təkmilləşdirilməsi və tələbənin əldə etdiyi uğura kitabxananın verdiyi töhfənin nümayiş etdirilməsi etibarlı kitabxana brendinin mövcudluğunu əsaslandırır.

3. Nüfuz və danışıqlar –Nəzərəçapracaq bir fərq yaratmaq üçün edilən effektiv dəyişiklik qurum daxilində nüfuz və danışıqlar aparmaq qabiliyyətinə əsaslanır. Bu bacarıqlar getdikcə əməkdaşlığadaha da üstünlük verən müasir dünyada çox vacibdir.

4. Yaradıcılıq və yenilik - Dəyişiklik tempi o deməkdir ki, məhsuldarlıq artıq şəhərdə yeganə üstünlük deyil, daha radikal düşüncəyə ehtiyac var.

5. Rəqəmsal dünyada tədqiqatların dəstəklənməsi - Elmi kommunikasiya rəqəmsallaşdıqca inkişaf edir: informasiyaya açıq giriş (Open Access), altmetriya, bibliometriya, məlumat mübadiləsi, rəqəmsal humanitar elmlər, mətn/verilənlərinhazırlanması (data mining) və tədqiqatların geniş təbliği, yayılması və maliyyə mənbələrinin əldə edilməsi üçün sosial mediadan istifadə hazırda inkişaf edən bəzi sahələrdir.

6. Rəqəmsal savadlılıq - Tələbələrin (və onlara dəstək verən akademik heyətin) rəqəmsal dünyaya hazırlanmasında kitabxanaların rolu böyükdür və bu sahədəki əhəmiyyəti zaman keçdikcə daha da artır.

7. Marketinq - Ənənəvi kitabxana xidmətinə hələ də tələbat olsa da, rəqəmsal məkanda güclü rəqabət var. Akademik kitabxanalar özəhəmiyyətini göstərmək üçün rəqəmsal və çap sənədlərinə və xidmətlərinə çıxışı maksimum dərəcədə artıra bilməlidir.

8. Rəqəmsal İnformasiyanın idarə edilməsi - İnformasiya mülkiyyəti, hüquq menecmenti, rəqəmsal məlumatların qorunması, əlaqələndirilməsi və yayılması məsələləri universitetlərlə yanaşı informasiya ilə zəngin kitabxanalar üçün də vacib məsələlərdir.

9. Məkanı inkişaf etdirmək və idarə etmək - Kitabxanaların daşınmaz əmlakından istifadə artmağa davam etdikcə, tədrisin inkişafını dəstəkləmək üçün fiziki və virtual məkanlarıgenişləndirmək çox vacibdir.

10. Əməkdaşlıq - Qurum daxilində və xaricində yeni yerli və beynəlxalq əməkdaşlıqlar artır. Sosial media və rəqəmsal fəaliyyət dünyanı kiçiltdikcə, insanları bir-birinə daha da yaxınlaşdırdıqca qlobal əməkdaşlıq, beynəlxalq tədqiqatlarda işbirliyinə dəstək, transmilli təhsil və kurrikulumun qloballaşması əhəmiyyətli dərəcədə inkişaf edir.

Big data əsrinin əsas xüsusiyyətlərindən biri "smart/ağıllı şəhər"lərin yaradılması və inkişafıdır. Ağıllı şəhərlər öz vətəndaşlarının həyat keyfiyyətlərinin yüksəldilməsinə sərmayə qoyaraq yeni biliklərə əsaslanan sənaye sahələrində çalışan insanları belə şəhərlərdə yaşamağa və işləməyə cəlb etməyi qarşısına məqsəd qoyur. Ağıllı şəhərlərin əsas komponentləri "ağıllı" insanlar, "ağıllı iqtisadiyyat, "ağıllı" dövlət, "ağıllı" hərəkətlilik, "ağıllı" mühit və "ağıllı" yaşayışdır.

"Ağıllı şəhərlər"əson dönəmlərdə xüsusi diqqətin artması kitabxanalar və informasiya mərkəzlərinə bu sahədə öz rollarını müəyyən etməyə və bu istiqamətdə olan inkişafa inteqrasiya etmək imkanı verir. İnteqrasiya etmək üçün strategiya lazımdır və istənilən strategiya təhlillə başlayır. Bu proseslərin nəticələri, hər halda, şəhərdən şəhərə dəyişə bilər. Burada məqsəd sadəcə olaraq hər hansı təhlil üçün başlanğıc nöqtəsi ola biləcək bəzi önəmli sualları təqdim etməkdir: kitabxanalar və informasiya xidmətləri "ağıllı şəhər"in yaradılmasına nə kimi köməklik edə bilər? Və bütün bunlar üçün hansı bilik, bacarıq və vərdişlər tələb olunur?

Onu qeyd etmək lazımdır ki, kitabxana fəaliyyəti cəhətdən yanaşdıqda "ağıllı" insanlar dedikdə burada həm kitabxanaçı, həm də istifadəçilərin "ağıllılıq" prinsiplərinə uyğun olması nəzərdə tutulur. Və "ağıllı" kitabxanaçıların malik olması vacib sayılan xüsusiyyətlər bunlardır:

- İxtisaslaşma səviyyəsi,
- Ömür boyu öyrənməyə meyllilik,
- Sosial və etnik çoxluq,
- Çeviklik,
- Yaradıcılıq,
- Kosmopolitlik/Açıq fikirlilik,
- İctimai həyatda fəal iştirak (Ian M. Johnson, 2013) [3, s.4-7]

O zaman məsələ təkcə kitabxanaların və informasiya mərkəzlərinin bu yeni sosial eksperimentlərdə tutduğu rolu deyil, hər yerdə bu funksiyaları yerinə yetirmək üçün lazım olan bacarıqları müəyyən etməyə çalışmaqdır. İstənilən "ağıllı kitabxana"nın "ağıllı kitabxanaçılar"a ehtiyacı var. Sürətlə dəyişən mühitdə kitabxana işçiləri təkcə cari sistemləri və xidmətləri yerinə yetirmək və idarə etmək üçün səriştəli olmalı deyil, həm də daima hansı məlumatın lazım olduğuna diqqət yetirəcək qədər fikir və öhdəliyə malik olmalı, yeni məlumat mənbələri yaratmalı və informasiyanın effektiv şəkildə yayılması üçün yeni üsullar istifadə etməklə xidmətlərini təkmilləşdirməlidirlər. İşəgötürənlər tərəfindən strateji inkişafa yönləndirilmədən və onlar tərəfindən motivasiya olunmadan daim inkişaf etmək üçün kitabxanaçılar təkcə texnoloji cəhətdən deyil, həm də idraki yöndəntəkmilləşməlidirlər.

Bəs kitabxanaçılar hansı idarəetmə bacarıqlarına malik olmalıdırlar? Aydındır ki, onların müxtəlif idarəetmə səviyyələrində müxtəlif bacarıqları mənimsəməsi vacibdir. ABŞ-da İnformasiya Xidmətləri üzrə Strateji Planlaşdırma və İnformasiya Menecmenti üzrə Təhsil Proqramının İnkişafı üzrə beynəlxalq məsləhətçi, Massaçusets ştatında Boston, Simmons Kollecinin Kitabxana və İnformasiya Elmləri üzrə ali Məktəbinin dekanı və fəxri professoru Robert D. Styuartın Şimali Karolina Chapel Hill Universitetinin İnformasiya və Kitabxana Elmləri Məktəbinin professoru Barbara B. Moranın həmmüəllifi olduğu "Library and Information Center Management" (Stuart R.,

2007, 2009) kitabında kitabxana işində menecmentin / idarəetmənin 3 səviyyədə həyata keçirildiyi qeyd olunur:

Şəkil 1. Kitabxanada idarəetmənin səviyyələri[4]




Top menecment və ya yuxarı səviyyəli rəhbərlər: direktor və direktor müavinləri- Bütün müəssisə üçün idarəetmə siyasətini /qaydaları təyin edir və ümumi rəhbərliyə cavabdehdir. Orta səviyyəli idarəetmə / rəhbərlik -Şöbə müdirləri və filial rəhbərləri üst səviyyə rəhbərlik tərəfindən müəyyən edilmiş siyasəti həyata keçirməyə və təşkilatın alt bölmələrinin idarə edilməsinə cavabdehdir. Aşağı səviyyə və ya birinci dərəcəli nəzarətçi/menecerlər Təşkilatın gündəlik işini yerinə yetirməkdə fərdi işçilərin fəaliyyətinə rəhbərlik etməyə məsuldurlar.

Robert Katz uğurlu idarəetmə üçün vacib olan üç idarəetmə bacarığını müəyyən etmişdir:

- texniki bacarıqlar,
- bəşəri bacarıqlar və
- konseptual bacarıqlar[5]

Spesifik funksiyalar və tapşırıqlarla əlaqəli olan Texniki bacarıqlar birinci dərəcəli menecer səviyyəsində ən vacibdir. Effektiv birinci dərəcəli menecer və ya supervayzer olmaq istəyən şəxs həyata keçirilən prosesi başa düşməlidir. Kitabxana rəhbərinin kataloqlaşdırma və təsnifatdan xəbəri olmadan bir qrup kataloqçu kitabxanaçıya nəzarət etmək çox çətin olardı. Digər tərəfdən, kitabxana direktoru olan şəxs bir vaxtlar belə texniki biliklərə malik

ola bilərdi, lakin direktor indi heç bir kataloqlaşdırma və təsnifləşdirmə işi aparmadığına görə, o, belə bacarıqlara, xüsusən də metadata qeydlərinin yaradılması kimi daha yeni qabiliyyətlərə malik olmaya bilər. Üst səviyyəli menecerlər kitabxananın bütün fəaliyyət sahələri üzrə cavabdeh olduqlarına görə, onların aşağı səviyyəli menecerlər və nəzarətçilərdə olması çox vacib bir çox texniki bacarıqlara malik olmaması önəmli deyil.

Yuxarı səviyyədə menecerlər daha çox konseptual bacarıqlara malik olmalı və müəssisənin fəaliyyətinə geniş aspektdən baxmağı bacarmalıdırlar. Bəşəri bacarıqlar - insanlarla effektiv ünsiyyət qurmaq bacarığı bütün səviyyələrdə vacibdir. Digər idarəetmə mütəxəssisləri mühüm əhəmiyyət kəsb edən xüsusi idarəetmə bacarıqlarını müəyyən etməyə cəhd etmişlər və bəzi tədqiqatlarda xüsusi olaraq kitabxana menecerləri üçün lazım olan bacarıqlara nəzər yetirilmişdir. Məsələn, Q. Edvard Evans kitabxanaçılar, arxivçilər və informasiya menecerləri üçün universal idarəetmə əsaslarını təklif etmişdir [6,s.295-307]. Onun siyahısına 12 sahə daxildir: planlaşdırma, kadr təminatı, fiskal idarəetmə, innovasiya, motivasiya, kommunikasiya, liderlik, kəmiyyət üsulları, etika, qərar qəbuletmə, nümayəndəlik və marketinq. Menecerlərə lazım olan səriştələri dəqiq müəyyən etmək çətindir, çünki onlar mövqeyinə və məkanına görə fərqlənirlər. Müxtəlif ölkələrdə müxtəlif sosial, mədəni və iqtisadi şəraitə görə bu bacarıqları qlobal miqyasda müəyyən etmək daha çətindir. Buna baxmayaraq, aşağıdakı bacarıqlar əksər müasir menecerlər üçün vacibdir:

- ***Siyasi Bacarıqlar***. Kitabxanalar və informasiya agentlikləri son dərəcə siyasi təşkilatlardır və bugünkü şəraitdə mövcud olmaq üçün bu barədə məlumatlı olmaq çox vacibdir. Menecerlər bir vizyon yaratmalı və başqalarını bu vizyona inanmağa ruhlandırmalıdırlar. Onlar strateji düşüncə və fəaliyyət üçün əlverişli mühit yaratmalıdırlar. Kitabxanalar həm daxildə, həm də müəssisədənkənar subyeklərlə münasibətdə çox vaxt son dərəcədə siyasi yönümlüdür. Təşkilat üçün siyasi arenada tarazlığı saxlamaq çeviklik tələb edir. Risk etməyə hazır olmaq mühüm bir bacarıqdır.
- ***Analitik Bacarıqlar***. Menecerlər dəyişikliklərin təmsilçisi kimi xidmət edir və buna görə də təhlili yaxşı bacarmalıdırlar. Uzaqgörənlik faydalıdır, lakin dərin düşüncə və ya intuisiyaya əsaslanan qərarları müdafiə etmək bəzən mümkün deyil. Aydın, rasional, yaxşı arqumentləşdirilmiş təhlil menecerlərin fəaliyyətini dəstəkləmək üçün vacib faktordur. Tənqidi düşüncə effektiv idarəetmənin açarıdır.
- ***Problem həlletmə bacarıqları.*** Problem həlli, şübhəsiz ki, menecerin ən vacib gündəlik fəaliyyət proseslərindən biridir. Menecerlər dəyişikliklərin idarə olunmasına müsbət münasibət göstərməlidirlər, çünki müasir təşkilatlarda uğurun açarı çox zaman çeviklikdir.

- ***İnsani / Bəşəri bacarıqlar.*** İnsanlar hər bir təşkilatın ürəyidir. Onlar bir-birindən çox fərqlənir və menecer bütün bu fərqliliklərlə münasibət qurmalıdır. Bu sahədə ən çox tələb olunan bacarıqlar adətən ünsiyyət, münaqişələrin həlli və insanlarla ünsiyyət kateqoriyalarına aid olan bacarıqlardır. Getdikcə daha çox təşkilatda menecerlər komanda əsaslı təşəbbüslərin koordinasiyasına cavabdehdehlik daşıyırlar. Menecerlər komandaları idarə etmək üçün ən yaxşı üsulları, eləcə də tabeliyində olanlara kouçluq və mentorluq etməyi bilməlidirlər. Yumor hissi hər zaman faydalıdır. Təşkilatdakı hər şeyə başqalarının gözü ilə baxa bilmək əməkdaşlığı asanlaşdıra və fərqli baxışlar arasında qarşıdurmanı azalda bilər. Bu, menecerlərin idarə etdikləri insanlar barədə narahat olmağa və onlara maraq göstərmələrinə kömək edir.
- ***Sistem Bacarıqları.*** Bütün kitabxana menecerləri kompüter əsaslı informasiya sistemləri ilə tanış olmalıdır. Sistem təkcə texnologiya deyil, həm də müəyyən nəticələr əldə etmək üçün nəzərdə tutulmuş resursların və rutin işlərin müəyyən prinsiplər üzrə təşkilidir. Bugünkü kitabxana adətən daha böyük sistemin bir hissəsidir və menecerlər təşkilatlarının daha böyük sistem (məsələn universitet) daxilində tutduğu mövqedən xəbərdar olmalıdırlar.
- ***Maliyyə Bacarıqları.*** Bütün menecerlər maliyyə bacarıqlarına, o cümlədən maliyyənin haradan gəldiyi, hara getdiyi və onu necə əldə etmələri ilə bağlı əsaslı biliklərə ehtiyac duyurlar. Bu bacarıqlara marketinq bilikləri də daxildir, çünki təşkilatların və ya xidmətlərin marketinqi çox vaxt onların maliyyələşdirilməsi ilə nəticələnir. Bundan əlavə, kitabxanalara dövlət maliyyələşməsi azaldıqca, özəl fondlardan maliyyə mənbələrinin fandreyzinqin tapılması, xüsusən də yuxarı səviyyəli rəhbərlər/top menecerlər üçün çox vacibdir. Fandreyzinq çox vaxt aparır, lakin o, çox vaxt kitabxananın büdcəsinə əlavə gəlirlərin daxil olması üçün lazım olan dəstəyi təmin edir.

**Nəticə**

Liderlər də adətən təşkilati və ya institusional şəraitdə fəaliyyət göstərdikləri üçün menecer və lider terminləri bir-biri ilə sıx bağlıdır, lakin eyni deyil. Menecerlər çox vaxt rasionallıq, analitiklik və avtoritet kimi ağıl keyfiyyətləri ilə, liderlər isə daha çox proqnozlaşdırma, kreativlik, təşəbbüs və ilham kimi mənəvi keyfiyyətlər ilə əlaqələndirilir. Bir mütəxəssisin dediyi kimi, menecer harada olduğunuzla maraqlanır, amma lider sizi yeni bir yerə aparır [7] Ümumiyyətlə, liderlər vəziyyətləri idarə etməyi bacarırlar, menecerlər isə onlarla yaşamağı öyrənirlər. Digər fərqlərə aşağıdakılar daxildir: Liderlər vizyon və strategiya yaradır, menecerlər isə nəticəni həyata keçirir; liderlər dəyişikliklərin, menecerlər isə mürəkkəbliyin öhdəsindən gəlirlər; və liderlər işin şəxsiyyətlərarası aspektlərinə diqqət yetirirlər, menecerlər isə inzibati vəzifələrlə daha çox məşğul olurlar.

Sonda onu qeyd edək ki, menecerlərin işi mürəkkəb və çoxcəhətlidir və menecerlər uğur qazanmaq üçün bir sıra bacarıqlara malik olmalıdırlar.

Menecerlər həm texniki və xüsusi biznes fəaliyyətini özündə əks etdirən çətin bacarıqlara, həm də əvvəllər təsvir edilmiş şəxsiyyətlərarası bacarıqları əhatə edən yumşaq /soft bacarıqlara malik olmalıdırlar (Knight, J., 2009). Heç bir menecer onun üçün faydalı ola biləcək bütün bacarıqlara malik deyil. Lakin yaxşı menecerlər bilirlər ki, onların uğurları bacarıq və biliklərindən asılıdır və onlar iş həyatları boyu öyrənməyi və ya özlərini hər cəhətdən inkişaf etdirməyi heç vaxt dayandırmamalıdırlar. Müasir kitabxana meneceri kitabxananın gələcəyini optimist nöqteyi-nəzərindən qiymətləndirən və ən çətin proseslərdən rasional çıxış yolu tapmağı bacaran peşəkar mütəxəssisdir (Abdullayeva N., 2015) və ölkəmizdə bu ixtisas üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlanması günün tələbidir.

## Ədəbiyyat


1. Gordon-Murnane, L. (2012). "Big Data: A big opportunity for librarians", Online,Vol. 36 No. 5, 30-34.
2. https://librarianresources.taylorandfrancis.com/insights/librarian-skills-development/10-skills-librarians-need-future/
3. Johnson, Ian M. (2013). Smart Cities, Smart Libraries, and Smart Librarians // LIBRARY JOURNAL, 32(1), 4-7.
4. Stueart, Robert D. (2007). Library and information center management / Robert D. Stueart and Barbara B. Moran. - 7th ed. p. cm. - (Library and information science text series), 524 p.
5. https://granite.pressbooks.pub/ld820/chapter/6/
6. Evans, G. Edward. (1984). "Management Education for Archivists, Information Managers and Librarians: Is There a Global Core?" Education for Information 2 295–307
7. Skills of a Retail Manager. https://courses.lumenlearning.com/wm-retailmanagement/chapter/skills-of-a-retail-manager/
8. https://www.ala.org/educationcareers/careers/librarycareerssite/whatyouneedlibrarymgr
9. Knight, J. (2009). The contemporary library and information services manager: Skills and knowledge requirements. *Business Information Review*, *26*(1), 51- 56 https://doi.org/10.1177/0266382108101308
10. Abdullayeva, N.D.( 2015) Kitabxana meneceri - innovativ inkişafın nüvəsi kimi. Azərbaycan Milli Kitabxanasının Elmi Əsərləri, Buraxılış 7, s. 84-87 http://anl.az/down/elmi_eserler(N7).pdf

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2023, 2 (39), s.13-20

# ŞƏDDADİLƏR SÜLALƏSİNİN HAKİMİYYƏTDÖVRÜNÜN BƏZİ MƏSƏLƏLƏRİ (İngilisdili ədəbiyyatlar əsasında).

**Sevda Abdullayeva**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
**Lalə Abdullazadə**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
**sevda.abdullayeva.1986@mail.ru**

***Açar sözlər:*** *sülalə, hakimiyyət, varis, dövr, zaman, mübarizə, şəcərə*

*Azərbaycanın və bir sıra qonşu ölkələrin hərbi-siyasi tarixində fəal rol oynamış Şəddadilər sülaləsi X əsrin ortalarından XII əsrin sonunadək Cənubu Qafqazın Gəncə, Naxçıvan, Dvin və Ani əmirliklərində hakimiyyət başında olmuşlar. Bu sülalənin tarixinə "İranın Kembric tarixi" çoxcildliyinin beşinci cildində geniş toxunulmuşdur. Məlumatlardan bəlli olur ki, sülalənin banisi Məhəmməd ibn Şəddad ibn Qurtaq, salari hökmdarı Mərzban ibn Məhəmmədin həbs olunmasından sonra yaranmış vəziyyətədn istifadə edərək 951-ci ildə, Mərzbanın tabeçiliyində olan Dvin (Dəbil) şəhərini ələ keçirir. Bu zaman Azərbaycanı idərə edən İbrahim Salari atasının vassalı Vayzur (Vayotsdzor) hakiminin qoşununu Məhəmməd ibn Şəddada qarşı göndərir. Lakin Məhəmməd şəhər əhalisinin köməyilə salari qoşunlarını darmadağın edə bilir. Çox keçmədən, İbrahimin özünün başçılıq etdiyi qoşun Dvini ələ keçirir. Məhəmməd Vaspurakana doğru geri çəkilir, yalnız ara bir qədər sakitləşəndən sonra dvinlilərin xahişilə yenidən geri qayıdaraq şəhərdə hakimiyyətini bərpa edir.*

*Azərbaycan xalqının orta çağlar dövrünün Qərb tarix elmi əsasında tədqiqi həm Vətən tarix elminin aktual vəzifəsi, həm də zəruri nəticələr əldə olunması baxımından müstəsna əhəmiyyət kəsb etdi. Asiyanı Avropa ilə birləşdirən Azərbaycana, burada mövcud olmuş dövlətlərə obyektiv münasibətin formalaşdırılması müasir gerçəklikləri baxımından da aktualdır. Orta əsrlərdə quru yolla Hindistana çıxışın ən sərfəli marşurutu Azərbaycandan keçirdi. Buna görə də Azərbaycan Qərb dövlətləri üçün böyük əhəmiyyət kəsb edirdi. Qərbin iri dövlətləri məhz orta əsrlərdən etibarən Azərbaycan dövlətləri ilə siyasi, ticariət əlaqələri yaratmağa çalışmışlar. "İranın Kembric tarixi" çoxcildliyinin V və VI cildlərində bütün bu məsələlər birtərəfli təqdim edilmişdir.*

# ВОПРОСЫ ПРАВЛЕНИЯ ДИНАСТИИ ШАДДАДИДОВ
## (по материалам англоязычной литературы)

**Севда Физули кызы Абдуллаева**
**Лала Физули кызы Абдуллазаде**

***Ключевые слова:*** *династия, власть, преемник, эпоха, время, борьба, генеалогия.*

*Династия Шаддадов, сыгравшая активную роль в военно-политической истории Азербайджана и ряда соседних стран, правила Гянджинским, Нахчыванским, Двинским и Анийским эмиратами Южного Кавказа с середины X века до конца XX в. 12 век. История этой династии подробно освещена в пятом томе многотомной «Кембриджской истории Ирана». Из сведений видно, что основатель династии Мухаммад ибн Шаддад ибн Куртак воспользовался ситуацией, возникшей после ареста саларийского правителя Марзбана ибн Мухаммеда в 951 году, и захватил город Двин (Дабиль) под марзбаном . В то время Ибрагим Салари, правивший Азербайджаном, послал против Мухаммада ибн Шаддада войско Вайзура (Вайоцдзора), вассала своего отца. Однако с помощью горожан Мухаммеду удается победить армию салари. Вскоре армия, возглавляемая самим Ибрагимом, захватывает Двин. Мухаммед отступает в Васпуракан только для того, чтобы на время успокоиться и снова вернуться по просьбе двини, чтобы восстановить свою власть в городе.*

*Изучение средневекового периода азербайджанского народа на основе западной исторической науки стало чрезвычайно важным как с точки зрения актуальной задачи исторической науки Родины, так и с точки зрения достижения необходимых результатов. Формирование объективного отношения к Азербайджану, который связывает Азию с Европой, и существовавшим здесь государствам также актуально с точки зрения современных реалий. В средние века через Азербайджан проходил самый выгодный сухопутный путь в Индию. Поэтому Азербайджан имел большое значение для западных стран. Крупнейшие государства Запада пытались установить политические и торговые отношения с азербайджанскими государствами со времен средневековья. Все эти вопросы представлены в одностороннем порядке в V и VI томах многотомной «Кембриджской истории Ирана».*

## SOME ISSUES OF THE RULE OF SHADDADI DYNASTY (based on English literature).

**Sevda Fizuligizi Abdullayeva**
**Lala Fizuligizi Abdullazade**

***Key words:*** *dynasty, power, successor, era, time, struggle, genealogy*

*The Shaddad dynasty, which played an active role in the military and political history of Azerbaijan and a number of neighboring countries, ruled the Ganja, Nakhchivan, Dvin and Ani emirates of the South Caucasus from the middle of the 10$^{th}$ century to the end of the 12$^{th}$ century. The history of this dynasty is extensively covered in the fifth volume of the multivolume "Cambridge History of Iran". It is clear from the information that the founder of the dynasty, Muhammad ibn Shaddad ibn Qurtaq, took advantage of the situation that arose after the arrest of the salari ruler Marzban ibn Muhammad in 951, and captured the city of Dvin (Dabil) under Marzban. At that time, Ibrahim Salari, who ruled Azerbaijan, sent the army of Vayzur (Vayotsdzor), a vassal of his father, against Muhammad ibn Shaddad. However, with the help of the townspeople, Muhammad is able to defeat the salari army. Before long, the army, led by Ibrahim himself, captures Dwin. Muhammad retreats to Vaspurakan, only to calm down for a while and return again at the request of the Dvinis to restore his authority in the city.*

*The study of the medieval period of the Azerbaijani people on the basis of Western historical science became extremely important both from the point of view of the actual task of the historical science of the Motherland and the achievement of necessary results. Forming an objective attitude to Azerbaijan, which connects Asia with Europe, and the states that have existed here, is also relevant from the point of view of modern realities. In the Middle Ages, the most profitable route to India by land passed through Azerbaijan. Therefore, Azerbaijan was of great importance for Western countries. The major states of the West have been trying to establish political and trade relations with the Azerbaijani states since the Middle Ages. All these issues are presented unilaterally in volumes V and VI of the multivolume "Cambridge History of Iran".*

**Giriş.**Azərbaycanın və bir sıra qonşu ölkələrin hərbisiyasi tarixində fəal rol oynamış Şəddadilər sülaləsi X əsrin ortalarından XII əsrin sonunadək Cənubi Qafqazın Gəncə, Naxçıvan, Dvin və Ani əmirliklərində hakimiyyət başında olmuşlar. Sülalənin banisi Məhəmməd ibn Şəddad salari hökmdarı Mərzban ibn Məhəmmədin həbs olunmasından sonra yaranmış vəziyyətdən

istifadə edərək 951-ci ildə, Mərzbanın tabeçiliyində olan Dvin (Dəbil) Şəhərini ələ keçirib Dəbil əmirliyinin əsasını qoymuşdu. 955-ci ildə Salarilər Dvini tutduqdan sonra Məhəmmədin Vayzur hakiminin himayəsinə sığınan iki oğlundan böyüyü – Əbülhəsən Əli Ləşkəri 965-ci illədək Vayzurda qalır. Kiçik oğlu Fəzl isə, nəhayət, Salarilərə xidmət etməyə başlayır və salari hakimi Əli ət-Tazi tərəfindən idarə olunan Gəncəyə gəlir. Bu zaman Gəncə tez-tez müxtəlif tayfa və xalqların basqınlarına məruz qalırdı.

Göründüyü kimi Xilafətin zəifləməsi və dağılması zamanında Azərbaycan ərazisində meydana gələn dövlətlər dinindən, dilindən, etnik mənsubiyyətindən aslı olmayaraq Azərbaycan dövlətləri idi. Azərbaycan tarixində özünə məxsus yer tutan dövr yerli və xarici tədqiqatçılar tərəfindən tədqiq olunmuşdur. Elə məqalədə dövlətçilik tarixində özünə məxsus yeri olan bu dövləti araşdırarkən ingilis dilli ədəbiyyatlardan istifadə olunmuşdur. Tədqiqata cəlb olunmuş ədəbiyyatlardan istifadə olunarkən müqayisəli təhilil metoduna  üstünlük verilmişdir.

Şəddadilər dövlətinin Gəncədə hakimiyyət dövrünə dair məlumatlar ingilis dillli ədəbiyyatlarda da yer alıb. Beləki,Azərbaycanın və bir sıra qonşu ölkələrin hərbi-siyasi tarixində fəal rol oynamış Şəddadilər sülaləsi X əsrin ortalarından XII əsrin sonunadək Cənubu Qafqazın Gəncə, Naxçıvan, Dvin və Ani əmirliklərində hakimiyyət başında olmuşlar. Bu sülalənin tarixinə “İranın Kembric tarixi” çoxcildliyinin beşinci cildində geniş toxunulmuşdur. Məlumatlardan bəlli olur ki, sülalənin banisi Məhəmməd ibn Şəddad ibn Qurtaq, salari hökmdarı Mərzban ibn Məhəmmədin həbs olunmasından sonra yaranmış vəziyyətədn istifadə edərək 951-ci ildə, Mərzbanın tabeçiliyində olan Dvin (Dəbil) şəhərini ələ keçirir. Bu zaman Azərbaycanı idərə edən İbrahim Salari atasının 16ctual Vayzur (Vayotsdzor) hakiminin qoşununu Məhəmməd ibn Şəddada qarşı göndərir. Lakin Məhəmməd şəhər əhalisinin köməyilə salari qoşunlarını darmadağın edə bilir. Çox keçmədən, İbrahimin özünün başçılıq etdiyi qoşun Dvini ələ keçirir. Məhəmməd Vaspurakana doğru geri çəkilir, yalnız ara bir qədər sakitləşəndən sonra dvinlilərin xahişilə yenidən geri qayıdaraq şəhərdə hakimiyyətini bərpa edir [1, .377].

Tarixi ədəbiyyatlarda, o cümlədən “Kembricin İran tarixi” çoxcildliyində də Şəddadilər sülaləsi kürd mənşəli təqdim olunur. Əslində, dövlətçilik məsələsində bu o qədər də əhəmiyyət kəsb etmir. Məsələ ondadır ki, Azərbaycan ərazilərində hansı sülalənin hakimiyyət başında olmasından asılı olmayaraq bu dövlət Azərbaycan dövlətidir və Azərbaycan tarixi üçün mühüm əhəmiyyət kəsb edir. Lakin son dövrün araşdırmaları bu istiqamətdə yeniliklər ortaya qoymuşdur. Şəddadi nəslinin ulu babası Gurtaq Dvin və Ani bölgələrində məskunlaşmış türk boyundan olub, Salaroğullarının ordusunda xidmət etmişdir. Qədim qrabarca yazılan qaynaqlarda və Movses Xorenlinin əsərlərində Baslan (Ağrı) adlanan həmin bölgələrdə Bulqar, Vanak, Tork (türk)

boylarının yaşadığından bəhs edilmişdir. 900-cü illərin əvvəllərində yaşamış Gurtaq oğluna Xəzərlərdə və Bulqarlarda geniş yayılmış Şad adını qoymuşdu. Sülalənin daşıdığı Şəddad adı "Şad"ın ərəbcəyə uyğunlaşdırılmış formasıdır [1, 67].

Şəddadilər haqqında, onların mənşəyi və Gəncəyə gəlmələri haqqında maraqlı bir məlumatı Şərifli M.X. 1271-ci ildə Gəncədə dünyasını dəyişmiş xristian əsilli Vardana istinadən verir. Vardan yazır ki, "Həmin günlərdə Parisos nahiyəsinə (Dağlıq Qarabağ vilayətində-M.Ş.) şanlı knyaz Qriqorinin (Magistros) yanına İrandan üç oğlu ilə bərabər "Mam" adlı bir qadın gəldi. Oğullar öz anasını knyaza girov 17ctua, Şotk və Şamiram (Vaspurakan vilayətində) qalalarını aldılar" [2, 125]. Şəddadailərin mənşəyi məsələsinə toxunan Əkbər N.N yazır ki, orta əsrlər ərəb tarixiçisi İbn əl-Əsir Şəddadilər sülaləsini kürd kimi təqdim edir. O, yazır ki, bunu etnik mənada düşünmək düzgün deyildir. O zamankı kürdləri bu günki kürdlərlə eyniləşdirmək yanlışlıqdır. O zamanlar ərəblər "kürd" adı altında bütün köçəri xalqları, hətta köçəri ərəb tayfalarını da nəzərdə turdular. Misal üçün, Xələc türkləri üçün də ərəblər "kürd" adını işlədirlər. Hətta sonrakı dövr Osmanlı qaynaqlarında da "ekrad-I Bayandiriyye", "ekrad-I türkmən" (ərəbcə ekrad-kürdün cəmidir) ifadələrinə rast gəlirik ki, bu Bayandır köçəriləri və türkmən köçəriləri mənasındadır. İndiki cənub-şərqi Anadolu, şimal-qərbi Suriya, şimali İraq və şimal-şərqi İran ərazisində yaşayan Qurmancı, Sorani, Zaza, Kirmanşahi kimi az saylı və bir-birlərini artıq heç başa düşməyən xalqlar üçün ümumi Kürd adının işlədilməsi XVIII əsr Rus və Avropa siyasətinin nəticəsidir. Amma Azərbaycan Səlcuq türkləri gələnə qədər Türk yurdu idi. Səlcuq-oğuz türkləri (ümumi adı türkmənlər) üçün bəzi ölkələr siyasi və coğrafi əhəmiyyətləri xaricində "müqəddəslik" dərəcəsində xüsusi məna kəsb edirdi. Xorasan, Azərbaycan, İraq, monqolların gəlməsilə də Anadolu bu ölkələrdəndir. Xorasan, oğuzlar da daxil olmaqla, ümumiyyətlə, bütün türklər üçün "müqəddəs ata ocağı" hesab edilərkən, Aran (Arran) və Azərbaycan "türk yurdu", "vəliəhdlik məqamı", "qazılar vətəni" (Bizans, səlibçilər, xristian və şamanist-təktanrıçı Qıpçaqlara qarşı cihad edən türkmənlərin əsas mərkəzi) olaraq qiymətləndirilirdi. Ümumiyyətlə, Səlcuqlardan əvvəl və sonra türk tarixində Azərbaycan Orta və Yaxın Şərqdə qurulan bütün türk dövlətlərinin mərkəzi əyaləti hesab edilmiş və dövlətin beyni rolunu oynamışdır. Böyük Səlcuqlular, İraq Səlcuqluları və Eldənizli Atabəyləri dövründə Aran və Azərbaycan dövlətin əsas mərkəzi olmuşdur. Səlcuqlulardan əvvəl Azərbaycan ərazisində hökm sürən Rəvvadilər, Şirvanşahlar və Şəddadilər kiçik sülalə (xanədan) dövlətləri idi. Bunların idarə etdiyi torpaqlarda yaşayan xalqın böyük bir hissəsini türklər təşkil edirdilər. Bunlardan Rəvvadilər ərəb əl-əzdi, Şirvanşahlar isə ərəb Məzyədi mənşəlidirlər. Şəddadilərə gəlincə, bunlar yarıköçəri türklər tərəfindən qurulmuşdur. Beləcə, tarixçiliyimizdə yer alan Səlcuqlulardan əvvəl

Azərbaycanda "iranlı xalqların" yaşaması haqqındakı düşüncə siyasi və ideoloji bir düşüncə olub, heç bir əsası yoxdur [3, 11].

Şərifli əlavə edir ki, Vardan verdiyi informasiyada 1044-cü il hadisələri ilə əlaqədar olaraq şəddadilərin Gəncəyə gəlməsi və Fəzlun haqqında bəzi məlumat vermişdir. Vardanın "Mam adlı bir qadın" üç oğlu ilə İrandan Qriqor Magistrosun yanına Parisos nahiyəsinə gəldi-deyə yazdığı bu qəribə məlumata başqa mənbələrdə təsadüf edilmir. Yuxarıda qeyd edildiyi kimi, Şəddadi Məhəmməd öz oğulları ilə Dvin ətrafına gəlmişdi. Bunu da qeyd etmək lazımdır ki, o zaman Rəvvadi Məhəmmədin "Məmlan" adlandığı məlumdur. Lakin Vardanın Məhəmməd adlı kişini nə üçün "Mam" adlı qadınla qarışıq saldığı aydın deyildir. Bütün bunlarla bərabər Vardanın əsərində adların, tarix və sairənin səhv olmasına baxmayaraq onun şəddadilər haqqındakı yazılarında qiymətli tarixi məlumat vardır. Məhəmmədin Dəbildəki hərəkətləri Azərbaycan hakimi Mərzubanın oğlu İbrahimə yetişdi. Mərzuban Səmirəmdə həbsdə olduğu zaman Azərbaycanı oğlu İbrahim idarə edirdi. Məhəmməd ibn Şəddadın Dəbili tutduğunu eşidərək İbrahim atasının 18ctual Deyrmus (Veyzur) hakiminə məktub yazaraq Dəbili mühasirə edib Məhəmmədi oradan qovmasını tapşırdı. Deyrmus hakimi də qoşun toplayaraq Məhəmməd ibn Şəddadın üzərinə getdi. Məhəmməd isə əhalinin qüvvəsi ilə düşmənə şiddətli müqavimət göstərdi. Araz yaxınlığında baş verən vuruşmada Məhəmməd qələbə çaldı, Deyrmus hakiminin qoşunları qaçaraq yaxın meşələrdə gizləndilər. Bu hadisədən sonra Məhəmməd özünü və ailəsini müdafiə etmək üçün Təll həsli adlı qala tikdirdi. Məhəmmədin qələbə çalması xəbəri Ərdəbilə çatdıqda İbrahim Dəbilə hücum etmək üçün qoşun toplayaraq Məhəmmədin üstə göndərdi. İbrahimin süvari və piyadalardan ibarət olan qoşunları Dəbil darvazalarına çatdıqda Məhəmməd onları qarşıladı və birinci hücumlarını dəf etdi. Lakin bundan sonra döyüş daha da qüvvətləndi. Dəbil əhalisi şiddətli döyüşə dözə bilmədiyi üçün Məhəm-məddən aralandı. Döyüş meydanında yalnız öz adamları ilə qalan Məhəmməd ibn Şəddad da qaçıb qalasında gizləndi və sonra da adamları ilə bərabər Ərməniyyə ərazisinə getdi. Bundan sonra Dəbil əhalisi Məhəmmədin yanına hörmətli şəxslər göndərərək qayıtmasını xahiş edərək, 18ctual18a ona xəyanət etməyəcəklərini vəd etdilər. Başqa bir fikrə görə, Məhəmməd Dəbil ətrafındakı döyüşdən sonra Ərzuruma getmişdi. Lakin V.Minorskinin rəyinə görə bu zaman Məhəmməd Vaspurakandan uzaq getməmişdir. O, deyləmlilərin təzyiqi nəticəsində Araz çayını cənuba doğru keçərək Vaspurakana getmişdi. Məhəm-məd dəbillilərin xahişini qəbul edərək Dəbilə qayıtmış və burada hakimiyyəti yenidən əlinə almışdı [4, 190-191; 5, 9- 37]. Şəddadilər yarandıqları gündən öz ərazilərini bütün Azərbaycan yaymağa çalışırdılar. Bunula bağlı Bosvort K. da öz tədqiqatlarında qeydlər etmişdir. O, göstərir ki, Şəddadi hakimi I Fəzl (978-1031) Şəddadilərin ərazilərinin genişləndirilməsi uğrunda aktiv fəaliyyət göstərirdi. Məsələn, o, 1022-ci ildə Ərməniyyə hakimlərinin əlindən Dvini ala

bildi. Eyni zamanda Şəmkirdən qərbə doğru əraziləri də birləşdirə bildi. Müəllif eyni zamanda, 1030-cu ildə I Fəzlin Ərməniyyədə və İberiyada olan feodallarla toqquşmalarından da xəbər verir [6, 169-170; 8, 94-95]. Lakin Bosvort K. Şəddadilərin şəcərəsindən yazanda bir sıra yanlışlıqlara yol verir. Məsələn, o, səhv olaraq Əbül Həsəni I Fəzlin oğlu kimi təqdim edir. Lakin o, I Fəzlin nəvəsi, Musanın oğlu idi. Eyni zamanda, Bosvort hesab edir ki, Əbül Əsvar Şavur Əbül Həsənin qardaşıdır. Lakin o, Əbül Həsənin dayısı olmuşdur. Bundan başqa Bosvort K. Yazır ki, Əbül Əsvar Şəddadilərin sonuncu müstəqil hökmdarı olmuşdur. O, bu məsələdə də tarixi yanlışlıqlara yol vermişdir. Çünki Şəddadilərin Gəncədə hakimiyyəti 1075-ci ildə başa çatmışdır. Bu müddət ərzində, yəni Əbül Əsvarın ölümündən sonra bir-birlərini əvəzləyən II Fəzl, Aşot və Fəzlun hakimiyyətdə olmuşlar. Sonradan özünün başqa bir əsərində Şəddadilərin şəcərəsinə toxunan müəllif Əbül Əsvarın ölümündən sonra II Fəzli və Fəzlunu göstərmiş və Aşotun qısa hakimiyyətini verməmişdir [7, 94-95; 9, 90].

**Nəticə**.Azərbaycan xalqının orta çağlar dövrünün Qərb tarix elmi əsasında tədqiqi həm Vətən tarix elminin 19ctual vəzifəsi, həm də zəruri nəticələr əldə olunması baxımından müstəsna əhəmiyyət kəsb etdi. Asiyanı Avropa ilə birləşdirən Azərbaycana, burada mövcud olmuş dövlətlərə obyektiv münasibətin formalaşdırılması müasir gerçəklikləri baxımından da aktualdır. Orta əsrlərdə quru yolla Hindistana çıxışın ən sərfəli marşurutu Azərbaycandan keçirdi. Buna görə də Azərbaycan Qərb dövlətləri üçün böyük əhəmiyyət kəsb edirdi. Qərbin iri dövlətləri məhz orta əsrlərdən etibarən Azərbaycan dövlətləri ilə siyasi, ticariət əlaqələri yaratmağa çalışmışlar."İranın Kembric tarixi" çoxcildliyinin V və VI cildlərində bütün bu məsələlər birtərəfli təqdim edilmişdir. Bu kiçik məqalə ilə Azərbaycanda Şəddadilər sülaləsinin hakimiyyətinin bəzi məsələlərinə toxunduq. Sonda qeyd etmək istərdik ki, bu sülalələ dövlətçilik tariximizdə xüsusi rol oynamış, Gəncə və ətrafının ictimai-siyasi-mədəni həyatında önəmli işlər görmüşlər.

## Ədəbiyyat


1.Azərbaycan tarixi. Yeddicilddə. II cild (III-XIII əsrin I rübü). Bakı: Elm, 2007, 608s. +24 illüstrasiya.

2.Вардан. Всеобщаяистория. Москва, 1861. 63 с.

3.Əkbər N.Nəcəf. Səlcuqludövlətləri və Atabəyləri tarixi. (Oğuzların ortaya çıxmasından – XIV əsrəqədər). Bakı, Qanun, 2010, 756 s.

4.Şərifli M.X. IX əsrin ikinciyarısı-XI əsrlərdə Azərbaycan feudal dövlətləri. Bakı, Elm, 1978, 344 s.

5.Minorski B. Studies in Caucasian history. London, 1953, p.1-773.

6.Bosworth C.E. Shaddadids / The Encyclopeaedia of Islam/ New edition: in 12 volumes. Vol. IX / Ed. By C.E.Bosworth, E. Van Donzel, W.Heinrichs, G. Lecomte. Leiden: Brill, 1977, pp. 169-170
7.The Cambridge history of İran. In eight volumes. Volume 5. The Saljuq and mongol periods. edited by J.A.Boyle. Cambridge at the university press, 1968, 770 p.
8.Azərbaycan tarixi. (ənqədim zamanlardan-XXI əsrin ilk onilliklərinədək). Ali məktəblər üçün dərslik. Bakı, BakıUniversiteti, 2014, 380 s.
9.Bosworth C.E. The Islamic Dynastic, a chronological and genealogical handbook. Edinburgh: Edinburgh University Press, 1967, 245 p.

# SÜNİ İNTELLEKT FƏLSƏFƏSİNİN İNKİŞAF MEYLLƏRİ

**Turanə Əsədova**
**Gəncə Dövlət Universiteti**
**esedovaturane246@gmail.com**

***Açar sözlər**: fəlsəfədə şüur problemi, süni intellekt, süni intellekt fəlsəfəsi.*

*"Süni intellekt", şüurun elmi tədqiqinin mühüm istiqamətlərindən biri kimi qəbul edilsə də, tədqiq olunan mənbələrə əsaslanaraq, belə bir nəticəyə gəlmək olar ki, XX əsrin ikinci yarısından başlayaraq, süni intellekt fəlsəfəsi fəlsəfənin nisbətən müstəqil bir sahəsi kimi formalaşmağa başlamışdır.Süni intellektə olan marağın sürətlə yayılmasına baxmayaraq, böyük əksəriyyət onun nə olduğu və ya problematikasının nələri əhatə etdiyinə dair az məlumatlıdır.*

*Məqalədə, fəlsəfənin yeni bölməsinin fəlsəfi biliklərin müstəqil sahəsi kimi meydana çıxması faktı və dövrü müəyyənləşdirilmiş, həmçininsüni intellekt fəlsəfəsini, fəlsəfənin müstəqil bölməsi kimi formalaşmağa başladığını əsaslandırmağa imkan verən xüsusiyyətləri müəyyən etmək üçün təqdim olunan ədəbiyyat tədqiq edilmişdir.Bu məqsədlə, şüur və süni intellek fəlsəfəsinə dair yazılmış elmi əsərlərdən və məqalələrdən istifadə edilmişdir.*

*Tədqiqatın əsas elmi nəticəsi bundan ibarətdir ki, süni intellekt fəlsəfəsi fundamental biliklərin yeni sahəsi olsa da, nisbətən müstəqil sferasıdır. Süni intellekt fəlsəfəsinin əsas məsələsi, "maşın düşünə bilərmi?" əsas sualı ilə müəyyən edilir və ümumi fəlsəfi kateqoriyaların funksiyalarına oxşar rolu yerinə yetirən xüsusi metodoloji aparatdan ibarətdir.*

# ТЕНДЕНЦИИ РАЗВИТИЯ ФИЛОСОФИИ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА

**Турана Асадова**

***Ключевые слова:** проблема сознания в философии, искусственный интеллект, философия искусственного интеллекта.*

*Хотя «искусственный интеллект» считается одним из важных направлений научного изучения сознания, на основе исследованных источников можно сделать вывод, что начиная со второй половины XX века философия искусственного интеллекта начала формироваться как относительно самостоятельная область философии.Несмотря на быстрое распространение интереса к искусственному интеллекту,*

*подавляющее большинство мало что знает о том, что это такое и в чем заключаются его проблемы.*

*В статье определяется факт и период возникновения новой отрасли философии как самостоятельной области философского знания, а представленная литература изучается с целью определения характеристик, позволяющих обосновать формирование философии искусственного интеллект как самостоятельный раздел философии.Для этого использовались научные труды и статьи, написанные по философии сознания и искусственного интеллекта.*

*Главный научный результат исследования заключается в том, что философия искусственного интеллекта является относительно самостоятельной сферой, хотя и новой областью фундаментальных знаний.Центральный вопрос философии искусственного интеллекта: «Может ли машина думать?» определяется ее основным вопросом и состоит из особого методологического аппарата, выполняющего роль, аналогичную функциям общефилософских категорий.*

## DEVELOPMENT TRENDS OF ARTIFICIAL INTELLIGENCE PHILOSOPHY

**Turana Asadova**

***Key words:*** *the problem of consciousness in philosophy, artificial intelligence, philosophy of artificial intelligence.*

*Although "artificial intelligence" is considered one of the important directions of the scientific study of consciousness, based on the researched sources, it can be concluded that starting from the second half of the 20th century, the philosophy of artificial intelligence began to form as a relatively independent field of philosophy.Despite the rapid spread of interest in artificial intelligence, the vast majority know little about what it is or what its problems involve.*

*In the article, the fact and period of the emergence of a new branch of philosophy as an independent field of philosophical knowledge is determined, and the literature presented is studied in order to determine the characteristics that allow to justify the formation of the philosophy of artificial intelligence as an independent branch of philosophy.For this purpose, scientific works and articles written on the philosophy of consciousness and artificial intelligence were used.*

*The main scientific result of the study is that the philosophy of artificial intelligence is a relatively independent sphere, although it is a new field of fundamental knowledge.The central question of the philosophy of artificial intelligence is, "can a machine think?" is defined by its main question and*

*consists of a special methodological apparatus that performs a role similar to the functions of general philosophical categories.*

**Giriş.** "Süni intellekt" anlayışını ilk dəfə eşidən insanlarda - istər elm adamı, istər müəllim, istər tələbə, istərsə də digər peşə sahələrinin nümayəndələri olsun, hamıda təəccüb dolu bir maraq oyanır. Belə bir marağın yaranmasına səbəb isə "şüur" kimi mücərrəd bir məfhumun, "süni" ilə birləşdirilməsindən mürəkkəb bir kateqoriyanın ortaya çıxmasıdır. "İntellekt" və "şüur"un "süni" ilə səciyyələndirilməsi, onun insanların maraqlandığı mövzuya çevrilməsi ilə məhdud qalmamış, artıq onun yaxın gələcəkdə həyatın bir sıra sahələrinə tətbiq edilməsi üçün geniş imkanlar açılacağına dair bütün şübhələr demək olar ki, ortadan qalxmışdır. Lakin belə bir məfhumun səbəb olduğu maraq bir tərəfə dursun, bu iki anlayışın əhatə dairəsinə dair, demək olar ki, əksər insanda, çox az informasiya mövcuddur. Başqa bir ifadə ilə desək, süni intellektə olan marağın sürətlə yayılmasına baxmayaraq, böyük əksəriyyət onun nə olduğu və ya problematikasının nələri əhatə etdiyinə dair az məlumatlıdır.

**Süni intellekt fəlsəfəsinin meydana gəlməsi**. "Süni intellekt" anlayışının elmə gətirilməsi amerikan filosofu Con Makkartinin adı ilə bağlıdır. Süni intellekt fəlsəfəsi son əsrdə bir sıra ingilisdilli ölkələrdə postpozitivizm dalğasında yaranmış fəlsəfi biliklərin və metodoloji fənlərarası fəaliyyətin xüsusi sahəsi kimi formalaşmışdır [2, 24]. Tədqiq olunan mənbələr də onu deməyə əsas verir ki, XX əsrin ikinci yarısında, süni intellekt fəlsəfəsi artıq fəlsəfənin müstəqil bir qolu kimi formalaşmağa başlamışdır.

Halbuki, 1990-cı illərə qədər indiki post-sovet məkanında süni intellekt fəlsəfəsinin problemlərinə maraq son dərəcə zəif olmuşdur, çünki təkcə süni deyil, həm də təbii zəkanın dərk edilməsinə "burjua" nəzəri yanaşmaları marksist doktrinlə uzlaşmırdı. Halbuki, həmin dövrdə qərbdə, süni intellekt fəlsəfəsinin müstəqil fəlsəfi bilik sahəsinə çevrilməsi prosesi davam edirdi [2, 25].

Süni intellekt, elm və texnologiyanı özündə birləşdirən nəzəri və praktik sahələrin başında gəlir, bir sıra elm sahəsi ilə çulğaşması səbəbi ilə çox genişəhatəyə malikdir. Özünəməxsus dərin fəlsəfəsi ilə, sistematik bir əsasa söykənərək, qərar alma və təkmilləşdirmə prosesindəki mürəkkəbliyə psixologiya elmi ilə çıxış yolları tapılır. Süni intellektin ortaya çıxmasında böyük əhəmiyyəti olan fəlsəfə, maşının tətbiqi ilə ədədi təfəkkürlə çulğaşmış, fəlsəfə və riyaziyyatın ədədi təsviri ilə yeni riyazi dil yaradılmış, süni intellektin inkişafının və praktikada tədqiqinin əsası qoyulmuşdur. Nəhayət, qeyd etdiyimiz bütün elmləri və məlumatları kateqoriyalaşdırıb, kateqorik məlumatlardan yenidən istifadə edilən əsərlərin yaradılması və işlək hala gətirilməsi isə bu sahənin mütəxəssislərinin fəaliyyət sahəsinə daxildir.Süni intellektə

ideyalar, perspektivlər və avadanlıqlar təmin edən fənlər, ağıllı maşınlar yaratmaq üçün nələrə ehtiyac olduğu nöqtəsində süni intellekt ilə əlaqədardır.

Fəlsəfə, riyaziyyat, məntiq, psixologiya, biologiya, mühəndislik və dilçilik süni intellektin əlaqəli olduğu və zəkanın müəyyən aspektlərinin avtomatlaşdırılması və təkmilləşdirilməsinin istiqamətləndirilməsi proseslərinə təkan verən elm sahələridir [10, 27]. Bu kontekstdə süni intellekt fəlsəfəsinin, fəlsəfə ilə olan əlaqəsini izah edəcəyik.

**Süni intellekt fəlsəfəsinin fəlsəfə ilə olan əlaqəsi.** Bəşəriyyət min illərdir məntiqlə mülahizə yürütsə də, bu bağlantını təhlil etməyə çalışan ilk şəxs, özünün "sillogizm" adlandırdığı bir mülahizəsində yunan filosofu Aristotel olmuşdur. Aristotelin bu töhfəsinin süni intellekt üçün əhəmiyyəti forma ilə bağlıdır. Onun məşhur ifadəsində olduğu kimi, "bütün insanlar fanidir, bütün yunanlar insandır, ona görə də bütün yunanlar fanidir". Bu məntiq, mülahizələrin avtomatlaşdırılması üçün aşağıdakı iki çıxış nöqtəsini təqdim edir:

- Sillogizm kimi mülahizə nümunələrini forma və ya şəkil olaraq göstərmək çətin məsələ deyil. Sillogizm, doğru kimi qəbul edilən iki mühakimə əsasında üçüncü mühakimə yürütməyə əsaslanan mülahizə üsulu, sillogizm və məntiqdir.
- Ümumi simvolların yerinə, müəyyən bir problemə xas xüsusi simvollar qoyulanda, hər hansı bir cavabı əldə etmək üçün sadəcə "qolu aşağı salmaq" kifayət edəcəkdir. Ümumi simvollar və oxşar keçid proseslərindən istifadə edilməsi, bütün müasir süni intellekt proqramlarının əsasını təşkil edir.

Süni intellektin fəlsəfi tərəfini araşdıran amerikalı filosof və fəlsəfə professoru H.Dreyfus, süni intellektin tarixinin Platonun əsərlərinə gedib çıxdığını qeyd edir. Onun əsərlərindən birində Sokrat həmsöhbətinə bele bir sual verir: "insan davranışlarını tutarlı və etibarlı edən xüsusiyyət nədir?" [12, 8-9]. Bu gün süni intellektdə etika və əxlaq kimi müzakirələrin aparıldığı bir vaxtda Sokratın sualı dünyanı dəyişmək imkanları günü-gündən artan insanların sağlam düşüncə, ləyaqət kimi xüsusiyyətləri necə kodlaşdırılması zərurətini ortaya qoyur.

Süni intellekt və fəlsəfə arasındakı əlaqənin əsası düşüncənin sistemləşdirilməsindədir. İnformasiyanın kateqoriyalara görə təsnifatı və informasiya istehsalında bu kateqoriyalar arasında əlaqələr şəbəkəsinin qurulması süni intellektin inkişafında fəlsəfənin əhəmiyyətini artırmışdır. Süni intellekt əsasən maşın öyrənməsini əhatə edir. Bu baxımdan, öyrənmə və ağıl arasındakı əlaqənin müəyyən edilməsi, öyrənmə modellərinin işlənib hazırlanması və biliyin hesablana bilən alt qollara bölünməsi, əslində, bu sahədə fəlsəfənin zəruriliyini qaçınılmaz edir [11, 59].

Şübhəsiz ki, süni intellekt fəlsəfəsi "bilmək", "düşünmək", "başa düşmək", "xəbərdar olmaq" nə deməkdir" məsələsinin əksidir, lakin "süni

intellektin fəlsəfəsi daha geniş başa düşülməlidir - o, fundamental sosial-mədəni məsələlərə və şüur probleminə birbaşa çıxışı var, fəlsəfənin əsas məsələsinin - şüur və varlıq arasındakı əlaqənin əsas aspektlərini analitik şəkildə aydın ifadə edir. [2, 25].

Amerikalı filosof C.Makkarti süni intellekt fəlsəfəsini artıq öz "məsuliyyət sahəsi"nə qərar vermiş və müvafiq fəlsəfəni inkişaf etdirmiş digər özəl elm fəlsəfələri kimi fəlsəfi biliklərin eyni ixtisas sahəsi hesab edirdi. McCarthy süni intellekt fəlsəfəsinin xüsusiyyətlərini belə təqdim edir ki, istənilən süni intellekt sistemi, fəlsəfi müddəaların, əsasən qnoseoloji planın konseptual, metodoloji və proqram-informasiya bölmələrinin həyata keçirilməsini tələb edir.

Süni intellekt fəlsəfəsi, fəlsəfənin əsas bölmələri - ontologiya və qnoseologiya ilə sıx bağlıdır. Süni intellekt fəlsəfəsi təbii ağıl və süni intellekt məsələlərini ayrılmaz şəkildə müzakirə etməlidir [9, 4]. Bu mövzuya, süni intellekt problemləri ilə şüur problemlərinin bu və ya digər dərəcədə ayrılmaz əlaqəsi mövzusuna bir sıra mütəfəkkirlər öz əsərlərində toxunmuşlar. Bundan başqa qeyd etmək lazımdır ki, süni intellekt fəlsəfəsi etika ilə açıq şəkildə kəsişir. Buna əsaslanaraq belə nəticəyə gəlmək olar ki, süni intellekt fəlsəfəsi mürəkkəb fənlərarası tədqiqatlar sistemidir [1,10].

**Süni intellektin inkişaf meylləri.**Süni intellekt sistemlərinin təcəssüm olunmuş versiyaları üzərində işləyən robototexnika sahəsinin, süni intellekt mövzusundaböyük əhəmiyyəti olduğu danılmaz faktdır. "Fiziki və əqli cəhətdən subyekt keyfiyyətlərini göstərən, lakin bioloji cəhətdən canlı olmayan qurulmuş sistemlər" robot adlanır [5, 6]. Robotun vahid tərifi olmasa da, robot cihazları, əvvəlcədən müəyyən edilmiş təlimatlara uyğun olaraq vəzifələrini yerinə yetirə və ətraf mühitlə qarşılıqlı əlaqə qura bilən maşınlardır. Robotun geniş şəkildə qəbul edilmiş mövcud izahına görə, robotların üç əsas komponenti var: ətraf mühiti müşahidə edərək dəyişiklikləri aşkar edən sensorlar, necə reaksiya verəcəyinə qərar verən prosessorlar və ya süni intellekt və robotun ətraf mühitə reaksiyasını ortaya qoyan praktiklər [13, 87]. Beləliklə, süni intellekt dediyimiz şey robotun qərar vermə tərəfidir.

XX əsrdə tenxologiya tədricən inkişaf etdi və "insanabənzər" robotlar inkişaf etdirilə biləcək səviyyəyə çatdı. O qədər ki, robotlar insanlara kömək edən maşın olmaqdan daha çox insanı üstələyə bilən varlıqlar kimi xəyal edilməyə başlandı. Ətrafını idarə edən, hərəkət edən və vəzifələrini əvvəlcədən müəyyən edilmiş təlimatlara və ya əmrlərə əsasən yerinə yetirən elektromexaniki cihazlara istinad etmək üçün istifadə ediləcək robot sözü ilk dəfə 1920-ci ildə Karel Capekin (1890-1938) "Rossumun Universal Robotları" adlı oyununda istifadə edilmişdir.

Etimoloji mənşəyi çex dilində olan robot sözü bu dildə "məcburi əmək", "məcburetmə" və "ağır iş" mənasını verir. "Rossumun Universal Robot-

ları”ndakı robotların diqqətəlayiq xüsusiyyəti, hər şeyi yadda saxlaya bilən yaddaşa malik olsalar da, düşünə bilməmələridir. Düşünən robot ideyası bu tarixdən təxminən 30 il sonra ortaya çıxacaq.

Isaac Asimovun 1950-ci ildə nəşr olunan və robot hekayələrini özündə cəmləşdirən “I, Robot (Mən robot)” kitabı robot anlayışını və insanlarla robotlar arasındakı əlaqənin təbiətini şübhə altına alan ilk elmi fantastika əsəridir. Robotlar inkişaf etdikcə ortaya çıxacaq problemlər haqqında düşünərək, müxtəlif növ robotlar qurur və “İnsan nədir?” sualını verir. Robotlarla bağlı sualı müzakirə edən Asimov robotların iş prinsiplərini “Üç Robot Qanunu” ilə müəyyən etmişdir:

1. Robotlar insanlara xəsarət yetirə bilməz və ya hərəkətsiz qalaraq insanların zərər çəkməsinə icazə verə bilməz;
2. Robotlar yuxarıdakı birinci qanuna zidd olmadığı müddətcə insanların verdiyi əmrlərə tabe olmalıdır;
3. Robotlar birinci və ya ikinci qanuna zidd olmadığı müddətcə öz varlıqlarını qorumalıdırlar.

“Üç Robot Qanunu” həm də indi “robot etikası” adlanan sahənin başlanğıc nöqtəsidir. Etik muxtariyyət, robotlar istehsal edilərkən müəyyən edilməli və tətbiq edilməli olan qaydaları müəyyən etmək üçün düşüncələr Asimovun “Üç Robot Qanunu”na bir töhfə və ya tənqid kimi yaradılmışdır.

Stiven Hokinq 2014-cü ildə dərc etdiyi bir məqalədə həqiqi düşünmə qabiliyyətinə malik kompüterin “bəşər tarixində ən böyük hadisə” olacağını və insandan daha ağıllı bir kompüteri elmi fantastika məhsulu hesab etməməyin “məsəl” olacağını söyləmişdir. “Tarixdəki ən böyük səhvimiz”, bugünkü məşhur müzakirəni alovlandırarkən, süni intellektlə şüurun tək varlıqda bütünləşməsinin fitilini atəşləmişdir [7].

Mövcud robot texnologiyası “xüsusi” və ya “dar” adlanan süni intellekt sistemlərindən istifadə edir.Dar mənada süni intellekt bir və ya bir neçə konkret tapşırıq üçün proqramlaşdırılmış intellekt deməkdir. Ən mürəkkəb kompüter oyunlarında belə, insanlardan çox daha sürətli və müvəffəqiyyətli olan kompüter proqramları, konsertlər hazırlayan və hətta verən süni intellekt, sürücüsüz ağıllı avtomobillər, yeməyin fotoşəkilindən resept verən telefon proqramı, süni intellekt dodaqları insanlardan çox daha yaxşı oxuyan, bir-biri ilə ünsiyyət dilini inkişaf etdirən, sadə bir sözdən ibarət əmrlərdən başlayaraq cümlələr qurmağa başlayan və hətta öz dilində qrammatik quruluş yaradan süni intellekt, riski hesablaya bilən süni intellekt ürək döyüntüsü hərəkətlərindən infarkt və digər bioloji məlumatlardan xərçəng riski, hesabat yaza bilən, birjada ticarət edə bilən və qutular daşıya bilən süni intellekt. Kompüter görmə qabiliyyətini istifadə edərək görmə maneəlilər və bunlara hər gün əlavə edilən bir çox inkişaf, gündəlik həyatımızda qarşılaşdığımız süni zəkanın funksional, lakin dar tətbiqləridir. Süni intellektə malik bu maşınların gördüyü işlər adi və

proqnozlaşdırıla bilən vəzifələrdən ibarətdir.Çünki onların proqramlaşdırıldığı vəzifədən başqa heç bir iş görmək qabiliyyəti yoxdur. Çox yaxın vaxtlara qədər, süni intellekt investisiyalarının əksəriyyəti bu şəkildə dar ixtisaslaşdırılmış sistemlərə edilirdi.

Stiven Hokinqin bəşər tarixində ən böyük hadisə olacağını təxmin etdiyi süni intellekt o qədər də dar bir süni intellekt deyil; Onlar yeni fikirlər irəli sürə bilən, daha əvvəl qarşılaşmadıqları mühitlərə uyğunlaşa bilən, özləri üçün "yeni" adlandırıla biləcək problemlərə həllər istehsal edən, geniş zəka və düşünmə qabiliyyətinə malik süni zəkalardır.Süni intellekt fərqinin dar-geniş mənası zəif-güclü süni intellekt fərqinin başqa bir təfsiridir. 200 nəfərin süni intellektlə bağlı araşdırma apardığı ümumi süni intellekt üzrə sorğunun nəticələri açıq şəkildə göstərir ki, biz dar süni intellekt tədqiqatından geniş süni intellekt tədqiqatına keçid prosesindəyik. Müvafiq olaraq, respondentlərin 42%-i düşünmə maşınının 2030-cu ildə mümkün olacağını, 25%-i bu tarixin 2050, 20%-i isə 2100 olacağını; yalnız 2% düşünən maşının heç vaxt mövcud olmayacağına inandığını deyir [3, 196-197]. Bir çox tədqiqatçıya görə, Google, Amazon, Facebook kimi iş modellərinin mərkəzinə süni intellekt qoyan şirkətlərin yüksəlişi, hətta onların süni intellekt üzərində rəqabətə girmələri süni intellektin geniş olduğunu göstərən siqnallar kimi qəbul edilməlidir. yaxınlaşır. Bənzər rəqabətin ölkələrin süni intellekt maliyyələşdirməsi və siyasətləri arasında da yaşandığını nəzərə alsaq, indi super süni intellekt dövrünə doğru sıçrayışda olduğumuzu söyləmək səhv olmaz.

Süni intellektin gələcəyi ilə bağlı müzakirələrdə ümumi inam ondan ibarətdir ki, ümumi süni intellektə nail olunduqdan sonra insan intellektini üstələyən süni sistemlərin inkişafı çox sürətlə baş verəcək. Özünü təkmilləşdirə, dizaynını yeniləyə, proqram təminatını yeniləyə bilən süni sistem, özünün daha yüksək versiyasını, o versiya isə eyni texnika ilə özünün daha yüksək versiyasını istehsal edə biləcək və sistem hər revizyonla daha ağıllı olur [6, 264]. Bu dövrənin insanlardan milyonlarla dəfə daha ağıllı bir maşının meydana çıxması bu baxımdan təəccüblü deyil.

İlk dəfə kompüterlərin qabaqcılı sayılan Con von Neumann tərəfindən istifadə edilən "təklik" anlayışı, super zəkaların qurulması ilə meydana çıxması ehtimal edilən texnologiya dövrünə verilən addır. Bu gün təklik dedikdə ağla gələn ilk ad, şübhəsiz ki, Ray Kurzueildir. Təkliyin 2045-ci ildə reallaşacağı tarixə işarə edən Kurzweilin fikrincə, texnoloji təkliyin xaricində insan zəkasının müxtəlif beyin implantları ilə inkişaf edəcəyi və insan və maşın birləşəcək. Bu birləşmənin nəticəsi həm də insanın ölməzliyi ilə nəticələnəcək; Bioloji bədənimizi ölümsüz edə bilən texnologiyalarla yanaşı, zehni ölümsüzlük də insan zehnini maşına yükləyərək mümkün olacaq.

Süni intellektin inkişafının idarə oluna bilməyən bir intellekt növünü ortaya çıxaracağından narahat olaraq, bu sahədə bütün araşdırmaların "dost süni

intellekt" adlandırılan etik süni intellektə yönəldilməsi lazım olduğu müvafiq dairələr tərəfindən daim vurğulanır. Dost olmayan güclü süni intellektdən qorunmaq üçün strategiyalar hazırlanır. Bu yanaşmaya görə, özünü inkişaf etdirən güclü süni intellekt ilkin vəziyyətinə qaytarıla bilmədiyi üçün insana uyğun və insani dəyərləri dəstəkləyən süni intellekt ilk dəfə və səhvsiz istehsal edilməlidir. [8,613]. Bununla belə, gələcəyin süni intellektinin insanların sahib olduğu etika və dəyərlərə sahib olmasını təmin edəcək strategiyalar hazırlamaq mümkün görünmür. Bundan əlavə, bu sahədə hər bir qayda və təcrübə istisnasız olaraq bütün dövlətlər tərəfindən qəbul edilməli və işlədilməlidir, ona görə də hakimiyyəti ələ keçirmək istəyi "dost süni intellekt" strategiyalarına imkan verməyəcək. Bu mənada ölümcül süni intellektdən istifadə bəşəriyyət üçün qorxulu ssenarilər mənbəyidir; çünki görünən odur ki, dövlətlərin tərk etmək istəmədiyi güc yarışı onların yalnız etik prinsiplərə tabe olan süni intellektlə məhdud istehsal yanaşmasına mane olacaq.

Süni intellektin istehsalını dostluq süni intellektlə məhdudlaşdırmaq mümkün olsa belə, insan zəkasını üstələyən maşınların olacağı bir dünyada bu vəziyyətin məşğulluq və iqtisadiyyata mənfi təsirləri süni intellektin gələcəyi üçün müzakirə edilən məsələlər arasındadır. kəşfiyyat. İnsanların alacağı təlimlər onların maşınlarla rəqabət apara bilməsi üçün kifayət etməyəcək və hətta insanlara xas olduğu düşünülən işlər də risk altında olacaq [6, 264]. Bu gün rutin və proqnozlaşdırıla bilən işlərdən ibarət peşələr maşınlarla əvəz olunmağa başlasa da, güclü süni intellektlə yanaşı yaradıcılıq tələb edən iş sahələrinin də maşınların nəzarətində olması mümkündür.

Xalq psixologiyasında süni intellektin qarşılığını belə ifadə etmək olar: kompüterlər, maşınlar vəyaxud robotlar insan zəkasına çatacaq, hətta insan zəkasını da keçəcək. Süni intellekt araşdırmaları davamlı olaraq bu iddianı dəstəkləyən inkişaflara şahidlik edir. Google-un Deep Mind layihəsi, AlphaGo və daha sonra AlphaGo Zero-nun uğurları, özünüdərk sınağından keçən və daim yenilənən robotlarla bəlkə də 10 il əvvəl ancaq pıçıldayan super zəkanın müzakirələri bu günlərdə yüksək səslə səsləndirilməyə başladı. təklik anlayışı ilə bağlı ssenarilər [4, 501-502]. Bu da düşündürücüdür ki, təklik və onu dəstəkləyən elmi dəlillər hər gün fərqli bir kanalla təqdim olunmağa davam etsə də, hələ də cavab gözləyən fundamental və qədim fəlsəfi problemlər var: "İnsan zəkasını aşmaq nə deməkdir? İnsan zəkasının mənası nədir və onun şüurla əlaqəsi nədir?" Bir fikir ondan ibarətdir ki, biz super zəkalar haqqında danışmaqdan əvvəl beyni və ya insan şüurunu təqlid edən bir sistem inkişaf etdirmək üçün gözləməli deyildik, çünki kompüterlər insanın hesablama qabiliyyətini və sürətini çox üstələyib. Başqa bir görüş isə üstün zəkaların zəruri şərtinin şüur olduğunu vurğulayır.

Süni intellekt fəlsəfəsinin əsas müzakirələrini problemləri həll etmə metodlarına görə dörd başlıqda toplamaq mümkündür. Birinci qrup təfəkkürün

semantik məzmununu müzakirəyə açaraq süni intellektin mümkünlüyünə məhəl qoymur. İkinci qrup rasionallığın mahiyyəti ilə bağlı süni intellektə qarşı arqumentlər irəli sürür. Üçüncü qrupa daxil olan süni intellektin filosofları məsələyə insanın transsendental təfəkkür gücü vasitəsilə baxaraq, süni intellektin reallaşmasının mümkünlüyünü qiymətləndirirlər. Son qrupda süni intellektlə bağlı müzakirələr ağıllı maşının fiziki quruluşu üzərində aparılır.

**Nəticə.**Burada tədqiq olunan mənbələr, onu deməyə əsas verir ki, süni intellekt fəlsəfəsi kifayət qədər gənc, lakin fəal inkişaf edən fəlsəfə sahəsidir. Ötən əsrin ikinci yarısında müstəqil istiqamət kimi seçilən bu fəlsəfə, fəlsəfənin digər bölmələri ilə qırılmaz şəkildə bağlıdır və bunu əksər müəlliflər təsdiqləyir. Lakin, digər fənlərlə əlaqələrin müxtəlifliyinə baxmayaraq, o, cavab axtardığı "maşın düşünə bilərmi?" sualına görə hələ də kifayət qədər dar "ixtisaslaşmışdır".

## Ədəbiyyat


1. Алексеев, А.Ю.Философия искусственного интеллекта - концептуальный статус комплексного теста Тьюринга: автореф. дис. ... д-ра философских наук. – Москва: Московский гос. ун-т им. М.В.Лобачевского, – 2016. – 482 с.
2. Алексеев, А.Ю. (2006). Уровни изучения искусственного интеллекта // - Материалы студенческой конференции. Философия искусственного интеллекта,– 2006. – с. 24−35.
3. Barrat, J. Our final invention: artificial intelligence and the end of human era. – New York: Thomas Dunne, – 2013. – 322 p.
4. Bringsjord, S.J., Real robots that pass human tests of self-consciousness. Proceedings of IEEE the 24th International Symposium on Robots and Human Interactive Communications. – 2015.– 498-504 p.
5. Ersoy, Ç. Robotlar, yapay zeka ve hukuk. – İstanbul: On iki levha, – 2017. – 226 s.
6. Ford, M. Robotların yükselişi yapay zeka ve işsiz bir gelecek tehlikesi. – İstanbul: Kronik, – 2018. – 336 s.
7. Hawking S., Russell S., Tegmark M., Wilzeck F. Stephen Hawking: Transcendence Looks At the Implications of Artificial Intelligence- But Are We Taking AI Seriously Enough?: [Electronic resource] / The Independent.– May 1, 2014. URL: https://www.independent.co.uk/news/science/stephen-hawking-transcendencelooks-at-the-implications-of-artificial-intelligence-but-are-we-taking-9313474.html.
8. Kurzweil, R.İnsanlık 2.0. – İstanbul: Alfa, – 2017.
9. Ладов, В.А. Философские проблемы искусственного интеллекта. – Томск: Томский Г.У., – 2006. – 42 с.

10. Nillson, N.J. Yapay zeka geçmişi ve geleceği. – İstanbul: Boğaziçi Universiteti, – 2018. – 695 s.
11. Разин, А.В. Этика искусственного интеллекта // –Философия и общество. − 2019. № 1, – с. 57-73
12. Russell, S.J.,Norvig, P. Artificial Intelligence. A Modern Approach. - New Jersey: Upper Saddle River, – 2009. – 1110 p.
13.Singer, P.W. Robotik savaş: 21. yüzyıldaki robotik devrim. – Ankara: Buzdağı, 2015. – 576 s.

# XX ƏSRİN 90-CI İLLƏRİNDƏ AZƏRBAYCANIN TÜRKDİLLİ DÖVLƏTLƏRLƏ ELM VƏ TƏHSİL SAHƏSİNDƏ ƏLAQƏLƏRİ

**Vaqif Hacıyev**
**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası**
**prof.khagani.mammadov@gmail.com**

***Açar sözlər:*** Azərbaycan, Türkiyə, Mərkəzi Asiya, elm, təhsil, əməkdaşlıq, müqavilə, inkişaf.

*Məqalədə Azərbaycan dövlət müstəqilliyinin bərpasından sonra dil, mədəni-mənəvi, soykök eyniliyi və tarixilik baxımından bir-birinə bağlı olan türkdilli dövlətlərlə elm və təhsil sahəsində yaradılan əlaqələr, bu sahələr üzrə Türkiyə Cumhuriyyəti və Mərkəzi Asiyanın türkdilli dövlətləri ilə bağlanan ikitərəfli sazişlər və müqavilələr, onların həyata keçirilmə səviyyəsi, respublika rəhbərliyinin türkdilli dövlətlərlə yaradılmış əlaqələrə xüsusi diqqət yetirilməsi təhlil olunur.*

*Azərbaycan dövlət müstəqilliyi bərpa edildikdən sonra türkdilli dövlətlərlə elm və təhsil sahəsində əlaqələrin daha da inkişafına xüsusi diqqət yetirdi. Azərbaycan 1990-cı il yanvarın 1-də, 1991-ci ilin mart ayında Türkiyə ilə elmi əlaqələrin inkişafı sahəsində bir neçə sənəd imzalamışdır. 1992-1993-cü illərdə Azərbaycandan Türkiyənin ali məktəblərində təhsil almaq üçün 1000 nəfərdən çox gənc göndərilmişdir. Bu proses indi də uğurla davam etdirilir.*

*Azərbaycanın Mərkəzi Asiyanın türkdilli ölkələri ilə də elm və təhsil sahəsində müqavilələr imzalanmışdır. Lakin bu əlaqələr zəif həyata keçirilmişdir. Gələcəkdə bu əlaqələrin inkişaf perspektivlərinin əsası qoyulmuşdur.*

## СВЯЗИ АЗЕРБАЙДЖАНА С ТЮРКОЯЗЫЧНЫМИ ГОСУДАРСТВАМИ В ОБЛАСТИ НАУКИ И ОБРАЗОВАНИЯ В 90-Е ГОДЫ XX ВЕКА

**Вагиф Гаджиев**

***Ключевые слова:*** *Азербайджан, Турция, Центральная Азия, наука, образование, сотрудничество, контракт, развитие.*

*В статье отношения, установившиеся в области науки и образования с тюркоязычными государствами, которые связаны между*

*собой языковым, культурно-духовным, этническим самосознанием и историей, после восстановления государственной независимости Азербайджана, двусторонние договоров и договоров, заключенных с Турецкой Республикой и тюркоязычными государствами Центральной Азии в этих сферах, и уровень их реализации, анализируется особое внимание руководства республики к отношениям, установившимся с тюркоязычными странами.*

*После восстановления государственной независимости Азербайджан уделял особое внимание дальнейшему развитию отношений с тюркоязычными странами в области науки и образования. 1 января 1990 года и в марте 1991 года Азербайджан подписал ряд документов о развитии научных связей с Турцией. В 1992-1993 годах из Азербайджана для обучения в турецких вузах было направлено более 1000 молодых людей. Этот процесс успешно продолжается и сейчас.*

*Соглашения в области науки и образования также подписаны с Азербайджаном и тюркоязычными странами Центральной Азии. Однако эти отношения не достаточно были реализованы. Заложена основа перспектив развития этих отношений в будущем.*

## RELATIONS OF THE AZERBAIJAN WITH TURKISH SPEAKING STATES IN SPHERE SCIENCE AND EDUCATION IN THE 90S OF THE XX CENTURY

**Vagif Hajiyev**

***Key words:****Azerbaijan, Turkey, Central Asia, science, education, cooperation, contract, development.*

*In the article, the relations established in the field of science and education with the Turkic-speaking states, which are connected to each other in terms of language, cultural-spirituality, ethnic identity and history, after the restoration of Azerbaijan's state independence, bilateral agreements and contracts concluded with the Republic of Turkey and the Turkic-speaking states of Central Asia in these areas, and their implementation level, the special attention of the republic's leadership to the relations established with Turkic-speaking countries is analyzed.*

*After the restoration of state independence, Azerbaijan paid special attention to the further development of relations with the Turkic-speaking countries in the field of science and education. On January 1, 1990, in March 1991, Azerbaijan signed a number of documents on the development of scientific ties with Turkey. In 1992-1993, more than 1,000 young people were sent from Azerbaijan to study at Turkish universities. This process continues successfully to this day.*

*Agreements in the field of science and education have also been signed with Azerbaijan and the Turkic-speaking countries of Central Asia. However, these relationships were not sufficiently implemented. The basis for the prospects for the development of these relations in the future has been laid.*

**Giriş.** Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra beynəlxalq əlaqələrin tərkib hissəsi kimi elm, təhsil və mədəni əlaqələrin inkişafına xüsusi diqqət yetirilirdi. Belə əlaqələr xalqların bir-birinə yaxınlaşması, inteqrasiyası və qarşılıqlı inkişafına müsbət təsir göstərən amillərdən biridir. Bu baxımdan Azərbaycan respublikasının türkdilli dövlətlərlə elm, təhsil və mədəniyyət sahəsində əlaqələri ümumtürk birliyinin möhkəmləndirilməsi sahəsində önəmli rola malikdir.

Hələ SSRİ-nin tərkibində olduğu dövrdə Azərbaycanın Türkiyə dövləti və türkdilli respublikalarla elm, təhsil və mədəniyyət sahələrində əlaqələri mövcud idi. Lakin bu əlaqələrdə Azərbaycan Respublikası müstəqil deyil, mərkəzin–Moskvanın həyata keçirdiyi və nəzarət etdiyi tələblərdən kənara çıxa bilmirdi. Ona görə də bu sahədə əməkdaşlıq geniş deyil, məhdud xarakter daşıyırdı.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Türkiyə Respublikası və müstəqillik qazanmış digər türkdilli dövlətlərlə həyata keçirdiyi iqtisadi və siyasi əlaqələrlə yanaşı, elm və təhsil sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə mühüm diqqət yetirməyə başladı.

**Elm sahəsində əlaqələr**

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən və beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınandan sonra respublika rəhbərliyi cəmiyyətin ümumdünya sivilizasiyasına inteqrasiyasının gücləndirilməsində mühüm rol oynayan elmi əlaqələrin yaranması və daha da inkişaf etdirilmsinə xüsusi diqqət yetirdi. Azərbaycan Respublikasının elmi idarə və təşkilatları dünyanın ayrı-ayrı dövlətlərinin tanınmış elmi mərkəzləri ilə ikitərəfli münasibətlər barədə sazişlər, müqavilələr və qarşılıqlı inkişaf barədə gələcək fəaliyyətlərinə dair protokollar imzaladılar. Həmçinin türkdilli dövlətlərlə də elmi-texniki əlaqələrin bütün sahələrində sıx əməkdaşlıq yaratmağa başladı.

Azərbaycan ilə elmi əməkdaşlığı yaradan türkdilli dövlət ənənəvi olaraq Türkiyə olmuşdur. 1990-cı il yanvarın 1-də Türkiyə ilə elmi və mədəni mübadilə haqqında razılıq protokolu imzalanmışdır. Bu sənəd 1991-1992-ci illəri əhatə etməklə, 50 maddədən ibarət olmu, elm və mədəniyyət sahəsində əməkdaşlığın müxtəlif sahələrini əhatə etmişdir (1, s.16-17). 1991-ci ilin martında Türkiyə Cumhuriyyətinin Prezidenti T.Özalın Azərbaycan Respublikasına rəsmi səfəri zamanı iki qardaş ölkə arasında elmi əlaqələrin qurulması və inkişafı sahəsində bir neçə sənəd hazırlanaraq imzalanmışdır (1, s.19).

1992-ci ilin dekabr ayında TürkiyeBilimsal və Texniki Araştırma Kurumu ilə Azərbaycan MEA arasında elmin bütün sahələrində əməkdaşlığın təşkili və inkişaf etdirilməsinə dair razılıq əldə edildi ki, bu da 12 dekabr tarixində hər iki tərəfi qane edəcək və əlaqələri daha da möhkəmləndirəcək 11 maddədən ibarət müqavilənin imzalanması ilə nəticələnmişdir (2, s. 88).

1990-cı illərin əvvəllərində Azərbaycan MEA-nın institutları və digər elmi mərkəzləri Mərkəzi Asiyanın türkdilli dövlətləri elmi akademiyaların elmi müəssisələri və Türkiyənin elmi mərkəzləri ilə əlaqələr yaradaraq bu əlqələrin daha da inkişafı üçün bir sıramüqavilə və sazişlər imzalamışdılar (3, 2000, v.93). Qeyd edilən dövrdə türkdilli dövlətlərlə fiziki və texniki elmlər sahəsində əməkdaşlıq daha geniş olmuşdur.

Demokratiya və bazar münasibətləri sisteminə qədəm qoymuş Azərbaycan respublikasının gələcək inkişaf istiqamətlərinin müəyyənləşdiril-məsi sahəsində Türkiyənin elmi-siyasi araşdırmalar mərkəzinin böyük rolu olmuşdur. Həmin elmi təşkilatlar Azərbaycanın sosial-siyasi sahədə çalışan alimləri ilə sıx əməkdaşlıq edərək, Azərbaycan cəmiyyətində demokratik Avropaya inteqrasiya sahəsində qarşıya çıxan çətinliklərin və mövcud problemlərin həlli istiqamətində bir sıra təxirəsalınmaz tədbirlər görmüşdür.

Azərbaycanın Mərkəzi Asiyanın türkdilli dövlətlərinin elmi idarələri ilə əlaqələri zəifolmuşdur, lakin Türkiyənin elmi mərkəzləri ilə əməkdaşlığı sürətlə inkişaf etmişdir. Məsələn, Azərbaycan MEA-sı ilə Türkiyənin TUBİTAK (Türkiye Bilimsal və Texniki Araştırma Kurumu) arasında 1992-ci il 2 noyabr tarixində Ankarada bağlanmış “Elmi-texniki əməkdaşlıq haqqında” saziş bağlanmışdır (4, s.96).

Azərbaycan ilə Türkiyə arasında elmi-texniki əməkdaşlığının inkişf etdirilməsi istiqamətində yeni-yeni müqavilələr bağlanaraq təkmilləşdirilirdi. Bununla əməkdaşlığın inkişaf istiqamətlərini daha dəqiq müəyyənləşdirmək və səmərəliliyini gücləndirmək məqsədi ilə 1994-cüil 9 fevral tarixində elm və təhsil sahəsində əməkdaşlığın yaxınlaşdırılması barədə ikitərəfli saziş imzalamışdır (4, s.97).

Daha sonra, Azərbaycan MEA-sı Rəyasət Heyətinin 13 aprel 1994-cü il tarixli 9/2 saylı qərarına əsasən, Fotoelektronika İnstitutu ilə Türkiyənin Bilimsel və Texniki Araşdırmalar Kurumunun Mərmərə Araşdırma Mərkəzi arasında elmi-texniki əlaqələrinin təşkili və inkişafını tənzimləyərək protok imzalanmışdır (5, s.99).

1991-2000-ci illərdə türkdilli dövlətlərin elmi-tədqiqat mərkəzləri ilə müəyyən razılaşmalar əldə edilib protokollar imzalansa da, həmin protokoldan irəli gələn öhdəliklər lazımi səviyyədə həyata keçirilməmişdir. Bu sahədə Türkiyə ilə müəyyən işlər görülsə də, Mərkəzi Asiyanın türkdilli dövlətləri ilə əməkdaşlığa dair həyata keçirilmiş tədbirlər demək olar ki, ürəkaçan olmamışdır. Məsələn, 1996-cı il 16 may tarixində Qazaxıstan ilə, 1997-ci il 14

oktyabr tarixində Türkmənistan ilə sazişlərdə (3, 1996, v. 84; 1997 v. 76) elmi-pedaqoji fəaliyyət sahəsində təcrübə mübadiləsi, elmi informasiya mübadiləsi, müştərək elmi-inkişaf proqramlarının hazırlanması və sair sahələrdə əməkdaşlıq edilməsi nəzərədə tutulsa da, faktiki olaraq bunların heç birinə əməl edilməmişdir.

90-cı illərin ikinci yarısından Türkiyə ilə təşkil edilmiş elmi-texniki əməkdaşlıq xüsusilə genişlənərək inkişaf etmişdir. Azərbaycan MEA-nın Türkiyənin ən məşhur elmi təşkilatı olan TUBİTAK ilə qurmuş olduğu əməkdaşlıq işi, bu dövrdən etibarən Türkiyə ilə təşkil edilmiş elmi-texniki əməkdaşlıq genişlənərək səmərəli fəaliyyət kəsb etmişdir. Belə ki, bu təşkilatlar arasında bağlanmış 12 oktyabr1997-ci il tarixli müqaviləyə (3, 1997, v. 187) əsasən, 90-cı illərin sonunda fundamental elmin müxtəlif sahələrində geniş elmi tədqiqat işi və axtarışlar aparılmışdır.

2000-ci ildə türk dövlətləri arasında mövcud olan əməkdaşlıq işi daha da genişləndi. İyun ayının 25-dən iyulun 3-nə qədər Ankara şəhərində türkdilli, dövlətlərin elmlər akademiyasının nümayəndələrindən ibarət ilk elmi konfrans keçirildi. Konfransın çağırılmasında məqsəd türkdilli dövlətlərin elmlər akademiyalarının fəaliyyəti, onlar arasında mövcud olan əməkdaşlığın daha da inkişaf etdirilməsi idi. Konfransın sonunda türk dövlətlərinin nümayəndələri tərəfindən birgə bəyannamə qəbul edilmişdir.

**Təhsil sahəsində əməkdaşlıq**

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının hələ Sovet dövründə türkdilli sovet respublikaları və Türkiyə Cumhuriyyəti ilə təhsil əlaqələri olmuşdur. Lakin bu əlaqələr mövcud şəraitlə bağlı müstəqil olaraq yaradılıb inkişaf etdirilməmişdir.

Respublikamız müstəqilliyini bərpa etdikdən sonra dünya dövlətləri ilə tam sərbəst və qarşılıqlı əlaqədə inkişaf etdiriləcək əsas sahələrdən birincisi məhz milli təhsil sistemi olmuşdur. Milli təhsilin inkişaf perspektivləri bu sistemin daxili amilləri ilə yanaşı təhsil sahəsi ilə məşğul olan beynəlxalq təşkilatlara, qabaqcıl dünya dövlətləri ilə, nəhayət, beynəlxalq miqyasda gedən təhsil prosesləri ilə əlaqələndirilməsi vacib bir məsələ kimi qarşıya qoyulmuşdur.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin müstəqil olaraq Türkiyə Cumhuriyyəti Təhsil Nazirliyi ilə bağlamış olduğu ilk müqavilə 1992-ci il 28 fevral tarixində reallaşdırılmışdır (4, s.13). Bu müqavilə iki qardaş ölkənin təhsil sistemi arasında və təhsilin bütün sahələri üzrə əməkdaşlıq, o cümlədən tələbə mübadiləsinin gələcəkdə daha da artırılması nəzərdə tutulmuşdur. 1992-1993-cütədris ilində Azərbaycan Türkiyənin müxtəlif ali məktəblərində təhsil almaq üçün 100 nəfər tələbə göndərilməsi nəzərdə tutulmuşdursa, faktiki olaraq bundan daha çox, yəni 1000 nəfərdən çox gənc göndərilmişdir (4, s.12). Belə ki, 90-cı illərin ortalarına kimi tələbə mübadiləsi ilə yalnız rəsmi dövlət

qurumu olan təhsil nazirliyi deyil, həm də müxtəlif təyinatlı şirkətlər də məşğul olmuşdurlar.

Yeni türkdilli dövlətlər yarandıqdan sonra mədəni əlaqələr sahəsində əsas diqqəti təhsil sahəsində əməkdaşlığın genişləndirilməsinə vermişdilər. 1992-ci ilin 16-23 may tarixində Ankarada Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistan dövlətlərinin təhsil nazirlərinin birgə toplantısı oldu. 1992-ci il 29 sentyabr – 2 oktyabr tarixində türkdilli dövlətlərin təhsil nazirlətinin Bişkek şəhərində ikinci ümumi toplantısı oldu (4, s.69).

Bu görüş zamanı təhsil sahəsində mövcud olan problemlərin həllində qarşılıqlı fəaliyyət sahəsində bir sıra tədbirlər işlənib hazırlanmışdır. Təhsilin daha keyfiyyətli və əhatəli olması üçün türkdilli dövlətlərin orta və ali təhsil ocaqlarını əhatə edəcək tarix və ədəbiyyat fənləri üzrə proqramların hazırlanması sahəsində işçi qrupu və əlaqələndirmə şurası (6, s.99) yaradılmışdır.

Azərbaycan və Türkiyə arasında təhsil əlaqələrinin inkişaf etdirilməsi sahəsində 1990-cı illərin ortalarında daha müvafiq addımlar atılmışdır. 1994-cüilin fevral ayında Azərbaycan prezidenti Heydər Əliyev Türkiyədə rəsmi səfərdə olduğu zaman aparılmış danışıqlar nəticəsində bağlanmış çoxsaylı müqavilələr içərisində, iki qardaş ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığa dair 29 maddədən ibarət protokol da imzalanmışdır. Həmçinin protokolda əməkdaşlığın yeniləşmələrlə təmin edilməsi nəzərə alınaraq həmin sənədlərin hər beş ildən bir dəyişdirilməsi nəzərdə tutulmuşdur (7, 9. II.1994, s. 2).

Azərbaycan və Mərkəzi Asiya dövlətlərinin rəhbərliyinin qarşılıqlı səfərləri zamanı mədəni-mənəvi əlaqələr sahəsində müqavilə və sazişlər imzalanmışdır. 1995-ci il iyun ayının 25-də Azərbaycan Respublikası ilə Türkmənistan Respublikası arasında elm, təhsil, mədəniyyət, idman və turizm sahəsində əməkdaşlığın yaradılması və inkişaf etdirilməsi barədə 9 maddədən ibarət müqavilə bağlanaraq protokol imzalanmışdır (8, 1995, s. 215). 1996-cı ildə Azərbaycanda rəsmi səfərdə olan Özbəkistan Prezidenti İ.Kərimovla iki dövlət arasında təhsil əlaqələrinin inkişafı barədə müqavilə imzalanmışdır, onun perspektivləri müzakirə edilmişdir (9. 25.v.1996, s. 1). 1997-ci ildə Qazaxıstanda rəsmi səfərdə olan Azərbaycan Respublikasının prezidenti H.Əliyev bütün sahələrlə əlaqələrin genişləndirilməsi barədə müqavilə və sazişlərlə yanaşı elm və mədəniyyət sahəsində də əlaqələrin genişləndirilməsi məsələsini müzakirə edilərək müvafiq müqavilə sənədi imzalanmışdır (10, 23.IX.1997, s. 1).

Qeyd olunanlardan göründüyü kimi, 1990-cı illərin ikinci yarısında Azərbaycan Respublikasının türkdilli dövlətlərlə təhsil sahəsində əlaqələri yüksələn xəstlə getmişdir. Hətta təhsil sahəsində tədrisin təşkili və inkişaf etdirilməsini qarşılıqlı olaraq əlaqələndirmək üçün Türkiyə dövləti ilə birgə komissiya yaradılmışdır. Komissiyanın birinci toplantısı 1994-cü il noyabr

ayının 27-30-da Bakıda (4, s.25), ikinci toplantısı 1995-ci il noyabrın 27-dən dekabrın 1-dək Ankara şəhərində (11, 5.XII), üçüncü iclası 1996-cı il dekabrın 16-dan 19-na kimi Bakıda (2, s.91), dördüncü toplantısı 1997-ci il mayın 30-da Ankarada (1, s. 92), beşinci isə 1998-ci il fevralın 23-27-də Bakı şəhərində keçirilmişdir (1, s.92).

Türkiyə Cumhuriyyətinin Təhsil Naziri 1997-ci ilin mart ayında Bakıda səfərdə olarkən iki dövlət arasında təhsil sahəsində ikitərəfli əməkdaşlığın yeni perspektivləri nəzərəalınaraq bu sahədə münasibətlərə dair imzalanmış yeni saziş protokolunda təhsil sahəsində əməkdaşlığın sonrakı inkişafı istiqamətləri və formalarının müəyyənləşdirilməsi və bu prosesin daha da gücləndirilməsi nəzərdə tutulurdu.

Azərbaycan-Türkiyə təhsil əlaqələri sonrakı illərdə daha da inkişaf etmiş, yeni-yeni müqavilə və sazişlər imzalanmış, bu sazişlərdə iki ölkənin ali məktəbləri arasında əməkdaşlıq, müəllim və tələbə mübadiləsi, təhsil sahəsində birgə tədbirlərin həyata keçirilməsi, əldə edilmiş elmi-pedaqoji nəticələrin qarşılıqlı tətbiqi, birgə tədqiqat işlərinin aparılması və s. məsələlər nəzərdə tutulmuşdur.

Mərkəzi Asiyanın türkdilli dövlətləri ilə təhsil sahəsində bir sıra müqavilə və sazişlər imzalansa da, bu əlaqələr zəif həyata keçirilmişdir. Lakin bu dövlətlərlə təhsil və elm sahəsində gələcək inkişaf perspektivlərinin əsası qoyulmuşdur. Buna baxmayaraq, Mərkəzi Asiyanın türkdilli dövlətləri ilə hərtərəfli əlaqələri gücləndirmək istəyən Azərbaycan rəhbərliyi, bu dövlətlərə olan səfərlərində təhsil və mədəni əlaqələrin inkişafı naminə bütün səylərini ortaya qoymuşdur.

**Nəticə.**Ümumiyyətlə XX yüzilliyin 90-cı illərində Azərbaycan Respublikası ilə türkdilli dövlətlər arasındaelmi əməkdaşlığın genişləndirilərək inkişaf etdirilməsi sübhəsiz ki, bu xalqların daha da yaxınlaşmasına, ümumtükr birliyinin möhkəmləndirilməsinə,ölkəmiz və xalqlarımız arasında hərtərəfli əməkdaşlığın elmi surətdə daha da inkişaf etdirilməsinə, əsasən də türk dövlətlərinin dünya elmində layiqincə təmsil olunmasına və gələcəkdə daha böyük elmi nəaliyyətlər əldə etmələri üçün zəmin yaradacaqdır.

Qeyd olunan dövrdə təhsil sahəsindəki xarici əlaqələrdən, bu sahədə baş vermiş mütərəqqi dəyişiklikdən qarşılıqlı faydalanmaq imkanları getdikcə artmış, xüsusilə də Azərbaycanın ali təhsili beynəlxalq xarakter alaraq dünya təhsil sisteminə inteqrasiya etmişdir. Məhz bu illərdə dünyanın qabaqcıl ölkələrində olduğu kimi türkdilli dövlətlərlə də təhsil sahəsində əlaqələr yaradılaraq inkişaf etdirilməsi üşün əlverişli şərait yaranmışdır. Belə ki, türkdilli dövlətlərin hər biri ilə ayrı-ayrılıqda, müstəqil surətdə birbaşa əlaqələr təşkil olunaraq möhkəmləndirilməsi istiqamətində müxtəlif tədbirlər görülmüş, birgə proqramlar hazırlanaraq həyata keçirilməyə başlanılmış, təhsilin

inkişafına yönləndirilmiş müxtəlif dövlətlərarası sazişlər və müqavilələr bağlanılmışdır.

**Ədəbiyyat**

1. Səmədov D.A. XX əsrin 90-ci illərində Azərbaycan-Türkiyə elmi-mədəni əlaqələr. Gəncə: Gəncə poliqrafiya, 2004, 204 s.

2. Mahmudov Y.A. Azərbaycanın dövlətçilik və parlamentarizm tarixindən / "Müstəqil dövlətimiz və parlamentimiz" kitabında. Bakı, 2001, s. 178-206.

3. Azərbaycan Respublikası MM-in "Beynəlxalq əlaqələr" şöbəsinin cari arxivi. QİƏPM-si təşkilatının fəaliyyəti üzrə iş qovluğu, 1994-2002-ci illərdə fəaliyyəti üzrə iş qovluğu.

4. Türkiye ilə türk cümhuriyyetleri və türk toplulukları arasında yapılmış anlaşmalar, ilişkiler və failiyyetler. II kitap, 1990-1993. Ankara: T.C. Milli Eğitim Bakanlığı, 1993, 458 s.

5. Hüseynov E.K. Azərbaycan Respublikasının Türkiyə ilə iqtisadi və mədəni əlaqələri (1991-1995-ci illər): Tar.elm.nam.alimlik dər. almaq üçün təd.ed.dis., Bakı, 2000, 121 s.

6. Türk devlet ve topluluklarının VII dostluk, kardeşlik və işbirliği kurultayı. Çanakkale – Denizli: Tudev, 1998, 209 s.

7. "Azərbaycan" qəzeti, 9 fevral 1994-cü , s. 2.

8. Azərbaycan Respublikası MM-si "Beynəlxalq əlaqələr" şöbəsinin cari arxivi. 1994-2000-ci illərdə MDB PA-sı ilə iş qovluğu.

9. "Azərbaycan" qəzeti, 25 may 1996-cı il s. 1.

10. "Azərbaycan" qəzeti, 23 sentyabr 1997-ci il s. 1.

11. "Azərbaycan" qəzeti, 5 dekabr 1995-ci il s. 3.

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ XEYRİYYƏYÖNÜMLÜ TƏDBİRLƏR "AZƏRBAYCAN" QƏZETİ SƏHİFƏLƏRİNDƏ

**Zakir Kərimov**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**zakir.kerimov.1955@mail.ru**

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, qaçqın,şəhid,himayə,yardım,*

*23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti (AXC) sosial-siyasi, iqtisadi, mədəniyyət sahəsində bir sira mütərəqqi tədbirlər həyata keçirdi. Yeni mətbuat orqanları yaradıldı. Belə mətbuat orqanlarından biri də "Azərbaycan" qəzeti idi. Dövrünün ən nüfuzlu mətbuat orqanlarından biri olan bu qəzeti mübaliğəsiz olaraq AXC dövrünün salnaməsi adlandırmaq olar.Qəzetin 15 sentyabr1918-28 aprel 1920-ci il tarixləri arasında təxminən 450 nömrəsi çap olunmuşdur.Qəzetin redaktorları müəyyən vaxtlarda Şəfi bəy Rüstəmbəyli, Üzeyir Hacıbəyli və Xəlil İbrahim kimi dövrün qabaqcıl ziyalıları olmuşdur.*

*"Azərbaycan" qəzeti ölkənin ciddi sosial problemlərini, o cümlədən qaçqınların fiziki varlığının xilası, şəhid ailələrinə qayğı və s. kimi humanitar məsələləri daim diqqət mərkəzində saxlayırdı. Cəmiyyətin və dövlətin diqqətini bu kimi məsələlərə cəlb edirdi. AXC hökuməti maddi çətinliklərə baxmayaraq Acarıstan, Türküstan, Türkiyə və Şimal Qafqaz müsəlmanlarına da yardım göstərirdi. Bu məqalədə göstərilən məsələlər, "Azərbaycan" qəzetinin materialları əsasında araşdırılmışdır.*

## БЛАГОТВОРИТЕЛЬНЫЕ АКЦИИ В АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКЕ НА СТРАНИЦАХ ГАЗЕТЫ «АЗЕРБАЙДЖАН»

**Закир Керимов**

***Ключевые слова:*** *Азербайджанская Демократическая Республика, беженец, шехид, защита, помощь,*

*Азербайджанская Демократическая Республика (АДП), существующая 23 месяца, осуществила ряд прогрессивных мер в общественно-политической, экономической и культурной сферах. Были созданы новые агентства печати. Одним из таких средств массовой информации была газета «Азербайджан». Эту газету, являющуюся одной из самых влиятельных печатных организаций своего времени, без преувеличения можно назвать хроникой эпохи АКП.С 15 сентября 1918 г.*

*по 28 апреля 1920 г. было напечатано около 450 номеров газеты. в газете в определенное время были Шафи бек Рустамбейли, Узеир Гаджибейли и Халил Ибрагим, имели передовую интеллигенцию.*

*Газета «Азербайджан» освещает серьезные социальные проблемы страны, в том числе сохранение физического существования беженцев, забота о семьях шехидов и др. он всегда сосредоточивался на гуманитарных вопросах, таких как Он привлек внимание общества и государства к таким вопросам. Несмотря на финансовые трудности, правительство ПСР оказывало помощь мусульманам Азербайджана, Туркестана, Турции и Северного Кавказа.Вопросы, изложенные в данной статье, исследованы по материалам газеты «Азербайджан» .*

## CHARİTABLE EVENTS DURİNG THE AZERBAİJAN DEMOCRATİC REPUBLİC ON THE PAGES OF "AZERBAİJAN" NEWSPAPER

**Zakir Karimov**

***Keywords:*** *Azerbaijan Democratic Republic, refugee, martyr, protection, help,*

*The Azerbaijan Democratic Republic (ADP), which has been in existence for 23 months, has implemented a series of progressive measures in the socio-political, economic, and cultural fields. New press agencies were created. One of such media outlets was "Azerbaijan" newspaper. This newspaper, which is one of the most influential press organizations of its time, can without exaggeration be called the chronicle of the AQP era. About 450 issues of the newspaper were printed between September 15, 1918 and April 28, 1920. The editors of the newspaper at certain times were Shafi Bey Rustambayli, Uzeyir Hajibeyli and Khalil Ibrahim. had advanced intellectuals.*

*"Azerbaijan" newspaper covers serious social problems of the country, including saving the physical existence of refugees, caring for the families of martyrs, etc. he always focused on humanitarian issues such as He attracted the attention of society and the state to such issues. Despite the financial difficulties, the AKP government provided assistance to the Muslims of Azerbaijan, Turkestan, Turkey and the North Caucasus. The issues presented in this article were investigated based on the materials of the "Azerbaijan" newspaper.*

### Giriş

Hələ Cümhuriyyət dövründə "Azərbaycan" (1918-1920) qəzetini çox zaman Müsavat partiyasının orqanı hesab edirdilər. Ü. Hacıbəyov bu fikri təkzib edərək elə həmin qəzetin səhifələrində yazmışdır: "Danışırlar ki,

"Azərbaycan" qəzeti guya Müsavat partiyasına mənsub bir qəzet imiş. Bu barədə bunu bəyan etməyi lazım bilirəm ki, qəzetimiz partiya qəzeti deyildir[7].

1919-cu il yanvarın 16-dan 1920-ci il aprelin son günlərinədək qəzetin redaktoru Ü. Hacıbəyov olmuşdur. Məzuniyyətdə olduğu günlərdə onu X. İbrahim əvəz etmişdir. Qəzetin səhifələrində Ü. Hacıbəyov AXC-nın platformasını qəbul edərək milli müstəqillik ideyasını dönməz ardıcıllıq və cəsarətlə müdafiə və təbliğ edirdi. Qəzet cəmiyyətin və hökumətin diqqətin ən vacib məsələlərə cəlb edirdi. Sosial-siyasi, mədəni məsələlərin həlli üçün cəmiyyətə çağırışlar edirdi. Onları bu məsələlərin həllinə səfərbər edirdi. Qəzet dövrün tələblərindən irəli gələn problemlərə vətəndaş münasibəti bildirirdi."Azərbaycan" qəzetinin məsləki Vətən istiqlalı yolunda çalışmaqdan ibarət idi.

AXC yarandıqdan sonra rus çarizmi, Bakı Xalq Komissarları Soveti və Sentrokaspi Diktaturası dövründən miras qalan müxtəlif problemlərin, xüsusən sosial problemlərin həlli ilə məşğul olmağa başladı. Bu problemlə sistemli və müntəzəm şəkildə məşğul olmaq üçün AXC-nin 2-ci hökumət kabinetinin (1918-ci il 17 iyun 1918-ci il 7 dekabr) tərkibində xalq səhiyyəsi və himayədarlıq nazirliyi (nazir X. Rəfibəyov) yaradılmışdır [1,327] .

III hökumətdə (1918-ci il dekabr -1919-cu il mart) təminat naziri vəzifəsini P. Xoyski [1,355], IV hökumətdə isə V.V. Klenovski [1,364] tutmuşdu.

Müstəqil Azərbaycan hökuməti sosial məsələlərin həllini radikal bir şəkildə ortaya qoydu[6,250]. Bu böyük sosial problemə çevrilmiş qaçqınlar məsələsində də özünü biruzə verirdi.

İrəvan quberniyasında ermənilərin genosidinə məruz qaldığı üçün Azərbaycan Cümhuriyyətinə pənah gətirmiş, sayı 150 mindən çox olan qaçqın türk-müsəlman əhalisinin mövcudluğu vəziyyəti daha da çətinləşdirirdi [1,391].

Təbii ki, yalnız dövlətin gücü ilə bu ağır vəziyyətdən çıxmaq mümkün deyildi, buna görə də baş nazir N.Yusifbəyli (V hökumətdə) öz bəyannaməsində yerli təşkilatları qaçqınların həyat şəraitini yüngülləşdirmək üçün səylərini artırmağa çağırdı [1,391].Əslində qaçqınların himayəsi məsələsi AXC qurulan kimi başlanmışdı.

Qaçqınların problemləri və onların vəziyyətini yaxşılaşdırmaq sahəsində görülən tədbirlər "Azərbaycan" qəzetində müntəzəm olaraq işıqlandırılmışdır.

Qəzetin nömrələrinin birində deyilirdi ki, son zamanlarda (1918-ci il yay) Gəncəyə Göyçə gölü ətrafından böyük qaçqın dəstələri gəlməkdədir. Qaçqın idarəsi onları yerləşdirmək üçün Ərəş və Şamaxı uyezdlərinə göndərmişdir [2,24].

Qəzet çox zaman yardım kompaniyasından təşəbbüsçüsü kimi çıxış edir, insanları yardım göstərməyə təşviq edirdi. Məsələn, qəzetin nömrələrin birində deyilirdi:

Elan: Bağlarda açılan “Hilal-Əhmər” (“Qırmızı Aypara) cəmiyyətinin şöbə üzvlərindən rica olunur ki, toplanan para, ərzaq və dəftərləri Sabunçuda “Sovet syezd” məktəbində Tofiq bəyə təslim etsinlər.Cəmiyyətin üzvü Ağahüseyn Gözəlzadə [2,225].

“Qaçqınların İrəvandan bəri gəlməsi” yazısında deyilir: Nafiə və Səhiyyə Nəzarətinin (Səhiyyə və Sosial Təminat Nazirliyinin) Gəncədən aldığı teleqramdan anlaşılır ki, İrəvan qaçqınlarının vəziyyəti son dərəcə şiddətlənmişdir. Bunlara ciddi və təcili kömək lazımdır. Dava-dərmana böyük ehtiyac müşahidə edilir. Qaçqınlar dəmiryolu ilə Kürdəmirə gəlməkdədir [2,391].Başqa bir məlumatda deyilir ki,srağagün axşam hökumətə vəkil Smirnovun sədrliyi altında bir rus heyəti gəlib Şamaxı qəzasından qaçmış malakanların öz yerlərinə getməyinə icazə istəmişdir. AXC hökuməti buna o şərtlə razılıq vermişdir ki, birinci müsəlmanlardan (azərbaycanlılardan – Z. K) qarət edilmiş mallar sahiblərinə qaytarılsın və ikinci evsiz və yersiz olan müsəlmanlara onlar özlərinin yanında yer versinlər [2,69].

“Azərbaycan Cümhuriyyətinin Baş Nazirinin qəbulunda olan erməni nümayəndə heyətinə, “Şamaxı qaçqınlarına yardım komitəsi” təşkil etmək üçün icazə verilmişdir.Burada Şamaxıdan Bakiya gəlmiş qaçqın emənilər nəzərdə tutulur [2,31] .

“Azərbaycan” qəzeti “Verin zavallılara” müraciətində Şamaxı və Göy-çayda ermənilər tərəfindən xanimanları yandırılan, uçurdulan, ocaqları söndürülən, bıçaqlarla kəsilib doğranan günahsız millətdaşlarımızı, dünən zəngin və dövlətli ikən bu gün xarabaxanalarda bir loğma yavan əkməyə (çörəyə) möhtac qalan zavallı qardaşlarımızın halını düşünməyə çağırırdı [2,67-68].

Qəzet bildirir ki, əgər düşünməyirsinizsə, yaxşı bilinki kainatın beş ildir ki, bir birini boğazlayan bir dövründə qövminin qeyrətini çəkmək hissi ilə yaşamayan millətlər üçün həyat yoxdur.Bu gün olduğu kimi, sabah da Quranımızın (yuxarıda) açıq-aşkar buyurduğu kimi mətin bir surətdə bir-birinə sarılaraq siyasi birliklərini təmin etməyən qövmlər bundan sonra qətiyyən yaşamayacaqlar.

Həmin yazıda deyilir ki, bir divarın bir neçə daşını çıxarmaqla necə ki, divara yıxılarsa,eləcə də miliyyətimizi təşkil edən camaatların bir qisminin fəlakətinin digər qismlərinin mütəəssir olması qədər təbii heç bir şey yoxdur. Şamaxı və Göyçayda yıxılan evlər, yandırılan xanimanlarımız, kəsilib doğranaraq şəhid dəstələrinə qoşulan on minlərcə müsəlmanlar din və millət qardaşlarımız dünən dövlətli ikən bir lokma əkmək (çörək) üçün göz yaşlarıyla dilənən bədbəxtlərdir, qövmdaşlarımızdır [2,67-68].

Qəzet əhaliyə müracət yazır ki, ey Bakı və bütün Qafqaz türkləri, ey zəngin müsəlmanlar! Şamaxı və Göyçay zülmzədə qardaşlarımızın da göz yaşlarını yüngülləşdirməklə, yıxılmış könüllərini təmir etməliyik.Millətimizin bir qismi

ağlarkən digər qismlərinin mütəssir olmadan gülməsi xeyirli bir istiqbala dəlalət etməz.

.... Şamaxı və Göyçay zülmzadələrinə və Ermənistandan qismən öldürülərək, qismən də fərar surətilə həyatlarını qurtara bilərək qardaşlığımızın kölgəsinə pənah gətirən din və millət qardaşlarımıza yardım kisəsini, cibini açınız, onlara lazımi dərəcədə ianələr veriniz, çünki siz onlara versəniz, Allah da sizə verər.İştə, haydı, qardaşlar, verin zavallılara [2, 68].

Qəzetin başqa bir nömrəsində deyilir ki,1918-ci il oktyabrın 25- də Petrovskdan (indiki Mahaç-Qala şəhəri) Bakıya"Moskva" paraxodu ilə 1600 nəfərə kimi qaçqın gəlmişdir. Bakıya gələnlərin söylədiklərinə görə, Petrovskdakı qaçqınların halı təəssüfvericidir. Bunların sayı 22 mini, ötüb keçmişdir, bir çoxu açıq havada yerləşmişdir. Bir çoxu da ətrafdakı kəndlərə, obalara .getmişdilər...Gələn qaçqınların evlərinə qayıtmalarına imkan veriləcəkdir [2,328] .1918-ci ilin mayında əvvəlində Zaqafqaziya Darül müəl-liminin məzdində açılmış müsəlman şöbəsinin Qoridən Qazaxa köçürülməsi qərara alındı. Bu şöbənin gələcəkdə Qazaxda müstəqil bir Darülmüəllimə çevrilərək burada qalması nəzərə alınmışdı. Hökuməti onun bağ və bostanı və başqa əkinçilik və ehtiyacı üçün on desyatin sulu və münbit yer, min manat biryolluq müavinət (yardım) və sairə kimi müavinət (də) vəd etmişdir . Bu məsələləri Azərbaycan hökuməti 1918-ci il iyunun 10-da müzakirə edib qəti həll etmişdir və maarif naziri şöbənin əşyasının Qori şəhərindən Qazaxa daşımağı bəndələrinə həvalə etmişdi. F. Köçərli bildirir ki, şöbənin yarım milyonluq əşyasını Qazaxa daşıyıb və müvəqqəti olaraq bir mənzil tutduqdan sonra, oraya cəm etmişdi.F. Köçərli bildirir ki, Darülmüəllimin Qazaxa köçürülməsinin çox əhəmiyyətlidir, bu bir maarif çeşməsinin açılmasına bənzəyir və gələcəkdə əhalinin tərəqqisi [2,212] və ucalmasına böyük xidmətlər göstərməsi şəksiz və şübhəsizdir. Qazax Darülmüəllimin nizam və qaydaya düşməsinə Maarif Nazirliyi kömək göstərəcəkdir. Bununla belə bu təhsil ocağının uğurlu fəaliyyətinə "yerli əhalinin rəğbət və hümmətlərinə, səy və qeyrətlərinə bağlıdır."Azərbaycan" qəzeti bildirir ki, Qazax əhalisi F. Köçərlinin tövsiyyələrinə səs verəcəklər.

Azərbaycan əhalisinin xeyriyyəçiliyinin müəyyən bir istiqaməti də şəhid ailələrinə qayğıda öz ifadəsini tapmışdır.

Göyçay qazisi Mahmud Əfəndi Göyçay əhalisi tərəfindən şəhid övladları faydası üçün toplanan səkkiz min iki yüz altmış manatı Qafqaz müftisi vasitəsilə Azərbaycan ordusu xüsusi şöbə müdirinə təhvil verilmişdir. Buna görə də həmin idarə Göyçay camaatına təşəkkür etmişdir [3,9] .

Şəhid övladlarına ianə məqsədilə Ağdaş Bazar məscidindən Abdulxalq əfəndi vasitəsilə 2225 rubl, Zaqataladan Nurulla əfəndi vasitəsilə 3287 rubl 20 qəpik toplanıb, cəmi 5512 rubl 20 qəpik olmaqla Qafqaz Müftisinə

göndərilmişdir. O da bu məbləği Ordunun siyasi şöbə müdirinə təqdim etmişdir[ 2, 329].

Bu dövrdə Azərbaycan xeyriyyəçiliyi məhdud milli xarakter deyil, beynəlmiləl xarakter daşıyırdı. Bu özünü ətraf ölkələrə göstərilən yardımda biruzə verirdi. Bu mənada Azərbaycan Parlamentinin Şimal Qafqaz Cümhuriyyətinin (Dağlılar Respublikası) ehtiyaclarına yardımı diqqət mərkəzində saxlayırdı.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətləri, parlamentdəki bütün firqlər Şimali Qafqaza heç bir köməyi əsirgəmirdilər. Köməyin göstərilməsinə səs verirdilər.

Qeyd etmək lazımdır ki, Azərbaycanın istiqlalı elan olunduqdan sonra hökumət hələ Gəncədə ikən şimdi Qafqaz hökumətinə müraciət edilərək birləşməyi təklif etmişdi [ 4,128].Mirzə Bala Məmmədzadə yazır ki, çar generalı Denikinin Şimali Qafqaza işğal etmək təhlükəsi yarandı. Bu təcavüzün qarşısını almaq məqsədi ilə yerli müsəlmanlar Dağıstan və Şimali Qafqaz respublikası adlanan bir dövlət qurdular. Şimali Qafqaz respublikasına müstəqil Azərbaycan Cümhuriyyəti hökuməti öz büdcəsindən (2,5 milyon funt sterlinq) miqdarında təcili yardım göstərdi. Bu Azərbaycanın büdcəsinin səkkizdə bir hissəsinin təşkil edirdi[ 4,128].

Bundan başqa, Denikinə qarşı mübarizə üçün Şimali Qafqaza geniş yardım göstərilmişdir. Bu məqsədlə yaradılan xüsusi təşkilata təxsisat ayrılmışdır [4, 128-129].

Zəmanənin çətinlikləri içində çırpanan Acar, Karş və Araz boyundakı müsəlmanlar Azərbaycan Cümhuriyyətinə, onun maddi və mənəvi müavinətinə (yardımına) ümid edirdilər. Xəzərin qarşı tərəfində bulunan türküstanlıların bu yöndə müraciətinə cavab olaraq imkan daxilində yardım göstərdilirdi. Türküstanla siyasi münasibətləri saxlamaq üçün orada konsulluq yaradılmışdı [5,97].

Qərb imperialistləri ilə savaşan inqilabçı Türkiyəyə maddi yardımlarda bulunmaq üçün hələ 1919-cu ildə təşəbbüslər edilmiş, lakin bu münasibətlər yoluna düşməmiş ,Azərbaycan XI rus ordusunun işğalına məruz qalmışdır. Belə bir yardımın göstərilməsinə işarə vuran M. B. Məmmədzadə yazır ki, Mirzə Yusif bəyin əmri ilə Məmməd Əli Əhmədzadə tərəfindən 1920-ci il oktyabrın 2-də Ankaraya təhvil verilən 19 min Osmanlı lirəsi və 1 milyon fransız frankı və 8 neft vekselinin o zamankı xarici işlər naziri Əhməd Muxtar bəyin imzası ilə təsdiq edilmiş qəbzi əlimizdədir [4, 129].

**Nəticə**

Xeyriyyəçilik Azərbaycan xalqının mentalitetinə məxsus xüsusiyyətdir.Bu uzun əsrlər boyu formalaşmış mənəvi dəyərdir. Xalqımız bu gün də yardıma ehtiyacı olanlara təmənnasız kömək edir. COVİD-19 pandemiyası ilə mübarizə edən bir sıra ölkələrə,o cümlədən qardaş ölkələr Pakistan və Türkiyəyə təbii fəlakətlər zamanı kömək etmişdir.

## Ədəbiyyat

1. Azərbaycan tarixi VII cilddə, V c.,Elm, Bakı 2001
2. Azərbaycan qəzeti  kitabı, I c.,Elm, Bakı, 2022
3. “İanə” məqaləsi.- Azərbaycan qəzeti, N.262 (9141), 1 dekabr 2022
4. Mirzə Bala Məmmədzadə. Milli Azərbaycan hərəkatı Nicat, Bakı, 1992
5.Məmməd Əmin Rəsulzadə.Azərbaycan Cümhuriyyəti: keyfiyyəti-təşəkkülü və indiki vəziyyəti. İstanbul,1339-1341
6. Hüseyn Baykara Azərbaycan istiqlal mübarizəsi tarixi .Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1992
7. Düz  yol məqaləsi -“Azərbaycan qəzeti , 1919, №133

# "DAĞ, DƏDƏ ŞƏMŞİR VƏ SƏMƏD VURĞUN" PARADİQMASINDA ORONİMLƏRİN FƏLSƏFİ-SOSİAL-SİNERGETİK TƏHLİLİ

**Xankişi Məmmədov**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**kankishimamedov_53@mail.ru**

**Riyad Rüstəmli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**riyadrustamli@yahoo.com**

***Açar sözlər:*** *Aşıq Şəmşir, Səməd Vurğun, dağ, oronim.*

*Bu işdə "Dağ, Dədə Şəmşir və Səməd Vurğun" paradiqmasında oronimlərin sinergetik aspektdə tədqiqinə nəzər yetirilir,"Dədə Şəmşir" poetikasında əksini tapmış bəzi oronimlərin nominativ, simvolik, üslubi, mənəvi-estetik və digər funksiyalarından söhbət açılır və nümunələr göstərilir. Qeyd edilir ki, bu həm dil nöqteyi nəzərindən, həm xalqın tarixini və mədəniyyətini daha dərindən öyrənməyə xidmət edən ekstralinqvistik mövqe nəzərindən, həm də ümumtürk toponimlərinin areal sisteminin ümumi mənzərəsinin daha aydın təsəvvür edilməsi baxımından aktual olduğu kimi həm də maraqlıdır. O da vurğulanır ki, dağlara səyahətin yol xəritəsini göstərən Dədə Şəmşirin poetik dünyasının kökü babası Miskin Abdaldan və atası Ağdabanlı Qurbandan üzü bəri gəlir. Dədə Şəmşir poetikasında oronimlər (dağ adları) əksini tapmış nümunəələr yetərincədir. Xüsusən Murov, Dəlidağ, Qoşqar, Kəpəz, Çilgəz, Keyti, Qafqaz, Çalbayır, Ərgünəş və bir çox oronim-lər diqqəti daha çox cəlb edir. Əlbəttə, bəzi qədim oronimlərin bir qisminin tədricən arxaik-ləşdiyini, işləklikdən düşdüyünü və unudulduğunu da yaddan çıxarmaq olmaz. Odur ki, ümumtürk toponimlərinin areal sisteminin ümumi mənzərəsinin daha aydın təsəvvür edilməsi üçün onların hər birini bir daha dərindən araşdırb təhlilə cəlb etmək, mövcud toponimik lüğət-ləri əlavələrlə birlikdə yenidən tərtib edib, əldə olan materialları gələcək nəsillərə çatdırmaq çox zəruridir.*

## ФИЛОСОФСКО-СОЦИАЛЬНО-СИНЕРГЕТИЧЕСКИЙ АНАЛИЗ ОРОНИМОВ В ПАРАДИГМЕ "ГОРА, ДЕДЕ ШЕМШИР И САМЕД ВУРГУН"

**Ханкиши Мамедов**
**Рияд Рустамли**

***Ключевые слова: Ашуг Шамшир, Самед Вургун, гора, ороним***

*В данной работе рассматриваются номинативные, эстетические, символические, стилистические и многие другие функции оронимов, отраженные в поэтическом мире великого азербайджанского ашуга Деде Шамшира, одного из мастеров искусства риторики, и приводятся примеры. Отмечается, что это интересно и актуально как с точки зрения языка, так и с точки зрения экстралингвистики, служащей для изучения истории и культуры народа, и с точки зрения более четкого представления об ареале системы общетюркских топонимов. Также подчеркивается, что корни поэтического мира Деде Шамшира, отражающие дорожную карту путешествия в горы, восходят к деду Мискин Абдала и отцу Агдабанлы Гурбан. В поэтике ДедеШамшира достаточно примеров отражения оронимов (названий гор). В частности, большое внимание привле-каетгоры Муров, Далидаг, Кошкар, Кяпаз, Чилгаз, Кейти, Кавказ, Чалбаир, Эргунаш и многие другие оронимы. Конечно, не следует забывать, что некоторые древние оронимы постепенно устарели и забылись.Поэтому для лучшего понимания общей картины ареала системы общетюркских топонимов, необходимо глубоко изучить и проанализировать каждый из них, заново составить существующие топонимические словари с приложениями и передать полученные материалы будущим поколениям.*

## PHILOSOPHICAL-SOCIAL-SYNERGETIC ANALYSIS OF ORONYMS IN THE PARADIGM "MOUNTAIN, DEDE SHEMSHIR AND SAMAD VURGUN"

**Khankishi Mammadov**
**Riyad Rustamli**

***Key words:*** *Ashug Shamshir, Samed Vurgun, mountain, oronim.*

*This paper examines the nominative, aesthetic, symbolic, stylistic and many other functions of oronyms as reflected in the poetic world of the great Azerbaijani ashug Dede Shamshir, one of the masters of the art of rhetoric, and provides examples. It is noted that this is interesting and relevant both from the point of view of language, and from the point of view of extralinguistics, serving*

*to study the history and culture of the people, and from the point of view of a clearer idea of the areal system of pan-Turkic toponyms. It is also emphasized that the roots of Dede Shamshir's poetic world, reflecting the road map of the journey to the mountains, go back to his grandfather Miskin Abdala and father Agdabanly Gurban. In the poetics of Dede Shamshir there are enough examples of reflecting oronyms (names of mountains). In particular, Murov, Dalidag, Koshkar, Kyapaz, Chilgaz, Keiti, Caucasus, Chalbayr, Ergunash mountains and many other oronisms attract great attention. Of course, we should not forget that some ancient oronim have gradually become obsolete and forgotten. Therefore, to better understand the overall picture of the areal system of common Turkic toponyms, it is necessary to deeply study and analyze each of them, compile anew the existing toponymic dictionaries with appendices, and pass the materials obtained to future generations.*

Öncə "Dağ, Dədə Şəmşir və Səməd Vurğun"modelindəki sözlərin düzümünə nəzər yeti-rək: Birinci "dağ"dır – ona görə birincidir ki, o, qədimdir, əzəlidir, əbədidir, yaşı bilinmir və yaşca hamıdan böyükdür; ikinci "Dədə Şəmşir"dir –səbəbi odur ki, Dədə Şəmşir Səməd Vur-ğundan on üç yaş böyükdür, ona görə də ikincidir; üçüncü isə "Səməd Vurğun"dur. Amma fərq etməz, yaş fərqinə baxmayaraq onların hər üçü dağdır. Göründüyü kimi "Dağ, Dədə Şəmşir və Səməd Vurğun" üçlüyünün kəsişdiyi kompleksdən, yəni həm Dədə Şəmşirin, həm də Səməd Vurğunun təbiəti, daha dəqiq desək dağı tərənnüm etməsindən, dağ ritmlərinin axtarışından, başqa sözlə fəlsəfə-folklor-flora üçlüyünün tədqiqindən söhbət gedir. Amma sözsüz ki, məsələyə müasir düşüncə tərzindən yanaşanda fəlsəfənin yükü daha çox diqqəti cəlb edir.

Bu araşdırmada məsələyə fəlsəfi-sinergetik kontekstdən yanaşaraq "Dağ, Dədə Şəmşir və Səməd Vurğun" paradiqmasının "Dədə Şəmşir" qolunda əksini tapmış bəzi oronimlərin nominativ, simvolik, üslubi, mənəvi-estetik və bir çox digər funksiyaları haqqında fikirlərimizi bölüşməyə çalışacağıq. Güman edirik ki, bu həm dil nöqteyi nəzərindən, həm xalqın tarixini və mədəniyyətini daha dərindən öyrənməyə xidmət edən ekstralinqvistik mövqe nəzərindən, həm ətraf mühiti, dağları tərənnüm etmək baxımından, həm dağlar haqqında qlobal düşüncə paradiqmasının formalaşması baxımından,həm də ümumtürk toponimlərinin areal sisteminin ümumi mənzərəsinin daha aydın təsəvvür edilməsi və sinergetikanın folklora inanılmaz sürətlə inteqraiyası baxımından həm aktualdır, aktual olduğu qədər də maraqlıdır. Problemin sinergetik aspektdən tədqiqi isə araşdırmanın yeniliyindən və aktuallığından xəbər verir ki, bu da sonda müasit təhsil sistemində sinergetik biliklərə malik olan kadrların hazırlanması prosesinin aktuallığına xidmət etmiş olur.

Məlumdur ki, sinergetika elmi tədqiqatların kəsişdiyi fənlərarası istiqamət olub, uyğunluq bildirən sözönü və "fəaliyyət" sözlərinin cəmindən ibarətdir (6,

3). Kökü qədim yunan dilindən götürülən "oronim" lekseminin mənası isə "dağ adları" deməkdir. Daha dəqiq desək, oronimlər deyəndə dağlar, eləcə də torpağın üst qatının relyef quruluşunu bir-birindən fərqləndirən yerlər - təpə, dərə, qayalıq, yarğan, til, eniş, yoxuş və s. nəzərdə tutulur. Onu da qeyd edək ki, coğrafi ünvanlı adların məcmusu hər bir dilin toponimik məkanını təşkil edir. Buna toponomik fəza da deyirlər. Bu birinci toponimik məkandır. "İkinci toponimik məkan" da var. Bu, bədii ədəbiyyatda və folklorda coğrafi adlardır ki, onlar ünvanı xarakterizə etdiyi qədər nominativ, estetik, simvolik, üslubi və bir çox digər funksiyaları da xarakterizə edir. Bu baxımdan **a**ntrotoponim, astionim,aqoronim, komonim, drinonim, dromonim, qodonim, urbanonim, oykonim, hidronim və oronimlərlə bağli paremioloji vahidlər xüsusi maraq doğurur. Çünki, bu həm dil nöqteyi nəzərindən, həm də xalqın tarixini və mədəniyyətini hərtərəfli və daha dərindən öyrənməyə xidmət edən ekstralinqvistik mövqe baxımından aktualdır. Bütün bunlar isə qeyd etdiyimiz problemə sinergetik yanaşmanın– təbiət və cəmiyyətin birgə təkamülünün bariz nümunəsidir.

Oronimlər haqqında əski ədəbiyyatlarda kifayət qədər məlumat əldə etmək mümkündür. Məsələn, Ana kitabımız "Kitabi Dədə Qorqud"da qışda-yazda qarı-buzı əriməyən Qazlıq/Qa-zılıq dağ (indiki Qafqaz dağı), Ağlağan(rus mənbələrində "Mokrıy qor" kimi işlənir), Cızığ-lar, Günortac, Göğ(k)cə/Göyçə, Qaradağ (Daşkəsən, Gədəbəy və Naxçıvanın Şahbuz rayonunda indi də belə dağ var), Qaraçuq (Xocavənd rayonunda indi də belə dağ var), Ala dağ, Altay, Bodın-İnli, Saqçaq, Ağ qaya, Alaş, Ağayıl/Ağ yal, Qara ayıl/Qara yal, Arqıç qır və s. Hətta bir çox şəxs adları, məsələn, Abdal, Ağababa, Ağaverdi, Almaz, Altay, Baba, Dağbəyi, Dağxan, Elbrus, Qafqaz, Himalay, Xanağa, Xəzər, Qoşqar, Qara, Qaracalal, Qasım, Kazbek, Vəli və bir çox adlar da oronimlər əsasında yaranmışdır. Oronimlər əksini tapmış poeziya nümunələri də kifayət qədərdir. Xüsusən bu adlar – Ağrı, Dəlidağ, Keyti, Meyti, Murov, Qaf, Qafqaz, Göyəzən, Qoşqar, Kəpəz, Şahdağ, Salvartı, Sarıdağ, Sarıyer, Xaçbulaq, Bisütun, Qars, Mozə və s. daha çox gözə çarpır.

Öncə qeyd edək ki, hər biri ayrı-ayrılıqda uca və əlçatmaz dağ olan "Dədə Şəmşir" və"Səməd Vurğun" dağlarının görünən və görünməyən tərəfləri, yəni alt qatlarıçoxdur. Görünən tərəflərdən biri "Qəmbər Şəmşiroğlu"nun, biri "Vaqif Səmədoğlu"nun, təbii ki, biri də "Cavid Qəmbəroğlu"- nun adıyla bağlıdır.Burada da sıralamanı biz yaşa görə düzdük. Çünki,Qənbər Şəmşiroğlu Vaqif Səmədoğludan altı yaş böyükdür. Qənbər Şəmşiroğlu isə çox cavandır, hətta X.Məmmədovdan da altı yaş balacadır. Onlar da –Vaqif Səmədoğlu da, Qənbər Şəmşiroğlu da hər ikisi dağdır, özü də soyadlarına və ustadlarına layiq bir dağ. Cavid Qənbəroğluna gəlincə isə, görünən dağa nə bələdçi, onun möhtəşəm bir dağ olduğu çox-çox uzaqlardan diqqəti cəlb edir. Əlbəttə, beş-mərtəbəli evin altıncı mərtəbəsi olan kimi "Dağ, Dədə Şəmşir və Səməd

Vurğun" üçbucağının da görünməyən və bizə məlum olmayan dördüncü, beşinci, altıncı və daha çox tərəfləri və bucaqları var ki, öz tədqiqatçılarının yolunu gözləyir. Amma bir iş var ki, Bəhmən Vətənoğlu demişkən,

Al qələmi fikirləş bir,
Hər parlayan olarmı dürr?
Hər aşıqdan Aşıq Şəmşir,
Hər şairdən Səməd olmaz.

Sədnik Paşa Pirsultanlının da, Seyfəddin Rzasoyun da dedikləri kimi Dədə Şəmşirin poe-tik dünyası dağlara səyahətin ən yaxşı və maraqlı yol xəritəsidir. Bunu Aşıq Şəmşirın  Səməd Vurğunla olandeyişməsində də görmək çətin deyil. Həmin deyişmənin iki bəndinə diqqət edək.

Aşıq Şəmşir, Dəlidağdan keçəndə,
Kəklikli daşlardan xəbər al məni.
Ceyran bulağından qızlar içəndə,
Saz tutub, söz qoşub, yada sal məni.

Məlum olduğu kimi Aşıq Şəmşir Səməd Vurğuna belə cavab verir:

Qoşqarla yanaşı duran başın var,
Bizim el tanıyır uca dağ səni.
Yanır yolumuzda sənət çırağın,
Bilirik şeirdə bir mayak səni.

Vallah təkcə bu deyişməyə qulaq asandan sonra adamın əlini yerdən göydən üzməyi gəlir.

Göründüyü kimi, bu bəndlərdə Dəlidağ və Qoşqar oronimləri diqqət çəkir. Qeyd edək ki, Dəlidağa bu adın verilməsi bu dağda havanın tez-tez dəyişməsi, gözlənilmədən yağış və qar yağması, tufan və qar uçqunlarının olması ilə əlaqədardır. Başqa sözlə ipə sapa yatmadığına görə, dəlilik elədiyinə görə belə adlanır. Kəlbəcərdə hətta Dəlidağsu çayı da var, Başlıbel çayının qolu olan bu çay aşağı axarında Qaraxançay adlanır və mənbəyini Dəlidağdan götürdüyünə görə belə adlanır (2, 157). Bu məqamdabir şeyi də qeyd etmək istərdik ki, Dəlidağ təkcə çox adamın düşündüyü kimi təkcə Kəlbəcər rayonunda deyil, başqa bölgə-lərimizdə də var. Belə ki, yaxın keçmişdə Gəncə quberniyasının Qazax qəzasında, indi isə Qərbi Azərbaycanın Dilican şəhəri ərazisində, Tiflis quberniyasının Loru-Pəmbək qəzasnda, indi isə Qərbi Azərbaycanın Kalinino rayonunda, eləcə də Laçın rayonunda Mıxtökən silsiləsində və Zəngilan rayonu ilə Cəbrayıl rayonu sərhədində də Dəlidağ adlı dağımız var.Gəncə, Şəmkir və Qoşqar çaylarının suayrıcında, Kiçik Qafqazın yamacında yerləşən Qoşqar dağının adı isə qədim türk dillərində "qoyun", "qoç" mənasında işlənən "qaçkar" sözündən götürülüb. "Vəhşi qoç yaşayan dağ" deməkdir. Yeri gəlmişkən, "qoç" toteminə inam Azərbaycanda  islamın yayılmasından çox-çox qabaqlar olmuşdur. Bunu qəbrüstü və qayaüstü rəsmlər də təsdiq edir. Yeri gəlmişkən,ilk adı Quşqara olan Qoşqar çayımız da var (3, 67).      Dağlara

səyahətin yol xəritəsinin göstərən Dədə Şəmşirin poetik dünyasının kökübabası Miskin Abdaldan və atası Ağdabanlı Qurbandan gəlir. Beləcə həm babası, həm də atası üçün müqəddəs olan dağlar movzusu nəsildən nəsilə keçərək Şəmşir yaradıcılığında da uğurla davam etdirilib. Odur ki, dağlardan yazmaq istəyənlər də, dağlara səyahət etməyi düşünənlər də bu xəritədən bəhrələnsələr yaxşı olar.

Məlum olduğu kimi, Səməd Vurğun dünyaya gələndə Dədə Şəmşirin on üç yaşı varıydı. Ustadımız doğulduğu il haqqında “Mənim” adlı qoşmasının birinci bəndində yazır:

Min səkkiz yüz doxsan üçdə anadan,
Olmuşam, bu qədər yaşım var mənim.
Murov, Qoşqar, Kəpəz, Çilgəz, Dəlidağ,
Məskənim olubdu bu dağlar mənim.

Göründüyü kimi Dədə Şəmşirbu şeirdə anadan olduğu tarixi göstərməklə, həm də Murov, Qoşqar, Kəpəz, Çilgəz və Dəlidağ oronimlərindən bəhs etmişdir.

Yuxarıda Dəlidağ və Qoşqar adlarının etimalogiyasına azacıq da olsa nəzər yetirdik. İndi isə digər dağlar haqqında. Güman edirik ki, mövzudan bir qədər uzaq olsa da, Kəpəz, Murov və Çilgəz dağlarına da heç olmasa, azacıq da olsa, diqqət ayırmasaq, bəndə bizdən küsməsə də dağlar bizdən inciyər. Əvvəlcə Kəpəz dağı haqqında.Bəzi tədqiqatçılara görə "kəpəz" sözü türk dillərində "qaya" və ya "su kənarında qaya", bəzi tədqiqatçılar isə bu sözü "kəp" (mənası pillə, pilləli qaya deməkdir) və kəz/gəz (dağ başında batıq) komponentlərindən yarandığını, yəni "zirvəsi pilləli olan dağ" olduğunu deyirlər. Görünür bu 1139-cu ildə baş vermiş məlum zəlzələdən sonra dağın pilləli şəklə düşməsi ilə əlaqədardır. Onu da qeyd edək ki, XII və XIII əsr müəllifləri N.Gəncəvi, Zəkəriyyə Qəzvini bu dağın adını "Hərək" kimi qeydə alıblar. Dağın zəlzələdən əvvəlki olan "Hərək" adı türk dillərində "ikihürgüclü dəvə" mənasını verir. Görünür zəlzələdən əvvəl bu dağ ikihürgüclü dəvəyə bənzədiyuinə görə belə adlandırılıb. Türkmənistan ərazisində də "Hərəkdağ" var (1, 277). "Murovdağ" da "murov" (çaylı) və "dağ" komponentlərindən yaranıb, "çaylı dağ" deməkdir. "Çilgəz" dağı da Kəlbəcər və Laçın rayonları ərazisində yerləşir. "Çil/cil" (sucaq yer, bataqlıq deməkdir) və "gəz" (gədiyin ən alçaq yeri və ya dağ belində aşırım deməkdir) komponentlərindən yaranıb, "ətəyində sucaq yer və ya bulaq olan yer" mənasındadır.

Dədə Şəmşir atası və babası üçün müqəddəs olan dağlardan yazarkənbaşqa bir şeirindəyenə dəQoşqar, Kəpəz, Murov kimi oronimlərin adını çəkir.

Əsir Dağıstanın yeli Qoşqara,
Yolum çox düşübdü, bəli, Qoşqara,
Kəpəzə, Murova, dəli Qoşqara,
Salar şagirdlərim iz mənim kimi.

Məlum olduğu kimi XVI əsrdə Dədə Şəmşirin babası Miskin Abdal Dağıstanda vəzir olmuş və dağlar haqqında ilk şeirini də elə Dağıstanda yazmışdır. Ona görə ustad Dağıstan sözünü burada işlətmişdir: Bu şeirdə də göründüyü kimi Qoşqar, Kəpəz, Murov oronimləri öz əksini tapmışdır.**B**aşqa bir şeirdə Qafqaz dağının şəfası haqqında ustadımız yazır:

Meylim aran gəzir, ara dağları,
Unutmaram, getsəm hara, dağları.
Bu gözəl Qafqazın sıra dağları,
Şəmşirə bir şəfa göndərər mehi.

Oronimlər haqqında Dədə Şəmşirinn şeirlərində nümunələr yetərincədir. Məsələn,

Mən nə xəyaldayam, fələk nə sayır,
Dərman diliyirəm, dərdimə dair.
İstisu, Dəlidağ, Keyti, Çalbayır,
Tərif yazan hanı, deyib, yüz ağlar.

Burada da ustadımız Dəlidağ, Keyti, Çalbayır dağlarının adını çəkir.Tanıyanlar deyirlər ki, Dədə Şəmşir "Keyti dağı"ndan danışanda həmişə kövrələrmiş. "Keyti dağı" haqqında olan əfsanə haqqında Dədə Şəmşir deyirmiş ki, "Keyti-Meyti dağları maral sürüləri ilə doluymuş o zaman. Yeri gəlmişkən, Keyt sözü – maral deməkdir. Keyti isə maralların cəmi, maralların sürüsü anlamına gəlir (5, 70).

Dədə Şəmşir təkcə Kəlbəcərdəki dağlara deyil, Azərbaycanımızın digər dağlarına da şeirlərində yer ayırmışdır. Qarabağın əzəmətli dağlarından olan Ərgünəş oronimi haqqında ustadımız yazır:

Ucalıqdan tapıb qüdrət nicatı,
Axıdır köksündən abi-həyatı,
Lalədən, nərgizdən olur çarğatı,
Dumana bürünür başın, Ərgünəş.

Yaxud başqa bir qoşmasında ustadımız yazır:

**Qartal düşüncəli, şair xəyallı,Tərlan yuva salan dağlar oğluyam. Anam İstisudu, atam Dəlidağ, Murov, Lülpar, Qonur, Qoşqar oğluyam.**
**Bədənim Ərgünəş, Gülüstan, Çilgəz,Vüqarım Şah dağı: əl çata bilməz.Məkanım Çalbayır, oylağım Kəpəz,Min çiçəkli bir laləzar oğluyam.**
**Cavahirdir Azərbaycan torpağı,Qızıl, gümüş, hər sərvətin yatağı.Uca zirvələrin-lalə bayrağı!Şəmşirəm, nə gözəl diyar oğluyam.**

Qeyd edək ki, "Ar"və "günəş" sözlərindən yaranan Ərgünəş dağı Qarabağın Xocəvənd rayonunda yerləşir. Bu oronim toponomik ədəbiyyatlarda"Ərgünoş" kimi göstərilir.Hazırda Quba rayonunda olan "Dolanlar" dağınıln adı da

əvvəllər "Argünəş" olmuşdur. Yeri gəlmiş-kən, bu sətirlərin müəlliflərindən biri olan Xankişi Bəxtiyar da öz şeirlərimin birində Ərgünəş dağının Türk dünyasının böyük oğlu Rəcəb Tayyib Ərdoğana çox yaraşdığını və bu səbəbdən də Ərgünəş dağının bundan sonra **ƏRDOĞAN** adlandırılmasını arzu etmişdi. Həmin bəndə diqqət edək:

Azad etdiz Qarabağı düyündən,
Əskik olmayasız toydan-düyündən.
**Ərgünəş dağının** adı bu gündən,
Arzumdu qoy olsun **Ərdoğan,** dədə!
Sizə salam olsun Ərdoğan dədə! (4, 94)

Güman edirik ki, X.Bəxtiyarın bu arzusu nəzərə alınacaq, inşəaallah! Çünki, Qarabağımızın, o cümlədən Ərgünəş dağının düşmənlərdən azad edilməsində Rəcəb Təyyub Ərdoğanın mənəvi dəstəyi danılmazdır və sözsüz ki, o, bunadan da artıq adlara layiqdir.Dəlidağa atam,İstisuya isə anam deyən Dədə Şəmşirin yazdığı şeirlərin çox hissəsi dağlara həsr olunub. Bir şeirə diqqət edək:

Dağlara aşiqəm, həm pasibanam,
Xınalı dağlarda qalır nişanam.
Atam Dəlidağdı, İstisi anam,
Nəvə olub oğlum, qızım dağlara (1, 24).

Dədə Şəmşirşanslı sənətkar olub. Onun şansı onda gətirib ki, əvvəla Ulu Tanrı ona o cür fitri istedad və yaddaş verib. Digər tərəfdən Səməd Vurğun kimi bir nəhəngi Allahımız ona rast eləyib. Üçüncüsü isə Dədə Şəmşirin şansı onda gətirib ki, dağlar onun atadan da, anadan da, oğuldan da, qızdan da çox nazını çəkib, onunla dostluq edib. Dədə Şəmşir də bu dostluq-dan ilham alıb, yazıb, yaradıb və xalqına xidmət edib. Fikrimizcə Dədə Şəmşir poeziyasında dağların, eləcə də oroniumların vəsfi barədə danı-şarkən, ustadın "Kəlbəcər" adlı müxəmməsinə diqqət etmək kifayət edər. Çünki bu əsərdə hər şey var: tarix də, soy da, kök də, yurdun coğrafiyasıda, onun dağları da, bulaqları da,çayları da, gölləri də, çəməni də, gülü də, çiçəyi də. İndi həmin müxəmməsin bir neçə bəndinə diqqət edək:

Kəlbəcərdi adın sənin, sahibi-dəftər bəyənib,
Səni yaradan təbiət demirəm hədər bəyənib.
Abi-həyat səndə imiş, gəlib İsgəndər bəyənib,
Torpağını, gözəlini aşıq Ələsgər bəyənib,
İgidlərin təriflənib dastansayağı, Kəlbəcər.

Sənin loğman əllərindi hər dərdə dərman yetirən,
Duyğulu qartal böyüdən, alıcı tərlan yetirən,
Kəlməsi dürr xəzinəsi kamallı Qurban yetirən,
Piranəyə qədir qoyan, təzə növcavan yetirən,
Günbəgündən pardaqlanır şeir ocağın, Kəlbəcər.

Bədirbəy, Murov, Qonur, Sultanheydər səninkidir,
Taxtadüz, Qara arxa celənəzər, səninkidir.
Teymurcan, Sarıbulaq bala bənzər, səninkidir,
Dastanlı Ceyranbulağıtəmi-şəkərsəninkidir,
Dərdlərə dərman olan kövsər bulağın, Kəlbəcər.
Ətotusu, qılınc otu, bulaq üstə lilparı var,
Yel gətirən, qaya çayı, piltanın müşkəmbəri var,
Boyxaç, nərgiz, saf qantəpər süsənlərin şeşpəri var,
Qərənfil, bahar gülünün, sünbülün əcəb səri var,
Yemlik, qulançar, sündürük, xatınbarmağın, Kəlbəcər.

Göründüyü kim Dədə Şəmşir poetikasında oronimlər əksini tapmış nümunələr yetərin-cədir. Amma maraqlıdır ki, dağlar yer kürəsinin təxminən qırx faizini təşkil etsə də (Azərbay-canda bu rəqəm altmış faizə qədərdir, dağların sayı isə respublikamızda səksənə yaxındır) oronimlərlə bağlı atalar sözlərimiz çox az saydadır. Hətta Azərbaycanın ən gözəl beş dağı olan İlandağ, Şahdağ, Tufandağ, Kəpəz və Bazardüzü dağları haqqında da atalar sözlərinə rast gəlmirik. Amma ola bilməz ki, olmasın. Əlbəttə, bu da yeni tədqiqatların aparımasını tələb edir. Onu da qeyd edək ki, apardığımız tədqiqatlar nəticəsində məlum olmuşdur ki, qədim oronimlərin bir qismi tədricən arxaikləşmiş, işləklikdən düşmüş, beləliklə sıradan çıxmış və unudulmuşdur. Odur ki, ümumtürk toponimlərinin areal sisteminin ümumi mənzərəsinin daha aydın təsəvvür edilməsi üçün onların hər birini bir daha dərindən araşdırb dərindən təhlilə cəlb etmək, mövcud toponimik lüğətləri əlavələrlə birlikdə yenidən tərtib edib və əldə olan materialları gələcək nəsillərə çatdırmaq çox zəruridir.

Bu yerdə qardaş Türkiyəmiz və Anadolumuz xəyalımızdan keçdi. Başımız dumanlandı, xəyalımız çaşdı. Min rəssamın da çəkə bilməyəcəyi dünyaca məşhur olan bir hadisə yadımıza düşdü: “Deyir ki, bir gün Tapdıq Əmrə öz tələbələrini, ocümlədən Yunis Əmrəni onun üçün dağdan çiçəkdərib gətirməyə göndərir. Tapdıq Əmrənin hərtələbəsi bir qucaq çiçək dərib gətirir, Yunis Əmrəisə tək bir sarı çiçəklə geri dönür. Tapdıq Əmrəondan soruşur:- Övladım, sənin məhəbbətin mənə o qədərmiazdır, tək bir sarı çiçək qoparıb gətirdin mənə?Yunis Əmrə qayıdır ki, yox, ustadım, mən dağa çatanda bütün otlar, güllər, çiçəklər namazqılırdı. Sarı çiçək dilləndi ki, Yunis Əmrə, təkcəmən namazdan qalmışam, məni qopar apar”. Bu səbəbdən mən sizə yalnız bu gülü gətirdim. Deyirəm hikmətə bax, sözün alt qatına bax ilahi! Bu sözün qarşısında necə diz çökməyəsən? Bu misalı ona görə çəkdik ki, Dədə Şəmşir və Səməd Vurğun ünvanına ən gözəl və ətirli güllərin çoxunu sanki dəriblər. Odur ki, bu səbəbdən bu ünvana yazdıqlarımızdan daha yaxşısını yazmağa və deməyə təəssüf ki, gücümüzvə imkanımız çatmadı. Bircə şeyi deyə bilərik ki, dağlar Dədə Şəmşir üçün, Dədə Şəmşir də dağlarüçün yaranıb.

## Ədəbiyyat


1. Aşıq Şəmşir. Şeirlər. Bakı, "Yazıçı", 1980.
2. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. I cild. Bakı, "Şərq-Qərb", 2007.
3. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. II cild. Bakı, "Şərq-Qərb", 2007.
4. Məmmədov X.B. Yüzə yüz. Şeirlər.Bakı, "Müəllim", 2022.
5. Pirsultanlı (Paşayev) S.P. Aşıq Şəmşirin poetik aləminə səyahət. Bakı, "Orxan", 2008.
6. Həsənova A.M., Rüstəmli R.A. Müasir təbiətşünaslığın sosial-sinergetik konsepsiyası. Bakı, ADPU, 2021.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İRSİ AZƏRBAYCAN DÖVLƏTİNİN MİLLİ SƏRVƏTİDİR

**Ülkər Məmmədzadə**
**Bakı Dövlət Universiteti**
**ulkar_m23@hotmail.com**

***"Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir"***
***Heydər Əliyev***

***Açar sözlər:****Azərbaycan, Heydər Əliyev, İlham Əliyev, prezident, davamçı*

*Azərbaycanın ən yeni tarixində mühüm bir mərhələ Ümummilli lider Heydər Əliyevin adı ilə əlaqədardır. Heydər Əliyev, 1969-1982-ci illər ərzində Sovet Azərbaycanına rəhbərlik etmiş, 1993-cü ilin iyunundan 2003-cü ilə qədər isə azad Azərbaycanın prezidenti olmuşdur. Hər iki ictimai-siyasi quruluşda məhz onun başçılığı ilə Azərbaycan iqtisadiyyatı qüdrətlənmiş, nüfuzu artmış, milli mənafeyi, milli mentaliteti, mədəniyyət və mənəviyyatı qorunmuş və tərəqqi etdirilmişdir. Məhz Heydər Əliyevin göstərdiyi səylər nəticəsində Dağlıq Qarabağ münaqişəsində müvəqqəti atəşkəsə nail olunmuş və bu münaqişənin həlli istiqamətində mühüm olan bir sıra addımlar atılmışdır. Ulu Öndər Heydər Əliyevin uzaqgörən müdrik siyasəti nəticəsində əsrin müqaviləsinin imzalanması ilə Azərbaycan hegemon dövlətlərin dəstəyini qazanmış oldu. Bugün əsası Heydər Əliyev tərəfindən qoyulan siyasət uğurla davam etdirilir və cənab prezident İlham Əliyevin başçılığı ilə Azərbaycan uğurlu gələcəyə doğru addımlayır.*

## НАСЛЕДИЕ НАЦИОНАЛЬНОГО ЛИДЕРА ГАЙДЕРА АЛИЕВА – НАЦИОНАЛЬНОЕ СОКРОВИЩЕ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВА

**Улькар Мамедзаде**

***Ключевые слова:****Азербайджан, Гейдар Алиев, Ильхам Алиев президент, преемник*

*Важный этап новейшей истории Азербайджана связан с именем общенационального лидера Гейдара Алиева. Гейдар Алиев возглавлял Советский Азербайджан в 1969-1982 годах, а с июня 1993 по 2003 год был президентом независимого Азербайджана. В обеих общественно-политических структурах именно под его руководством укреплялась экономика Азербайджана, возрастало его влияние, защищались и*

*продвигались национальные интересы, национальный менталитет, культура и духовность. В результате усилий Гейдара Алиева в нагорно-карабахском конфликте было достигнуто временное перемирие, и был предпринят ряд важных шагов по урегулированию этого конфликта. В результате дальновидной и мудрой политики Великого лидера Гейдара Алиева Азербайджан добился поддержки государств-гегемонов с подписанием Соглашения века. Сегодня политика, заложенная Гейдаром Алиевым, успешно продолжается, и под руководством господина Президента Ильхама Алиева Азербайджан движется к успешному будущему.*

## NATIONAL LEADER HAYDER ALIYEV'S LEGACY IS A NATIONAL TREASURE OF THE STATE OF AZERBAIJAN

**Ulkar Mammadzade**

***Key words:****Azerbaijan, Haydar Aliyev, Ilham Aliyev, president, successor*

*An important stage in the most recent history of Azerbaijan is connected with the name of national leader Heydar Aliyev. Heydar Aliyev led Soviet Azerbaijan in 1969-1982, and was the president of independent Azerbaijan from June 1993 to 2003. In both socio-political structures, it was under his leadership that the economy of Azerbaijan was strengthened, its influence increased, national interests, national mentality, culture and spirituality were protected and promoted. As a result of Heydar Aliyev's efforts, a temporary truce was achieved in the Nagorno-Karabakh conflict, and a number of important steps were taken towards the resolution of this conflict. As a result of the visionary and wise policy of Great Leader Heydar Aliyev, Azerbaijan gained the support of the hegemonic states with the signing of the agreement of the century. Today, the policy founded by Heydar Aliyev is being successfully continued, and under the leadership of Mr. President Ilham Aliyev, Azerbaijan is moving towards a successful future.*

Azərbaycanın ən yeni tarixində mühüm bir mərhələ – XX əsrin son 30 ili və XXI əsrin əvvəli, həmin dövrdə ölkəmizə başçılıq etmiş tanınmış dövlət və siyasi xadim, Ümummilli öndər Heydər Əliyevin adı ilə əlaqədardır. Məhz onun başçılığı ilə Azərbaycan iqtisadiyyatı qüdrətlənmiş, nüfuzu artmış, milli mənafeyi, milli mentaliteti, mədəniyyət və mənəviyyatı qorunmuş və tərəqqi etmişdir.

Həm sovetlər birliyi, həm də müstəqil Azərbaycan Respublikası müddətində Vətəninə, dövlətinə şərəflə xidmət etmək Ümummilli öndərin həm

mübarizə devizi və həm də həyat idealına çevrilmişdir. Ulu öndər fəaliyyətinin ilk mərhələsindən özünəməxsus şəxsi özəllikləri ilə seçilmiş, məsul vəzifələrdə fəaliyyət göstərərək ən yüksək rəhbərlik səviyyəsinə ucalmış, 1969-cu ildə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin Birinci katibi seçilmişdir.

1993-cü ildə ölkəmizdə II dəfə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın xarici siyasət kursunu qlobal güc qütblərinin gərginlik sektorlarına salmadan, çevik manevrlərlə inkişaf etdirirdi. Onun başçılığı ilə həyata keçirilən xarici siyasət kursunun 3 əsas aspektini göstərmək olar: ilk növbədə, region dövlətləri ilə qarşılıqlı əlaqələrin nizamlanması; ikinci, ölkəmizin qonşu dövlətlərlə qarşılıqlı əlaqələrinin yaradılması; üçüncü, coğrafi nöqteyi-nəzərdən uzaq olan ölkələrlə qarşılıqlı əlaqələrin formalaşdırılması.

Bu nöqteyi-nəzərdən, Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərini üç səviyyədə sistemləşdirmək mümkündür. I səviyyə ölkəmizlə coğrafi nöqteyi-nəzərdən qonşu olan böyük ölkələri əhatə edir. Bura Rusiya, Türkiyə və İran daxildir. II səviyyə region dövlətləri - Gürcüstan, Ermənistan və Mərkəzi Asiya dövlətləri ilə olan münasibətlərdən ibarətdir. III səviyyə isə Avropa, ABŞ və Uzaq Şərqin böyük ölkələri ilə aparılan siyasətdən ibarətdir. Beynəlxalq təşkilatlarla əməkdaşlıq istiqaməti isə hər 3 səviyyəni əhatə edir. Sözügedən istiqamətləri birləşdirən mühüm prinsip dəyişkən beynəlxalq əlaqələr mühitində Azərbaycanın milli suverenliyini maksimum təmin etməkdən təşkil olunmuşdur. [4]

Azərbaycanın strateji tərəfdaşı kimi Heydər Əliyev, Naxçıvan MR Ali Sovetinin sədri olduğu dövrdə də Türkiyə ilə münasibətlərə böyük əhəmiyyət verir. Beləliklə, 22 mart 1992-ci ildə Heydər Əliyev Türkiyənin Baş naziri Turqut Özal və Baş nazir Süleyman Dəmirəlin dəvəti ilə Türkiyəyə səfər etdi. Bu səfər zamanı 24 mart tarixində bir əməkdaşlıq müqaviləsi qəbul edildi. Müqavilədə Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasında təhsil, nəqliyyat və kommunikasiya sahələrində əlaqələrin inkişaf etdiyi qeyd olunurdu [6, s. 153].

Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin Türkiyəyə 1994-cü ilin fevralın 4-dən 11-nə kimi uzanan ilk rəsmi səfəri qarşılıqlı əlaqələrin möhkəmlənməsinə yeni təkan oldu. Səfər zamanı Azərbaycanla Türkiyə arasında əməkdaşlıq və qarşılıqlı yardım barəsində protokol, iqtisadi, elmi-texniki və mədəni sektorlarda əməkdaşlıq barəsində müqavilə, dostluq və zəngin əməkdaşlığın tərəqqisi haqqında müqavilə və başqa mövzular haqqında 16 vacib sənəd imzalandı.

Heydər Əliyev ölkənin geosiyasi mənzərəsini və mövcud siyasi münasibətlər sistemini nəzərə alaraq, mühüm ixrac boru kəmərinin Azərbaycan-Gürcüstan-Türkiyə marşrutu ilə çəkilməsini mühüm hesab edirdi. İqtisadi baxımdan nisbətən baha olmasına baxmayaraq, Bakı-Tbilisi-Ceyhan neft

kəmərinin inşa edilməsini təkidlə söyləyən Heydər Əliyev bunun əhəmiyyətli və siyasi baxımdan ən düzgün qərar olduğunu sübuta yetirmişdi. [5]

Azərbaycan, İran ilə xalqlarımızın xeyrinə olan qarşılıqlı xeyirli əməkdaşlıqla səmimi qonşuluq prinsipi nəticəsində sabit, ikitərəfli iqtisadi, siyasi, mədəni əlaqələr yaratmağa nail olmuşdu. İranın keçmiş prezidenti Haşimi-Rəfsəncaninin 1993-cü il oktyabr ayında Bakı şəhərinə, Heydər Əliyevin 1994-cü il iyun-iyul ayları ərzində İrana səfəri zamanı hər iki dövlət arasında qarşılıqlı əlaqələrin bütün sektorlarını əhatə edən 64 vacib sənəd imzalanmışdır [9, s.228].

2002-ci ildə ulu öndər Heydər Əliyevin İrana səfəri ərzində həm iqtisadi, həm siyasi və həm də başqa istiqamətlərdə əməkdaşlığın tərəqqi olunmasını özündə əks etdirən sənədlər toplusunun imzalanması Bakı və Tehran arasında münasibətlərin daha da güclənməsinə, qarşılıqlı olan iqtisadi əməkdaşlıq üzrə komissiyanın ərsəyə gətirilməsi isə iqtisadiyyatda dəqiq sektorlar üzrə əməkdaşlıq yaradılmasına stimul vermişdi. Heydər Əliyevi ilə İran Prezidenti Məhəmməd Hatəmi arasında danışıqlarda Xəzərin hüquqi statusu barədə edilən müzakirələrin yekunu kimi 2 dövlətin təcrübəçiləri dərəcəsində görüşlərin həyata keçirilməsi intensiv səciyyə almışdı. Davamlı şəkildə həyata keçirilən həmin görüşlər hesabına Xəzər statusu ilə əlaqədar Azərbaycan və İran arasında mövcud bir sıra fikir ayrılıqları ortadan qalxmağa başlamışdı.

Aydındır ki, Azərbaycan ilə Rusiya arasında konstruktiv əsasda yaxşı dostluq münasibətləri qurma mərhələsi, ikitərəfli əməkdaşlıq və ümumi maraqlar Ümummilli öndər Heydər Əliyevin siyasi, diplomatik fəaliyyəti və zəngin dövlət təcrübəsi ilə birbaşa əlaqəlidir. Ölkəmiz dəfələrlə Rusiya Federasiyasının eyni dövlətinə tabe olan Sovet respublikalarına maraq göstərəcəyini dəfələrlə söylədi. Rusiya ilə normal, sağlam qonşuluq əlaqələri, ölkəmiz üçün xüsusi əməkdaşlıq perspektivləri xüsusi əhəmiyyət daşıyırdı. Həmçinin bildirmək lazımdır ki, bir sıra Rusiya dairələrinin fəaliyyəti ölkələrimiz arasında yaxşı qonşuluq münasibətlərinin və əməkdaşlığın bərpa olunması prosesinə mane olur ki, bu da yalnız ikitərəfli münasibətlərə deyil, bütövlükdə bölgədəki təhlükəsizlik məsələlərinə də zərər verir. Məsələn, 1997-ci ilin fevralında Rusiya Federasiyasının MDB ölkələri ilə əməkdaşlıq naziri Aman Tuleyev 1994-1996-cı illərdə Rusiya Federasiyası tərəfindən Ermənistana göndərilən silah və sursat haqqında məlumat yaydı. Qısa müddət sonra, 2 aprel 1997-ci il tarixində, Rusiya Dövlət Dumasının Müdafiə Məsələləri Komissiyasının sədri Lev Rocklin, 1 milyard silahın Rusiyadan Ermənistana köçürülməsinə dair son hesabatını açıqladı. Bu fakt Azərbaycanın Rusiya ilə münasibətlərini xeyli kəskinləşdirdi. Bir ay sonra müdafiə naziri İqor Rodinov Rusiyanın Ermənistana qanunsuz olaraq silah göndərdiyini təsdiqlədi [1, s. 181]. Belə siyasi gərginliklər içərisində, 1997-ci ilin iyul ayında Prezident Heydər Əliyev

Moskvaya səfər etdi. Yüksək səviyyəli görüşlərdə iki ölkə arasındakı siyasi və iqtisadi əlaqələr, Xəzərin statusu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, habelə Rusiyadan Ermənistana qanunsuz silah ötürülməsi məsələləri müzakirə edildi. Görüşlərdən sonra iki ölkə arasında ikitərəfli münasibətlərin hüquqi bazasını və strateji mahiyyətini müəyyənləşdirən "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Dostluq və İkitərəfli Təhlükəsizlik haqqında Saziş" də daxil olmaqla bir sıra mühüm sənədlər imzalanıb. İyul ayında Azərbaycan Prezidentinin şərəfinə verilən rəsmi qəbulda Heydər Əliyev iki ölkə və xalqlar arasında təsirli bir atmosferin və dəstəyin olduğunu bir daha vurğuladı: "Azərbaycan Rusiya ilə Azərbaycan arasında dostluq əlaqələrinin inkişafı və möhkəmləndirilməsi üçün hər cür səy göstərəcəkdir" [2].

2001-ci il yanvarın 1-də ölkəmizlə Rusiya Federasiyası arasında imzalanan Bakı Bəyannaməsi iki tərəf arasında əməkdaşlığın möhkəmləndirilməsi yolunda mühüm addım idi. İnkişaf etmiş Rusiya-Azərbaycan münasibətlərinin praktik olaraq bütün aspektləri və gələcək birgə fəaliyyətin ideoloji əsasları bu dəyərli sənəddə öz əksini tapmışdır. Bəyanatda, hər iki tərəf, milli maraqlar əsasında hərbi və texniki və uzunmüddətli əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini vurğuladı. [1, s. 234].

Ulu öndər Heydər Əliyevin iştirakı ilə yürüdülən Azərbaycanın xarici siyasətində vacib mövqe tutan istiqamətlərdən birini də Cənubi Qafqazın iki ölkəsi – Gürcüstan və Ermənistanla olan əlaqələr təşkil edir. Hazırda da Ermənistanın təcavüzkarlığının aradan qaldırılması xarici siyasətin vacib istiqamətlərindən biri olaraq qalır. Gürcüstana yönəlmiş siyasətdə isə ciddi əməkdaşlıq xətti seçilmişdir. Ermənistan dövlətinin qeyri-konstruktiv və təcavüzkar siyasəti regionda xeyli süni geosiyasi çətinliklər ortaya çıxarmışdır. Ulu öndər Heydər Əliyev də sözügedən amilləri əsas götürmədən regional siyasət strategiyasını qura bilməzdi.

Ötən əsrin 90-cı illərinin başlanğıcında Ermənistanın işğalcı siyasəti hələ də sürdüyündən ölkəmiz Gürcüstanla da qarşılıqlı əlaqələrinə aydınlıq gətirməkdə problem yaşayırdı. 1991-1993-cü illərdə Gürcüstanda sırf millətçi qüvvələrin rəhbər olması da hər iki ölkə arasında dostluq əlaqələrini çətinləşdirmişdi. Bu dövrlərdə Gürcüstanda məskən salmış soydaşlarımız sıxışdırılır, məskən saldıqları yerləri məcburən tərk edərək, yenidən ölkəmizə gəlirdilər. Buna səbəb isə Z.Qamsaxurdiya iqtidarının ultramillətçi siyasət yürütməsi idi.

Gürcüstanın Azərbaycanın xarici siyasətində və böyük layihələrdə yeri Ümummilli öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən bəri qeyd olunur və ölkəmiz 1990-cı illərdən bəri qonşu ölkənin üzləşdiyi problemlərin və maneələrin aradan qaldırılmasında böyük dəstək olmuşdur. Bu məqam keçmiş Gürcüstan liderləri Edvard Şevardnadze və Mixail Saakaşvili tərəfindən müxtəlif yollarla dəfələrlə vurğulanmışdır. 2013-cü ildə Azərbaycana rəsmi

səfəri zamanı Saakaşvili dedi: "Gürcüstanın bir çox müttəfiqi var, amma heç biri, Azərbaycan kimi, çətin anlarda bu ölkəni dəstəkləməyib” [2, s. 254].

Azərbaycan Respublikası və Gürcüstan arasında qarşılıqlı əlaqələrdə yeni mərhələnin əsası Heydər Əliyevin hakimiyyətə yenidən gəlməsindən sonra qoyuldu. Gürcüstan 1990-cı illərin əvvəllərindəki ağır iqtisadi və siyasi vəziyyət zamanı Azərbaycan üçün Heydər Əliyevin xarici siyasətində və qlobal enerji strategiyasında əsas strateji istiqamət idi və Heydər Əliyev bölgə daxilində qarşılıqlı faydalı regional iqtisadi, siyasi və təhlükəsizlik sistemlərinin daha bir səviyyəsinin təməlini qoyur və inteqrasiya prosesi yerli əhalinin ehtiyaclarını ödəməyə başladı. Heydər Əliyevin rəhbərliyi ilə yüksək səviyyəli Azərbaycan rəsmiləri müxtəlif bölgələrə səfər etdilər.

Azərbaycan Prezidenti Gürcüstanda baş verən təhlükəli prosesi E.Şevardnadze və ölkənin digər liderləri ilə müzakirə etməyə davam etdi və onlara digər vacib tövsiyələr və dəstək verdi, eyni zamanda Lider Heydər Əliyev üçüncü ölkələrin rəsmi şəxsləri ilə görüşdü və onları Gürcüstanın beynəlxalq tədbirlər çərçivəsində qarşılaşdığı problemlərə yönəltməyə və Gürcüstanın üzləşdiyi problemləri həll etməyə təşviq etdi. [8, s.82].

O dövrdə ulu öndər Heydər Əliyevin apardığı Gürcüstana qarşı siyasət iki ölkənin və xalqlarının gələcəyini ciddi şəkildə bağladı və bölgənin gələcək sülhü, sabitliyi və davamlı tərəqqisi üçün möhkəm zəmin yaratdı. 8 mart 1996-cı ildə, Azərbaycan Respublikasının daxili siyasəti sabitləşdikdən və beynəlxalq səviyyədə enerji layihələri ilə bağlı mühüm addımlar atıldıqdan sonra Heydər Əliyev ilk böyük xarici ziyarətini Gürcüstana yönəltdi. Həmin səfərin tarixi əhəmiyyəti, Azad Azərbaycan Prezidentinin Gürcüstana birinci rəsmi səfəri olmasıdır.

Səfər zamanı iki tərəf bəzi vacib və dəyərli sənədlər imzaladı, dostluq əməkdaşlığını və qarşılıqlı təhlükəsizliyi gücləndirmək üçün 22 müqavilə və ticarət müqaviləsi imzaladılar [3]. Heydər Əliyevin təşəbbüsü ilə iki ölkə “Tiflis Bəyannaməsi” adlanan “Sülh, Təhlükəsizlik və Əməkdaşlığa dair Qafqaz Bəyannaməsi” ni təsdiqlədi. Heç də təsadüfi deyil ki, bəzi şərhçilər Tiflisin iki liderinin imzaladığı bəyannamə "Qafqaz Ümumi Evi" konsepsiyasının başlanğıcı kimi qiymətləndirirlər.

Sözügedən hər iki dövlətin qarşılaşdığı bölgə təhlükəsizlik səslərinə, daxili stabilliklə əlaqədar məsələlərə və xarici basqılara rağmən, Azərbaycanla Gürcüstanın Şərq–Qərb yönümlü başqa gələcək bölgə layihələrinin təməlini qoyan Bakı–Supsa layihəsi vasitəsilə əlaqədar imzalanan saziş böyük tarixi müqavilə və zəfər idi. Bu mərhələdə Gürcüstan bölgəsindən keçən növbəti enerji müqavilələrinə qarşı olan bəzi qüvvələr həm Azərbaycana, həm də Gürcüstana çox ciddi basqılar etməyə, hər iki dövlətdə daxili siyasi stabilliyi pozmağa can atırdılar. Bu əhəmiyyətli layihələr tətbiq edilərkən Azərbaycan Respublikasında dövlət çevrilişinə cəhd, terrorlar və ulu öndər Heydər Əliyevin

həyatına sui-qəsdlər təşkil edilmiş, Gürcüstanda da bunlara bənzər təxribatlar baş vermişdir. Gürcüstan Prezidenti Eduard Şevardnadzenin həyatına sui-qəsd cəhdi də böyük əks-səda doğurmuş və o zaman olmuşdur. Azadlığını hələ təzə qazanmış və hələ də çox zəif olan hər iki dövlət azad siyasətlərinə qarşı bu əngəllərə və basqılara ancaq hər iki dövlətin rəhbərliyində mükəmməl dövlətçilik səriştəsi olan şəxslərin ağıllı siyasətləri hesabına qalib gələ bildi.[10]

17 avqust 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Şahdəniz yatağından qazın Azərbaycana qlobal satış mərkəzləri arasında ixracı ilə bağlı məsələlərin həlli üçün işçi qrupunun yaradılması haqqında" Sərəncam verdi. Şahdəniz ilə bağlı qaz müqaviləsi 1996-cı ildə təsdiqlənmişdir. Buna görə də Azərbaycan qazının Gürcüstandan Bakı-Tbilisi-Ərzurum qaz kəməri ilə dünyanın pərakəndə mağazalarına ixracı məqsədəuyğun sayılır, çünki bu, uzunmüddətli və iqtisadi maraqlarımızdır [11]. Ümumi uzunluğu 691.000 metr, Azərbaycan ərazisindən 443.000 metr və Gürcüstan ərazisindən 248.000 metr yüksəklikdə olan Cənubi Qafqaz boru kəməri 2006-cı ilin sonunda həyata keçirilmişdir. 2007-ci ilin iyulundan bu boru kəməri Gürcüstan və Türkiyəyə təbii qaz tədarük edir. Xəzər dənizinin Azərbaycan hissəsindəki Şahdəniz qaz yatağı, Heydər Əliyevin iqtisadi və regional fəaliyyətinin mühüm bir hissəsi kimi mövcud Avropa-Qafqaz-Asiya-Yeni İpək nəqliyyat dəhlizinin yaradılması idi. Bu müddət ərzində Avropa Birliyinin faydalı dəstəyi ilə tarixdən gəlib çatmış İpək Yolunun bərpa edilməsi üçün əhəmiyyətli işlər görülmüşdür. 1993-cü ilin may ayında, beş Orta Asiya respublikasının və üç Qafqazın nəqliyyat və ticarət nazirlərinin qatıldığı Brüsseldəki bir toplantıda TRACECA-nın bu ölkələr üçün İpək Yolu proqramı təsdiq edildi. 1996-cı ilin may ayında ölkəmizin, Gürcüstanın, Türkmənistanın və Özbəkistanın Dövlət və Hökumət rəhbərlərinin iştirakı ilə Türkmənistanın Saraken bölgəsində səyahət mallarının tənzimlənməsi barədə bir müqavilə imzalandı. Ümummilli öndər Heydər Əliyev və Gürcüstan Prezidenti Eduard Şevardnadze 1997-ci il sentyabrda görüşəndə 1998-ci ildə Şərq-Qərb Dəhlizində ölkənin Qafqaz liderləri səviyyəsində konfrans çağırmağa başladılar. 32 ölkə və on üç beynəlxalq təşkilata üzv olan 7-8 sentyabr 1998-ci il tarixində Bakıda keçirilən iclasda Beynəlxalq Nəqliyyat üzrə Çoxtərəfli Əsas Saziş və Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin daha da inkişaf etdirilməsinə dair Bakı Bəyannaməsi qəbul edilmişdir. [8, s.113]. Bakıda İpək Yolunun bərpasına və onun nəticələrinə dair Azərbaycan Respublikasının ən mühüm xarici siyasət uğurlarından biri kimi beynəlxalq konfrans Azərbaycan ilə Gürcüstan arasında növbəti regional nəqliyyat layihələrinin həyata keçirilməsi istiqamətində mühüm addım olmuşdur.

Vurğuladığımız kimi, sırf ulu öndərin hakimiyyətə gəlməsi ilə Azərbaycan və Gürcüstan arasında əhəmiyyətli tərəfdaşlıq güclənməyə və inkişaf etməyə başladı. Bir-birinin ardınca iqtisadi, enerji, təhlükəsizlik və

ikitərəfli əməkdaşlıqla əlaqədar sazişlər imzalandı. Sözügedən proses Cənubi Qafqazın geosiyasi taleyində vacib rol oynayan bir sıra beynəlxalq enerji və nəqliyyat-kommunikasiya sektorlarına əsasən sazişlərin bağlanlanması ilə daha çox nəzərə çarpır.

Heydər Əliyev bölgənin təhlükəsizlik sisteminin yaranmasına da ciddi yanaşırdı. 2002-ci ilin aprel ayında Gürcüstan, Azərbaycan və Türkiyə "Trabzon razılaşması"nı qəbul etdilər. Nəticədə 3 dost ölkə strateji tərəfdaşlığı rəsmiləşdirdi. Hər üç ölkə terrorizm və separatizmə qarşı birlikdə mübarizə aparmaqla əlaqədar razılaşdılar. Sözügedən qiymətli sənəd regionun təhlükəsizlik sisteminin təşəkkül tapması yolunda ciddi addım kimi dəyərləndirilməlidir. GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlarda münasibətlər ciddiləşirdi. İki ölkə arasında yüzdən çox hüquqi-normativ qiymətli sənəd imzalanıb. İndi Azərbaycanla Gürcüstanın strateji tərəfdaşlığı daha da geniş şəkildə tərəqqi edir. Nəticədə, ölkəmizin Gürcüstan ilə əlaqədar siyasəti qarşılıqlı əməkdaşlığa, bölgədə dəyişməzliyin bərpasına, regional inteqrasiyanın tərəqqisinə və təhlükəsizlik sisteminin təşəkkülünə əsaslanır.

Ermənistanla bağlı isə fərqli mənzərə ilə qarşılaşırıq. Ermənistanın təcavüzkar siyasət aparması Cənub Qafqazda paradoksal bir hal yaratmışdır. Regionun intensiv tərəqqi etmək imkanı genişdir. Yer üzünün böyük dövlətləri sırf buna görə bölgə ilə daha yaxından maraqlanırlar. Normal halda bölgənin imkanlarından ilk öncə burada yaşayan xalqlar istifadə etməlidirlər. Ancaq Ermənistan qonşu ölkənin ərazilərini ələ keçirməklə özünü bölgənin təbii zənginliklərindən istifadə etməkdən kənar qoymuşdur. Nəticədə Ermənistan dövləti Cənubi Qafqazın tərəqqi etməsinə əngəl olur, eyni zamanda öz xalqının səfil vəziyyətdə yaşamasına şərait yaradır. Buna görə də Ermənistanı hər il, demək olar ki, on minlərlə insan tərk edir. Hətta Ermənistanda yaşayan ermənilərin sayı kənarda yaşayanların sayından üç dəfə azdır.

Aydındır ki, Ermənistan dövlətinin apardığı təcavüzkar siyasət hesabına Azərbaycan azadlığını bərpa etdiyi ilk dövrlərdən etibarən bu günə kimi davam edən münaqişəyə və elan olunmamış müharibəyə cəlb edilmişdir. Hələ 1987-ci ilin sonlarından başlayaraq Yerevanda Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Ermənistana birləşdirilməsi ilə bağlı kütləvi toplantılar keçirilirdi. Erməni akademik və son Sovet İttifaqı lideri Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Abel Aganbekyan Fransız qəzetinə (Humanite) 1987-ci ildə verdiyi müsahibəsində Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini iqtisadi cəhətdən əsaslandırmağa çalışdı. M.Qorbaçovun ermənipərəst mövqeyindən istifadə edən ermənilər 1988-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə birləşdirilməsi tələbini irəli sürdülər. Belə ki, həmin il fevralın 20-də Ermənistan SSR-nin Ali Soveti DQMV-nin Azərbaycan SSR-nin tabeliyindən çıxıb Ermənistan SSR-nin tərkibinə daxil edilməsi haqqında qərar qəbul etdi. 1988-ci ilin dekabrına qədər Ermənistanın

azərbaycanlılar yaşayan yaşayış məntəqələrindən 250 min soydaşımız zorla deportasiya edildi, yüzlərlə azərbaycanlı qətlə yetirildi [12, s.78].

Bu nöqteyi nəzərdən, 1993-cü ilin iyun ayında xalqın təkidli istəkləri ilə hakimiyyətə yenidən gəlmiş olan Heydər Əliyev ilk öncə həmin dövrdə sürdürülən hərbi əməliyyatlara son qoymağa və atəşkəs sazişinin imzalanmasına cəhd etmiş və uğurlu nəticə əldə etmişdir. Ulu öndərin verdiyi qərarlar, zəngin sivil təcrübələri və müdrik siyasəti sayəsində respublikada tədricən ictimai və siyasi sabitlik quruldu və ordu yaratmaq üçün ciddi tədbirlər görüldü. Nəticədə, Ermənistan Azərbaycan Respublikası ilə 12 may 1994-cü ildə başlayan atəşkəs müqaviləsini imzaladı [7, s.191].

Atəşkəsin imzalanması praqmatik nöqteyi-nəzərdən Azərbaycanın bir çox strateji yönlərdə fəaliyyətinin şaxələndirilməsinə – müasir neft strategiyasının yaradılması üçün Azərbaycan dövlətinə daha çox xarici investisiyaların yatırılmasına, millətin həyat səviyyəsinin artırılmasına, Milli Ordunun gücləndirilməsinə, beynəlxalq mövqelərin gücləndirilməsinə şərait yaratdı. Bundan başqa 1993-cü ilin iyunundan başlayaraq Azərbaycan öz neft strategiyasını ölkənin milli suverenliyinin təmin edilməsi üçün uğurla həyata keçirməyə başlamışdı. Bu strategiyanı isə Heydər Əliyev tərtib etmişdi. Dünyanın tərəqqi etmiş ölkələrinin Azərbaycanın karbohidrogen sərvətlərinə marağını doğru dəyərləndirən Heydər Əliyev dövlətin milli marağına xidmət edən çoxkombinasiyalı siyasi-diplomatik xətt tərtib etmişdi. Bu xətt üçün "açıq qapı" və balanslaşmış siyasət prinsipləri xüsusi əhəmiyyət kəsb edirdi. Azərbaycan idarəçiliyi bilirdi ki, "neftin nəqlinin yaxşı tərəfləri olduğu kimi, pis tərəfləri də vardır". 1994-cü il sentyabrın 20-də təsdiqlənmiş "Əsrin müqaviləsi" Heydər Əliyev təşəbbüsü ilə tərtib edilmiş neft strategiyasının təməlinin qoyulmasına, BTC və BTƏ neft və qaz kəmərlərinin inşa etdirilməsinə və Azərbaycanın energetika sektorundakı mövqelərinin ciddi formada gücləndirilməsinə səbəb oldu.

Heydər Əliyev təkrarən ölkə rəhbəri olduqdan sonra Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi və həll olunması yolunda fəaliyyət onun xarici siyasət kursunun özəyini əhatə etmişdir. Ən ali səviyyələrdə prezidentləri və nümayəndələri ilə keçirdiyi ikili və çoxtərəfli görüşlərdə, həmçinin Ermənistan Prezidenti ilə bilavasitə danışıqlarda ulu öndərimiz bu problemi əsas götürərək onun nizamlanması və həll edilməsi istiqamətində məqsədyönlü və qətiyyətli addımlar atmışdır. Ancaq dünya siyasətində ikili standartların olması və böyük dövlətlərin bu münaqişənin ciddi şəkildə həllində maraqlı olmaması hesabına torpaqlarımız 30 ilə yaxın müddətdə işğal altında qalmış, ən nəhayət 2020-ci ilin Ermənistanın növbəti təxribatlarına cavab olaraq Ali baş komandan İlham Əliyevin başçılığı ilə həyata keçirilən, 2020-ci ilin 27 sentyabrında başlayan və 44 gün davam edən II

Qarabağ müharibəsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa edə bilmişdir.

Ulu öndər Heydər Əliyevin tətbiq etdiyi balanslaşdırılmış siyasət günümüzdə Azərbaycanın regional liderliyinin əsasında dayanan ən vacib amillərdəndir. Heydər Əliyevin strateji düşüncə tərzi və siyasi peşəkarlığı ölkəmiz üçün vacib olan vəzifənin öhdəsindən gəlmiş, ötən dövr ərzində Azərbaycan region, eyni zamanda qeyri-region ölkələri ilə əlaqələrini konstruktiv müstəvidə qurmuş və inkişaf etdirmişdir. Ulu öndərin təməlini qoyduğu və onun varisi İlham Əliyevin keyfiyyətcə zənginləşdirərək davam etdirdiyi daxili və xarici siyasət kursu hesabına ölkəmiz regionda və bütövlükdə dünyada böyük nüfuza malik və intensiv şəkildə tərəqqi edən ölkələrdən birinə çevrilmişdir.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) / məqalələr toplusu /tərt. ed. F.Məmmədov. -Bakı: “Poliart” MMC, -2017. -904 s.

2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri (2-4 iyul 1997-ci il): [Elektron resurs]. URL: http://lib.aliyev-heritage.org/az/20634858.html

3. Free Trade Agreement between Georgia and Azerbaijan: [Electronic resource]. – Mart 8, 1996. URL: http://www.wipo.int/edocs/trtdocs/en/az-ge/trt_az_ge.pdf

4. Əliyev H.Ə “Müstəqilliyimiz əbədidir”, XXIII cild, Bakı, 2008, 217 səh

5. Əliyev İ.H “İqtibaslar və təhlil”, Bakı, "Azərbaycan" nəşriyyatı, 2006, 328 səh

6. Hüseynova, İ.M. Tarix, zaman, düşüncələr: [5 clddə] / İ.M.Hüseynova. -Bakı: Elm və təhsil, -c.1. -2016. -512 s.

7. Qarabağ Azərbaycandır! Zəfər epopeyası. Kollektiv monoqrafiya. -Bakı: Azəri poliqrafiya, -2021. -600 s.

8. Qasımlı, M.C. Azərbaycan Respublikasının diplomatiya tarixi. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003). I hissə / M.C.Qasımlı. -Bakı: Mütərcim, -2015. -648 s.

9. Məmmədzadə, Ü.K. İlham Əliyev və “Əsrin müqaviləsi”nin yeni zirvələrə doğru açdığı yol // -Bakı: Tarix və onun problemləri, -2017. № 3, -s. 227-231.

10. Ramiz Mehdiyev “Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi”, Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, 2001, 276 səh

11. Гордиенко, А. Баку–Тбилиси–Эрзерум выводит Грузию из под пресса России: [Электронный ресурс]. – 2001. URL: http://archives.echo.az/?p=4140

12. Мамедова, Л., Гусейнов Г. Армяно-азербайджанский конфликт. Проблемы войны и мира // -Нур-Султан: Центральная Азия и Кавказ, - 2003. №5, -с. 77-84.

# HEYDƏR ƏLİYEV İRSİ VƏ MÜASİR AZƏRBAYCAN GƏNCLİYİ

**Sultanəli Qurbanov**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Sultanani.qurbanov@adpu.edu.az**
**Eldar Muxtarlı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**muxtarli1973@mail.ru**
**Telman Tağıyev**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Taqiyevtelman 59@gmail.com**

***Açar sözlər:*** *Heydər Əliyev, İlham Əliyev, idman, gənclər, idman kompleksləri*

*H.Əliyev ölkə rəhbəri kimi fəaliyyətə qayıtdığı ilk dövürlərdən gənclərin himayədarı olaraq yeni nəsilin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edirdi. Ümimmilli Lider gənclərin idmanla məşğul olmasını da vacib məsələlərdən biri hesab edirdi. Naxçıvan, Gəncə, Şəki, Quba, Şamaxı, Lənkaran, Masallı, Qazax, Bərdə və o cümlədən Bakı və Apşeron qəsəbələrində Olimpiya İdman Kompleksləri tikilib istifadəyə verilmişdir. Hətta Azərbaycanın cəbhə xəttlərinin bir neçə kilometirliyində idman sarayları tikilib idmançıların istifadəsinə verilmişdir. Heydər Əliyevin davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət başçısı olduğu dövürdən etibarən ölkədə idmanın inkişafı yeni mərhələyə qədəm qoydu. Azərbaycan bütün sahələrində olduğu kimi, idman və Olimpiya hərəkatı sahəsində də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iradəsi və diqqəti respublikamıza yeni naliyətlər, nəticələr və uğurlar gətirir.*

# НАСЛЕДИЕ ГЕЙДАРА АЛИЕВА И СОВРЕМЕННАЯ АЗЕРБАЙДЖАНСКАЯ МОЛОДЕЖЬ

**Султанали Гурбанов**
**Эльдар Мухтарлы**
**Тельман Тагиев**

***Ключевые слова:****Гейдар Алиев, Ильхам Алиев, спорт, молодежь, спортивные комплексы*

*Г.Алиев с первых дней своего возвращения к работе во главе страны, в считал воспитание подрастающего поколения важной задачей*

*государства и общества. Одним из важных вопросов Общенациональный Лидер назвал привлечение молодежи к занятиям спортом.Были построены олимпийские спортивные комплексы в Нахчыване, Гяндже, Шеки, Губе, Шамахе, Лянкяране, Масаллы, Газахе, Барде, а также поселках Баку и Апшерон. В нескольких километрах от линии фронта в Азербайджане построены и сданы в пользование спортсменам дворцы спорта.Развитие спорта в стране продолжальс тех пор, как Президент Азербайджанской Республики Ильхам Алиев стал главой государства. Как и во всех сферах Азербайджана, в области спорта и олимпийского движения воля и внимание Президента Азербайджанской Республики господина Ильхама Алиева приносят нашей республике новые достижения, результаты и успехи.*

## HEYDAR ALIYEV'S HERITAGE AND MODERN AZERBAIJAN YOUTH

***Sultanali Gurbanov***
***Eldar Mukhtarli***
***Telman Tagiyev***

***Key words:****Heydar Aliyev, Ilham Aliyev, sports, youth, sports complexes*

*From the first days of his return to work at the head of the country, H. Aliyev considered the upbringing of the younger generation an important task of the state and society. One of the important issues, the National Leader called the involvement of young people in sports.Olympic sports complexes were built in Nakhchivan, Ganja, Sheki, Guba, Shamakhi, Lankaran, Masalli, Gazakh, Barda, as well as the settlements of Baku and Absheron. Sports palaces have been built and handed over to athletes a few kilometers from the front line in Azerbaijan.The development of sports in the country has continued since the President of the Republic of Azerbaijan Ilham Aliyev became the head of state.As in all areas of Azerbaijan, in the field of sports and the Olympic movement, the will and attention of the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, bring new achievements, results and successes to our republic.*

"Azərbaycanın dövlət müstəqilliyi haqqında" 18.10.1991 ci il tarixli Konstitusiya Aktının qəbul edilməsi ilə Azərbaycan tarixində yeni müstəqil inkişaf dövrü başlandı. Bu Azərbaycan xalqının 71-il intizarla gözlədiyi tarixi bir hadisə idi. Azərbaycan qısa müddətdə dünya birliyi və BMT tərəfindən tanınaraq beynəlxalq hüququn subyekitinə çevrildi.

Heydər Əliyev ölkə rəhbəri kimi fəaliyyətə qayıtdığı ilk dövürlərdən gənclərin himayədarı olaraq yeni nəsilin yetişdirilməsini dövlət və cəmiyyətin

mühüm vəzifəsi hesab edirdi. Ümimmilli Lider gənclərin ictimai həyatında aktivləşməsi və idarəçiliyə cəlb olunması ilə yanaşı gənclərin idmanla məşğul olmasını da vacib məsələlərdən biri hesab edirdi. Diqqətli bir məqamı nəzərə alsaq, aydın olur ki, yalnız iki halda Azərbaycanın Dövlət Himni səslənə və bayrağı qaldırıla bilər.

1. Azərbaycan dövlət başçısının hər hansı xarici ölkəyə səfəri zamanı;

2. İdmançılarımızın beynəlxalq, Avropa, Dünya və Olimpiya yarışlarında qələbə qazanması nəticəsində.

H.Əliyev 1994-cü ildə Azərbaycanın Milli Olimpiya Komitəsinin fəaliyyəti ilə tanış olmaq üçün Bakıya gələn Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Xuan Antonio Samaranç və Avropa Olimpiya Komitəsinin pezidentini qəbul etmişdir. Qəbul zamanı Azərbaycan Olimpiya hərəkatının vəziyyəti, inkişafı və perespektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin fərmanı ilə Azərbaycanda Gənclər və İdman Nazirliyi yaradıldı. Ümummilli Lider Azərbaycanın hər yerində idmanla məşğul olmaq üçün müasir tələblərə cavab verən idman saraylarının və stadionlarının tikilib gənclərərin istifadəsinə verilməsi infrostrukturunun formalaşdırılmasını müəyyənləşdirmişdir. İdmançıların fəaliyyətini və uğurlarını həvəsləndirmək məqsədilə 05.03.1995-ci il tarixində Prezidentin Fərmanı ilə Azərbaycan Prezidenti yanında İdman Fondu yaradıldı.

1996-ci ildə ilk dəfə Azərbaycan müstəqil dövlət kimi Atlantada keçirilənXXVI Yay Olimpiya oyunlarına 23 - idmançı ilə qatıldı. Gənclərin idmana cəlb olunması üçün Bakıda və Azərbaycanın rayonlarında Olimpiya İdman kompleksləri tikilərək istifadəyə verildi.

1999-cu ildə yeniyetmələr arasında boks üzrə Avropa çempionatı ilk dəfə olaraq Azərbaycanda keçirildi. 2001-ci ildə boks üzrə Dünya çempionatıda Azərbaycanda təşkil olundu.

1997-ci ildə Azərbaycanda "Bədən tərbiyəsi və idman haqqında" qanun qəbul edildi. Bu qanun Azərbaycanda qeyri Olimpiya idman növlərinin inkişafı məqsədilə təsdiq edildi. [1.səh 4-10-15]

1998-ci ildə Azərbaycan Yaponiyanın Naqano şəhərində keçirilən XVIII Qış Olimpiya oyunlarına 5-idmançı ilə qatıldı. Bununla belə Azərbaycan həmçinin 2002-ci ildə ABŞ, 2006-ci ildə İtaliya və 2010-cu ildə isə Kanadada keçirilən Qış Olimpiya oyunlarında iştirak etmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 2005-ci il 4-mart tarixli sərəncamı ilə "Bədən tərbiyəsi və idman günü" təsis edilmişdir. Ümummilli Lider Heydər Əliyevin göstərişi sayəsində Tofiq Bəhrəmov adına Respublika stadionuna dövlət büdcəsindən vəsait ayrılmış, təmir və bərpa edilərək beynəlxalq standartlara uyğunlaşmışdır. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə dünya standartlarına cavab verən Mingəçevir avarçəkmə bazası

təmir edilərək yenidən idmançıların ixtiyarına verilmişdir. Ulu öndər Heydər Əliyevin idman sahəsində həyata keçirdiyi siyasət mühüm mərhələyə qədəm qoydu. Uğurlara imza atan İlham Əliyevin Milli Olimpiya komitəsinin prezidenti seçilməsi Azərbaycan İdmanının həyatında mühüm və əlamətdar hadisə kimi tarixə yazıldı. Ümummilli Lider Heydər Əliyevin respublikada idmanın inkişafı ilə bağlı ideyalarının daha sürətlə gerçəkləşməsini təmin etmiş və idman sahəsində böyük imkanlar yaratmışdır.

Artıq 1998-ci ilin yayında İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda ilk dəfə Yeniyetmələrin Respublika Oyunları keçirildi. Ölkənin bütün reqionlarından minlərlə yeniyetmə idman yarışlarına cəlb olundu. İdman həyat və dünya haqqında ilkin təsəvvürləri formalaşdıran ən gözəl vasitədir. İdmanda müasir Azərbaycan xalqı üçün vacib olan keyfiyyətin, dəyərlərin, imkanların bərabərliyi, uğurların qazanılması, birincilik uğrunda mübarizədə qalib olmaq bacarığını formalaşdırmaq kimi qabiliyyətlər özünü biruzə verir[2.səh 114-117].

Gənc idmançıların idman zallarında, stadionlarda, meydançalarda aldıqları təlimlər, məşqlər, vərdişlər həyatda həmişə yardımçı olur. Idman insanda gücünə arxalanma, komanda yoldaşına yardım və ən başlıcası vətənpərvərlik kimi qabiliyyətləri formalaşdırır. İdman gənclərdə bacarığı, çevikliyi, işgüzarlığə və iradəliyi öyrədir. Milli Olimpiya Komitəsi tərəfindən Respublika, Beynəlxalq, Avropa və Dünya yarışlarında qələbə qazanan yeniyetmə və gənc idmançılarmızın layiqincə mükafatlandırılması yeniyetmə, gənclərə göstərilən qayğının aşkar, aydın nümunəsidir. Beynəlxalq Olimpiya Komitəsinin Prezidenti Jak Roq Azərbaycan Milli Olimpiya Komitəsinin fəaliyyətini dəfələrlə yüksək qiymətləndirib.

Yeniyetmələr arasında idmanın inkişafı və təbliği istiqamətində Milli Olimpiya Komitəsinin irəli atdığı addım Yeniyetmələrin Respublika Oyunlarının təşkili və keçirilməsində çoxplanlı işlər gördü. Azərbaycanın yeniyetmə idmançılarının müxtəlif beynəlxalq yarışlara göndərilməsi, Beynəlxalq Olimpiya Komitəsinin, AvropaOlimpiya Komitəsinin himayəsi altında keçiirilən böyük idman tədbirlərində iştirakı təmin olundu. Eyni zamanda, Azərbaycanda yeniyetmələr arasında qitə və dünya miqyaslı yarışların təşkili və keçiriklməsi sahəsində işlər həyata keçirildi. Azərbaycanda dəfələrlə Yeniyetmələrin Respublika Oyunları keçirilmişdir.

2000-ci ildən keçirilən Sidney Olimpiyadasında Azərbaycan 2-qızıl, 1-bürünc medal qazanmaqla yarışda uğur qazanmışdır.Heydər Əliyevin davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət başçısı olduğu dövürdən etibarən ölkədə idmanın inkişafı yeni mərhələyə qədəm qoydu [3.səh 161-163].

2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Gəncliyi Dövlət Proqramı" adlı sənədi imzalanıb. Proqramda gənclərin hüquq pozuntuları, alkaqol, narkomaniya kimi zərərli vərdişlərin

qarşısı alınması, gənclərin sağlamlığının qorunması sahəsində tədbirlərin həyata keçirilməsi, kütləvi bədən tərbiyəsi və idman tədbirlərinin inkişaf etdirilməsi, ictimai-siyasi həyatda uşaqların, gənclərin fəal iştirakı üzrə təşkilatların formalaşması və inkişafı üçün şəraitin yaradılması kimi vəzifələr daxil edilib. Dövlət başçısının fərmanı ilə 2006-cı ildə yenidən Gənclər və İdman Nazirliyi yaradılaraq gənclər və idman işlərini aparan icra orqanları qarşısında yeni vəzifələr tədbiq etdi. Bununla belə Azərbaycanda 2-Fevral Gənclər günü ilə bağlı hər il tədbirlərin təşkil olunması, təhsil, idman və s. sahələrdə naliyyətlər əldə etmiş gənclərin mükafatlarla təltif edilməsi, gənclər tərəfindən işlənib hazırlanan lahiyələrin maliyyələşdirilməsi, bacarıqlı və istedadlı gənclərin beynəlxalq müsabiqələrdə, tələbə-elmikonfranslar və seminarlarda iştirakının təmin edilməsi, müxtəlif idman, elim sahəsində olimpiyadalar və yarışların keçirilməsi, nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2007-ci il "Gənclər ili" elan edildi. Dövlət başçısı Azərbaycan gəncliyinin sağlam ruhda inkişaf etməsinə, savadına, bilik və bacarığına böyük inamla yanaşdığını daim ifadə edib.Xüsusilə qeyd etmək lazımdır ki, Naxçıvan, Gəncə, Şəki, Quba, Şamaxı, Lənkaran, Masallı, Qazax, Bərdə və o cümlədən Bakı və Apşeron qəsəbələrində Olimpiya İdman Kompleksləri tikilib istifadəyə verilmişdir. Hətta Azərbaycanın cəbhə xəttlərinin bir neçə kilometirliyində idman sarayları tikilib idmançıların istifadəsinə verilmişdir[4.səh 134-137].

Azərbaycanın qısa müddətdə əldə etdiyi naliyyətlər Beynəlxalq Olimpiya Komitəsinin və Avropa Olimpiya Komitəsinin rəhbərliklərinin daimi diqqətində olmuşdur. Beynəlxalq idman təşkilatlarının istəyi ilə Azərbaycanda dəfələrlə Olimpiya lisenziyalı beynəlxalq, Dünya və Avropa çempionatları keçirilmişdir. Bununla belə Azərbaycanın güçlü bir idman ölkəsi olduğu bir daha təsdiqini tapdı.Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda keçirilən Avropa, Dünya çempionatları silsilə xarakteri daşıyır. Hər il müxtəlif idman yarışları, gimnastika, bədii gimnastika, taekvando, güləş, boks, cüdo, karate və s. Olimpiya növlərinin, Dünya və Avropa çempionatlarının məhz Azərbaycanda keçirilməsi bir daha ölkəmizin inkişaf etmiş bir dövlət olmasını sübut edir. Hər sahədə olduğu kimi, idman sahəsində Azərbaycan Respublikası böyük bir rəmz simvolu qazanmışdır.

İdman eyni zamanda, həqiqətən, hər xalqın, millətin başqa xalqlar içərisində şöhrətini yüksəldən sahələrdən biridir. Azərbaycan müstəqil dövlətdir. Azərbaycanı müstəqil dövlət kimi bütün dünyada tanıyırlar və hər yerdə bilirlər ki, Azərbaycan nəyə qadirdir və nədən ibarətdir. Bunu biz çox vasitələrlə edirik. Bu vasitələrdən biri bizim mədəniyyətimizdir. Məsələn, bizim musiqimiz, ədəbiyyatımız, teatrımız, mahnılarımız və idman sahəsində qazanılan naliyyətlərimiz dünyaya bizi tanıdmışdır.

Bu gün Azərbaycanda idman sahəsi müəyyən bir üstünlük təşkil edir. Azərbaycan Respublikası güclü bir idman ölkəsi kimi tanınır. Azərbaycanın idman istiqamətində araşdırmalarından məlum olur ki, idman və mədəniyyət, idman və cəmiyyət, idman və gənclik, idman və inkişafməsələləri qarşılıqlı vəhdətdədir. Bu da Azərbaycan respublikasının, dövlətinin idman sahəsində görülən işlərinin əsas qollarından birini təşkil edir. Azərbaycan Respublikasında son illərdə qazanılan idman və Olimpiya hərəkatı istiqamətindəki uğurları, digər dövlətlərə nümunə olaraq təcrübədə sübut edir[5.səh -2].

Bu gün ölkəmizdə idman çox böyük sürətlə inkişaf etməkdədir. Ümumiyyətlə, Azərbaycan idmanına göstərilən diqqət və qayğı, Respublikanın demək olar ki, bütün idman qurğularının tikilməsi, idmanın geniş vüsətlə inkişafı Azərbaycanın dahi lideri Heydər Əliyev və onun davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin adı ilə bağlıdır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev kimi böyük şəxsiyyətlərin fəaliyyətinin araşdırılması illər, bəlkə də onilliklər tələb edir, amma əlbəttə ki, hamını eyni dərəcədə xəbərdar olduğu çox adi bir həqiqət də var. Liderimiz Heydər Əliyev Azərbaycan xalqı üçün tarixin bəxş etdiyi misilsiz bir şəxsiyyət idi və hamı onun nə dərəcədə qiymətli olduğunu çox gözəl bilirdi.

Respublikamızda bədən tərbiyəsi və idmanın inkişafı habelə, bütün idman növləri üzrə müstəqilliyimiz dövründə qazanılmış qızıl, gümüş və bürünc medalların sayının ilbəil artması xalqımızın Ümummilli Lideri Heydər Əliyevin davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının bədən tərbiyəsi və idmana göstərdiyi diqqət və qayğının nəticəsidir.

Ölkəmizdə idmanın inkişafı Azərbaycan xalqını daha böyük qələbələrə ruhlandırır. Azərbaycan gəncliyinə, idmançılara qayğı və diqqətin artırılması sahəsində görülən işlər dövlət səviyyəsində davam etdirilir.

Azərbaycanın müstəqillik dövründən başlayaraq idman sahələrində qazandığı naliyyətlər xalqımızın əsirlər boyu azadlıq və müstəqillik uğrunda apardığı mübarizənin nəticələridir. Azərbaycandabir çox idman növləri üzrə beynəlxalq turnirlər, Avropa, Dünya və Olimpiya çempionatları keçirilmiş və idmançılarımız yüksək inkişafa nail olmuşdur. Bu gün Azərbaycan İdmanındakı vəziyyət onu göstərir ki, doğurdan da ölkəmizdə güclü idman potensialı var. Hal hazırda Azərbaycan Respublikasının əsas hissəsini gənclər təşkil edən bir ölkədə idman kütləvi hadisə olaraq gələcəyimizin sağlamlığınıtəmin edir.

Azərbaycan Respublikasının Prezidentinin qeyd etdiyi kimi, bu gün Azərbaycan idmanının uğurları ilə fəxr etməyə dəyər. Respublikamızda idmanın müxtəlif növləri üzrə qazanılmış medalların əsas səbəbi, İdman Sağlamlıq Komplekslərinin tikilib istifadəyə verilməsi, maddi-texniki bazaların möhkəmləndirilməsi, kütləvi bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi, dövlətmizin bədən tərbiyəsi və idmana göstərdiyi diqqət və qayğısı nəticəsindədir. Azərbaycan Respublikasının Prezidentinin bədən tərbiyəsi və

idmana qayğısı sayəsində bu gün Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilib[6.səh 6-8].

Azərbaycan Respublikasının bütün sahələrində olduğu kimi, idman və Olimpiya hərəkatı sahəsində də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iradəsi və diqqəti respublikamıza yeni naliyətlər, nəticələr və uğurlar gətirir.

## Ədəbiyyat

1. Azərbaycan Gənclərinin II forumu Bakı-2000 ci il
2. İbrahimov N. "Müstəqil Azərbaycan Gələcəyi Gənclərindir" «Azərbaycan» nəşriyyatı.Bakı 1996 cı il.
3. Quliyev D. «Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişaf tarixi»
4. Rəhimov C, Fərzəliyev M, Rəhimov N, «Azərbaycan Respublikasının Milli Olimpiya Komitəsi 15 il» Bakı – 2007 ci il.
5. «Olimpiya » jurnalı 2012 ci il.
6. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin jurnalı № 01. Bakı – 2009 il.

# "TÜRKSOY"UN YARANMASI ZƏRURƏTİ VƏ TƏŞKİLATIN AZƏRBAYCANLA ƏMƏKDAŞLIQ TARİXİ.

**Faiq Nadirsoy**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

***Açar sözlər:*** *TÜRKSOY, Azərbaycan, Heydər Əliyev, Türk dünyası, mədəni əlaqələr*

*90-cı illərin əvvəllərində Sovetlər Birliyinin dağılmasından etibarən Türkdilli dövlətlərin öz müstəqilliklərini qazanmaları ilə paralel bir şəkildə, milli özünüdərk, etnik kimlik, soykökü kimi həssas məsələlərə yanaşmada yeni bir nəfəs, yeni bir ruh hiss olunmağa başlamışdı. Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan kimi yenicə müstəqillik əldə edən dövlətlərin bir-birləri ilə təkcə siyasi və iqtisadi deyil, həm də mədəni yaxınlaşmaları üçün zərurət yaranmışdı. Bu zərurət Türkiyə Cumhuriyyəti kimi oturuşmuş dövlət təsisatına malik, 70 ilə yaxın müstəqil olan bir dövlət üçün də eyni zamanda yaranmış və Anadoludan Qafqazlara və Orta Asiyaya uzanan, dil, din, mədəniyyət ortaqlığı olan böyük bir coğrafiyanın vahid təsisatlarda təşəkkülü üçün tarixi şərait yetişmişdi.*

*Məqalədə TÜRKSOY kimi tanınan beynəlxalq təşkilatın yaranması üçün təşəbbüslərdən, yaranmış tarixi şəraitin qiymətləndirilməsindən, eləcə dətəşkilatın təşəkkülündən, onun fəaliyyət istiqamətlərindən bəhs edilir. Həmçinin, təşkilatın strukturu, rəhbərliyi, həyata keçirdiyi fəaliyyət çərçivəsində ərsəyə gələn ən vacib tədbirlər, onların mahiyyətindən danışılır.*

*TÜRKSOY kimi təşkilatın yaranmasında, fəaliyyətində, hətta onunla işbirliyi prizmasından baxılarkən belə, Azərbaycanın bu qurumdakı yeri, statusu, xüsusi çəkisi, eləcə də ölkəmizin bu təşkilat üçün tarixi əhəmiyyəti barədə ayrıca bəhs etmək lazım gəlir. Bu baxımdan qeyd olunan istiqamətlərdə Azərbaycanın TÜRKSOY-la ortaq təşkilatçılığı ilə baş tutmuş ən vacib tarixi hadisələri vurğulamaq və onları tarixi aspektdən qiymətləndirmək zərurəti meydana çıxır. Xüsusilə, təşkilatın Bakı şəhərindəki keçirilən VIII toplantısında (6 noyabr 1996) Ulu Öndər Heydər Əliyevin nitqi, onun TÜRKSOY barədə, təşkilatın gördüyü işlərin əhəmiyyətini qiymətləndirən fikirləri bu baxımdan böyük tarixi əhəmiyyətə malik mənbədir.*

# NECESSİTY OF THE ESTABLISHMENT OF "TURKSOY"AND THE HISTORY OF THE ORGANIZATION'S COOPERATION WITH AZERBAIJAN.

**Faig Nadirsoy**

**Keywords:** *TURKSOY, Azerbaijan, Heydar Aliyev, Turkic world, cultural relations*

Since the collapse of the Soviet Union in the early 1990s, a new breath and a new spirit have begun to be felt in the approach to sensitive issues such as national self-consciousness, ethnic identity and lineage in parallel with the independence of the Turkic language speaking countries. Newly independent states such as Azerbaijan, Kazakhstan, Kyrgyzstan, Turkmenistan and Uzbekistan needed to get closer to each other not only politically and economically but also culturally. This necessity arose at the same time as the historical circumstances of the formation of a state with an established state institution such as the Republic of Turkey, which has been independent for nearly 70 years, and a vast geography with a common language, religion and culture in Turkey. Unified institutions had matured, stretching from Anatolia to the Caucasus and Central Asia.

The article discusses the initiatives for the establishment of the international organization known as TURKSOY, the assessment of historical conditions, the formation of the organization and its operational aspects. It also discusses the structure of the organization, its management, the most important measures taken within its activities and their essence.

From the perspective of cooperation with TURKSOY, the place, status and special importance of Azerbaijan in this organization and the historical significance of our country for this organization should be mentioned separately. In this context, the most important historical events that took place in Azerbaijan's joint organization with TURKSOY should be highlighted and evaluated from a historical perspective. In particular, the speech of the Great Leader Heydar Aliyev at the 8th meeting of the organization held in Baku (November 6, 1996), his views on TURKSOY and his assessment of the importance of the organization's work is a great historical source in this regard.

# НЕОБХОДИМОСТЬ СОЗДАНИЯ "ТУРКСОЙ"И ИСТОРИЯ СОТРУДНИЧЕСТВА ОРГАНИЗАЦИИ С АЗЕРБАЙДЖАНОМ.

**Фаик Надирсой**

***Ключевые слова:*** *ТЮРКСОЙ, Азербайджан, Гейдар Алиев, тюркский мир, культурные связи*

После распада Советского Союза в начале 1990-х годов в подходе к таким чувствительным вопросам, как национальное самосознание, этническая идентичность и родословная, параллельно с обретением независимости странами, говорящими на тюркских языках, стали ощущаться новое дыхание и новый дух. Новые независимые государства, такие как Азербайджан, Казахстан, Кыргызстан, Туркменистан и Узбекистан, нуждались в сближении друг с другом не только в политическом и экономическом, но и в культурном плане. Эта необходимость возникла одновременно с историческими обстоятельствами формирования государства с устоявшимся государственным институтом, таким как Турецкая Республика, которая была независимой в течение почти 70 лет, и обширной географией с общим языком, религией и культурой Турции. Уже созрели единые институты, простирающиеся от Анатолии до Кавказа и Центральной Азии.

В статье рассматриваются инициативы по созданию международной организации, известной как ТЮРКСОЙ, оценка исторических условий, формирование организации и ее оперативные аспекты. Также рассматривается структура организации, ее руководство, наиболее важные меры, принятые в рамках ее деятельности, и их суть.

С точки зрения сотрудничества с ТЮРКСОЙ отдельно следует отметить место, статус и особое значение Азербайджана в этой организации, а также историческое значение нашей страны для этой организации. В этом контексте следует выделить и оценить с исторической точки зрения наиболее важные исторические события, имевшие место в совместной организации Азербайджана с ТЮРКСОЙ. В частности, выступление Великого Лидера Гейдара Алиева на 8-м заседании организации, состоявшемся в Баку (6 ноября 1996 года), его мнение о ТЮРКСОЙ и оценка важности работы организации являются в этом плане большим историческим источником.

**Giriş.** XX əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərinin tarixi panoraması dünya siyasi tarixi üçün çox təlatümlü və mütəmadi dəyişikliklərlə zəngin olmuşdur. SSRİ-nin sürətli çöküşü zəminində yeni müstəqil dövlətlərin siyasi səhnədə öz yerlərini alması prosesi mütləq gerçəkliyə çevrilmişdi. Belə

ki, 90-cı illərin əvvəllərinə qədər türk dünyasını dünya siyasi arenasında yeganə təmsil edən dövlət Türkiyə Cumhuriyyəti olmuşdursa, yuxarıda qeyd olunan proseslərin məntiqi sonluğu kimi SSRİ-nin dağılmasının reallaşması nəticəsində yeni 5 türk dövləti (Azərbaycan, Türkmənistan, Qazaxıstan, Özbəkistan və Qırğızıstan) müstəqilliklərini beynəlxalq aləmə bəyan etdi.

Beləliklə, türk dünyasının görkəmli xadimlərindən olan İsmayıl bəy Qaspiralının “dildə, fikirdə, işdə birlik” düşüncəsinin mövcud siyasi və tarixi şəraitə görə XIX əsrin sonu, XX əsrin əvvəllərində gerçəkləşmə şansı olmasa da, 1991-ci ilin dekabrında SSRİ-nin parçalanmasından sonra türk dünyasının birlik və bərabərliyini təmin etmək üçün yeni imkanlar yarandı. Artıq türksoylu millətlərin ortaq platformasını meydana gətirəcək tarixi fürsət əldə edilmişdi. Bu işin liderliyini Türkiyə öz üzərinə götürdü və türk birliyinin meydana gəlməsinə imza atan Turqut Özalın təşəbbüsü ilə ilk dəfə 1992-ci ilin 30-31 oktyabr tarixlərində Ankarada dövlət başçıları səviyyəsində ilk zirvə görüşü keçirildi. Ankara sammiti böyük hədəflərlə başlasa da, ilk dəfə keçirildiyindən daha çox tanışlıq və ortaq problemləri öyrənmək xüsusiyyəti daşıdı. Buna baxmayaraq, bu sammitdə “TÜRKSOY”-un yaradılması, türk dünyasının elm və mədəniyyət sahəsində tanınmış nümayəndələrinin ortaq xatırlanması mövzusunda qərarlar qəbul edildi[3, səh. 132].

Türk Dünyasında yaradılmış ilk əməkdaşlıq təşkilatı olan TÜRKSOY təşkilatı məhz Ankara zirvə görüşündə əldə olunmuş razılaşmaya əsasən, 1992-ci ildə İstanbulda və Bakıda keçirilən, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistan respublikalarının mədəniyyət nazirlərinin görüşlərinin nəticəsində yaradılmışdır. 1993-cü ilin iyulunda Astana şəhərində təşkilatın yaradılması və fəaliyyət prinsipləri barəsində birgə Müqavilə imzalanmışdır. Daha sonra müxtəlif illərdə quruma Altay Respublikası (RF), Başqırdıstan Respublikası (RF), Tatarıstan Respublikası (RF), Xakas Respublikası (RF), Saxa (Yakut) Respublikası (RF), Tuva Respublikası (RF), Qaqauz Yeri Respublikası və Şimali Kipr Türk Respublikası da müşahidəçi statuslu üzvlər kimi qəbul olunmuşlar. Lakin həm daimi, həm də müşahidəçi üzvlər eyni hüquq və səlahiyyətlərə malikdirlər və səsvermədə belə müşahidəçi ölkələr əsas 6 ölkə kimi eyni səsvermə hüququna malikdirlər. TÜRKSOY digər beynəlxalq statuslu təşkilatlar kimi dövlətin müqaviləsi və razılaşdırılmış müqavilə əsasında yaranaraq fəaliyyət göstərir. Təşkilatın öz inzibati binası, bayrağı, katibliyi, üzvlük haqqı, bayram edilən günü vardır [7].




TÜRKSOY qurulduğu gündən bu yana türk xalqlarının könül birliyini, qardaşlığını gücləndirmək, ortaq türk mədəniyyətini gələcək nəsillərə ötürmək və dünyaya tanıtmaq üçün müxtəlif səpkili fəaliyyətlər sərgiləyir. Türk dünyasının və qlobal mədəniyyətin mədəniyyət və incəsənət sferaları arasında daimi və qalıcı ənənənin formalaşmasına töhfə verən TÜRKSOY-un fəaliyyəti quruluşundan bəri üzv dövlətlərin rəhbərlərinin himayəsində davam etdirilmiş, hətta İstanbulda keçirilən Türk Dövlətləri Təşkilatının zirvə toplantısında (2001) dövlət başçıları təşkilatın fəaliyyətini hər zaman təşviq edəcəklərini rəsmi olaraq bir daha bəyan etmişdilər [1, səh. 224]. TÜRKSOY-un fəaliyyət istiqamətləri üzv dövlətlərin mədəniyyət nazirlərindən ibarət daimi şura tərəfindən müəyyənləşdirilir. Daimi Şura toplantılarında əldə olunan razılaşmalar və verilən qərarlar isə TÜRKSOY-un Baş katibliyi tərəfindən icra edilir.

Müxtəlif incəsənət nümayəndələrinin – rəssamların, xalq musiqiçilərinin bir araya gəlməsi, opera günlərinin, ədəbi məclislərin təşkil olunması kimi ənənəi fəaliyyətləri ilə TÜRKSOY türk dünyası elm adamlarının təcrübə mübadiləsi üçün də geniş perspektivlər yaradır. Türk dünyasının ortaq tarixi və mədəni sərvəti olan Novruz bayramı TÜRKSOY-un çalışmalarının nəticəsi olaraq bütün bəşəriyyətə əxz olunmuş vəən gözəl formada dünya xalqlarına təqdim olunmuşdur. TÜRKSOY-un 1994-cü il mart ayının 21-23-də TİKA təşkilatı ilə bərabər təşkil etdiyi Novruz bayramı tədbirləri Türkiyədə böyük maraqla qarşılandı [6, səh.15]. Müxtəlif illərdə YUNESKO-nun Baş Qərargahında, BMT-nin Baş Ofisində həyata keçirilən Novruz mərasimi ilə yanaşı, TÜRKSOY-un təşkilatçılığı ilə Almaniya, Avstriya, Belçika və İngiltərədə də qədim Novruz bayramı böyük coşğu ilə qeyd olunmuşdur.

Türk xalqlarının ortaq keçmişini, dil, ədəbiyyat, mədəniyyət və incəsənətini bütöv bir dəyər olaraq təqdim edən TÜRKSOY həmçinin, elan və təşkil etdiyi anım ildönümləri və tədbirləri, eləcə də ilboyu fərqli dil və ləhcələrdə oxuyucuların ixtiyarına verdiyi əsərlərlə Türk Dünyasının dahi şəxsiyyətlərinin mədəni və tarixi irsini gələcək nəsillərə ötürmə kimi ülvi amal uğrunda çalışmaqdadır.

TÜRKSOY-un türk xalqlarının ortaq mədəni həyatına gətirdiyi yeniliklərdən biri də 2012-ci ildən etibarən Avropa Mədəniyyət Paytaxtı təcrübəsindən nümunə alaraq Türk Dünyasının Mədəniyyət Paytaxtlarının elan olunması ənənəsinin əsasının qoyulması idi. Türk dünyasının önəmli şəhərlərinin mədəni və sənət həyatına rəng qatan layihə çərçivəsində 2012-ci ildə Astana (Qazaxıstan), 2013-cü ildə Eskişehir (Türkiyə), 2014-cü ildə Kazan (Tatarıstan), 2015-ci ildə Mərv (Türkmənistan), 2016-cı ildə Şəki (Azərbaycan), 2017-ci ildə Türküstan (Qazaxıstan), 2018-ci ildə Kastamonu (Türkiyə), 2019-cu ildə Oş (Qırğızıstan), 2020-ci ildə Xivə (Özbəkistan), 2022-ci ildə Bursa (Türkiyə), 2023-cü ildə isə öz azadlığına yenidən qovuşan Şuşa (Azərbaycan) şəhərləri Türk Dünyasının Mədəniyyət Paytaxtları elan olunmuşdur [9].

Təşkilat 2010-cu ildən etibarən UNESCO təcrübəsinə əsaslanaraq daha bir mütərəqqi silsilə addımlara başlanğıc verir ki, bu da türk dünyasının görkəmli ədəbiyyat, mədəniyyət, insəsənət və ictimai xadimlərinin yubileylərinin keçirilməsi və buna müvafiq olaraq həmin şəxsiyyətlərə həsr olunan ilin elan olunması idi. Ənənənin əsası 2010-cu il Başqırdıstan tarixçisi, türkoloqu və başqırd müstəqillik hərəkatının lideri Əhməd Zəkinin 150 illik yubileyi münasibətilə “Əhməd Zəki Validi Toqan ili”nin elan olunmasıyla qoyuldu. Daha sonra müvafiq olaraq 2011”Abdullah Tukay ili” (Tatarıstan, RF), 2012 “Nikolay Katanov ili” (Xakasiya, RF), 2014 “Məxtumqulu Fəraqi ili” (Türkmənistan), 2015 “Haldun Taner” ili (Türkiyə) və “Semen Kadışev ili” (Xakasiya, RF), 2018 “Qara Qarayev ili” (Azərbaycan) və”Mağcan Cumabay ili” (Qazaxıstan), 2019 “Aşıq Veysəl ili” (Türkiyə) və “İmadəddin Nəsimi ili” (Azərbaycan”) elan olunmuş və qeyd olunan görkəmli şəxsiyyətlərin təntənəli yubiley tədbirləri keçirilmiş, yaradıcılıq nümunələri bütün türk dünyası coğrafiyasında təbliğ olunmuşdur [5, səh.139]. Bu, TÜRKSOY-un üzv ölkələrin mədəniyyət və incəsənət sahələrinin ən seçkin və önəmli şəxsiyyətlərinin, onların yaradıcılıq nümunələrinin də təbliği və təşviqi məsələlərində dəstək nümayiş etdirdiyini deməyə əsas verir.

Həmçinin, altı ölkədə tamaşaçı qarşısında nümayiş olunan Üzeyir Hacıbəyovun ölməz “Koroğlu” operası, Türkiyədə ilk dəfə opera repertuarına daxil olunan əfsanəvi qazax musiqiçisi Mukan Tölebayevin “Birjan və Sara” operası, 9 ölkədən 200 sənətçinin iştirakı ilə Türkiyədə, eləcə də ABŞ-ın Nyu-York və Vaşinqton şəhərlərində səhnələşdirilən görkəmli türk musiqiçisi və bəstəkarı Adnan Saygunun “Yunus Emre” oratoriyası belə nümunələrdəndir.

Dünyanın dörd bir yanında verdikləri konsertlərlə izləyiciləri valeh edən TÜRKSOY Gənclik Orkestri, Avropa Xor müsabiqəsində qızıl medal alan TÜRKSOY Gənclik Xoru, Türk dövlətlərinin müstəqilliklərinin 25-ci ildönümləri münasibətilə yaradılan, ABŞ-dan Yaponiyaya qədər uzanan coğrafiyada bir çox uğurlu çıxışa imza atan TÜRKSOY Xalq Alətləri orkestri TÜRKSOY-un klassik və milli musiqinin təbliği sahəsində atdığı addımların bariz nümunələridir. 2022-ci ildə Türk dünyasının Mədəniyyət Paytaxtı olan Bursada təşkil olunan və TÜRKSOY tərəfindən 5 ölkədən 200-ə yaxın sənətçinin iştirakı ilə "Türk Dünyası Şahəsərleri Konsertləri" turnesinin üçüncü etapı möhtəşəm anlarla tamaşaçıların qəlbində rəğbət qazanmışdır [5, səh.25].

TÜRKSOY həmçinin Türk Dövlətləri Təşkilatı, Beynəlxalq Türk Akademiyası, Türk Dövlətləri Parlament Assambleyası, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu kimi təşkilatlar da TÜRKSOY-un əməkdaşlıqda olduğu qardaş təşkilatlardır.

2009-cu ildə oktyabrın 2-3-də Türkdilli Ölkələrin Dövlət Başçıları Zirvəsinin Naxçıvanda baş tutan IX sammitində imzalanan müqavilə şərtlərinə görə isə, Türk Şurası adlanan daimi katiblik qurulur. Müqavilə şərtlərinə görə, Türk Şurasının təşkilati mərkəzi İstanbul, akademik mərkəzi Qazaxıstan, Parlamant mərkəzi (TÜRKPA) Bakı olurdu və "TÜRKSOY" birbaşabu şuraya daxil edilirdi [3, səh.133].

TÜRKSOY həmçinin eyni məqsəd və məramlara xidmət edən və paylaşan UNESCO və ISESCO kimi nüfuzlu beynəlxalq təşkilatlarla, həmçinin bir sıra iri şəhərlərin şəhər bələdiyyələri ilə, birliyə üzv olan və olmayan ayrı-ayrı ölkələrdəki tanınmış universitetlər və qeyri-hökumət təşkilatları ilə də işbirliyi və əməkdaşlığın daim inkişaf etdirilməsi yönündə əməli addımlar atmışdır. Bu sahədə atılan ən uğurlu birgə əməkdaşlıq kimi təşkilatla Azərbaycan Dövlət Pedaqoji Universiteti arasındaimzalanan və mədəniyyət, elmi tədqiqat və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsinə yönələn Əməkdaşlıq Protokoluna əsasən 9 dekabr 2017-ci ildə universitetdə TÜRKSOY kafedrası təsis olunaraq işə başlamasını misal göstərmək olar. Kafedrada 2022-ci ildə Nizami Gəncəvinin 880 illiyi çərçivəsində böyük alim A.E.Krımskinin yüksək elmi səciyyə daşıyan "Nizami və müasirləri" əsərinin ilk dəfə Azərbaycan dilinə tərcümə edilərək nəşr olunmuşdur. Eyni zamanda TÜRKSOY-un 30 illik yubileyi ərəfəsində türk dünyasının böyük aydınlarından Almaz İldırım irsinin təbliği məqsədi ilə onun 115 illiyinə töhfə kimi seçmə şeirləri təşkilatın nəşri kimi çap edilmişdir. Ümumilikdə, kafedranın fəaliyyəti nəticəsində indiyədək universitetdə Abay Kunanbayev, Nizami Gəncəvi, Mustay Kərim kimi görkəmli şəxsiyyətlərin yubileyləri yüksək səviyyədə qeyd olunmuşdur.

TÜRKSOY-Azərbaycan əlaqələri haqqında danışarkən, əlbəttə, təşkilatın 1996-cı ildə Bakıda keçirilən VIII toplantısı və toplantıda Ümummilli lider

H.Əliyevin tarixi əhəmiyyətə malik nitqi barədə də danışmaq vacibdir. TÜRKSOY-un fəaliyyətinin üçüncü ilində paytaxtımızda təşkil olunan tədbirdə çıxış edən H.Əliyev deyirdi: “Vaxtilə biz Tatarıstan və Başqırdıstan ilə sıx əlaqədə olmuşuq, görüşlərimiz keçirilib, mədəniyyət xadimlərimiz yaxından əməkdaşlıq ediblər, bir-birimizin ölkələrində mədəniyyət günləri keçirmişik. Ancaq mədəniyyətlərimizin bugünkü qədər yaxın, bu qədər sıx olduğunu görməmişik. Şəxsən mən dəfələrlə Mərkəzi Asiya ölkələrində olmuşam və o ölkələrin dövlət başçıları, respublikaların rəhbərləri, mədəniyyət nümayəndələri də Bakıda olublar. Ancaq öz kökümüzə mənsub olan dildə bizim bir-birimizə müraciət etməyimiz, belə görüşlərdə öz dilimizdən istifadə etməyimiz və öz mədə-niyyətimizin mənasını öz dilimizlə ifadə etməyimiz indiyədək olmamışdır. Mən bunları görərkən sevinirəm və hesab edirəm ki, bu bizim böyük gələcəyimizin başlanğıcıdır[2, səh.14]”. Burada Ulu Öndərin uzaqgörən siyasətinin görünən elementlərini sezməmək mümkün deyil. SSRİ totalitarizminin buxovlarına ustalıqla işarə vuran Heydər Əliyev Mərkəzi Asiyanın türkdilli dövlətləri ilə, eləcə də Tatarıstan və Başqırdıstanla bir siyasi sistemin içərisində olmağımıza baxmayaraq, məhz indi xalqlarımızın öz dilimizdə rahat şəkildə bir-birləri ilə ünsiyyət qurmasının mümkün olduğunu bildirir və əslində, müstəqilliyimizin bizə verdiyi dəyəri ölçülməz imkanın qiymətləndərilməsi kimi təqdim edir.

Çıxışı zamanı Türkiyə ilə münasibətlərimizin müstəqilliyimizdən əvvəlki və sonrakı mənzərəsini dəyərləndirən Ümummilli lider deyirdi: “Türkiyə Cümhuriyyəti ilə Azərbaycanın dövlətlərarası əlaqələrinin beşillik tarixi var. Ancaq Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələri əsrlərdən-əsrlərə keçibdir. Təəssüflər olsun ki, XX əsrdə bizim bu əlaqələrimiz çox məhdudlaşdırılmış, hətta kəsilmişdi. Türkiyədə baş verən hadisələr barədə məlumatı biz ancaq dünya mətbuatından alırdıq. Türkiyədəki qardaşlarımız, bacılarımız Azərbaycana həsrətlə baxır, burada olan hadisələrdən, gedən proseslərdən çox cüzi məlumatlar alırdılar. Ancaq indi biz müstəqillik əldə edəndən, sərbəst, azad olandan sonra bizim qısa bir müddətdə geniş əlaqələrimiz yaranıbdır. Türkiyə ilə Azərbaycan arasında indi olan əlaqələr bəlkə də, tarix boyu bu qədər geniş, dərin olmayıbdır [2, səh.15].”

Lakin, Azərbaycanla TÜRKSOY əlaqələri, onun tarixi və perspektivləri bununla məhdudlaşmır. Ölkəmiz təşkilatın ilk qurucu üzvlərindən biri olmaqla yanaşı, daima onun fəaliyyətinin təşkilində də yaxından iştirak etmiş və dəfələrlə TÜRKSOY-un, eləcə də digər ortaq ümumtürk təşkilatlatlarının tədbirlərinə, zirvə görüşlərinə, festival və konsertlərinə ev sahibliyi etmişdir. TÜRKSOY-un ll (1992, 30 noyabr-1 dekabr) və VIII (1996) toplantıları, Türk dünyası yazıçılarının III qurultayı, M.Fizulinin 500 illik yubiley tədbirlərinin yekunu Azərbaycanın getdikcə türk dünyasının lider dövlətlərindən birinə çevrildiyinin göstəricisi və təkzibolunmaz sübutu idi [7].

Ölkəmizlə türk dövlətlərinin siyasi və iqtisadi əlaqələrinin inkişafında, eləcə də TÜRKSOY arasında münasibətlərin daim yüksələn xətlə inkişafına və türk cəmiyyəti ilə mədəni əlaqələrin möhkəmlənməsinə xidmət edən ən önəmli hadisələrdən biri də 2009-cu ildə Naxçıvanda Türkdilli Ölkələrin dövlət başçılarının IX Sammitində Naxçıvan Deklarasiyasının qəbul olunması idi [7]. Deklarasiyasın 4-cü maddəsində bir daha təsbit olundu ki, tərəflər elm, təhsil, mədəniyyət və incəsənət sahəsində əməkdaşlığın genişləndirilməsi, Türk dünyasının ortaq dəyərlərinin beynəlxalq səviyyədə tanıdılmasıvə geniş kütlələrə çatdırılması, Türkdilli ölkələr arasında mədəni əlaqələrin dərinləşdirilməsi məqsədilə TÜRKSOY çərçivəsində əməkdaşlıq etməkdədirlər [8].

Bugün qloballaşan dünyada müxtəlif mənfi təsirlərdən yan keçmək üçün,eləcə də milli dəyərlərin, demokratik fikirlərin, maddi və mənəvi irsin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi üçün dövlətlərarası birgə fəaliyyət mexanizmlərinin formalaşması çox vacibdir. Sevindirici haldır ki, müsbətləri ilə, çatışmazlıqları ilə TÜRKSOY kimi bir təşkilat zamanında ərsəyə gəlməklə bərabər, zamanın keşməkeşindən, siyasi kataklizmlərdən uğurla çıxmış, ümidləri puça çıxararaq büdrəməmiş, əksinə, hər il öncəkindən daha artıq əzm və əzəmətlə daha çətin missiyaları uğurla yerinə yetirərək qədim Türk ortaq irsinin yaşamasına, pöhrələnməsinə öz dəyərli töhfəsini vermiş və verməkdədir.

**Ədəbiyyat**


1. "Heydər Əliyev və Şərq (altı cilddə)", III kitab – Bakı: "Çaşıoğlu", 2003. 472 səh.
2. "Heydər Əliyev: Müstəqilliyimiz əbədidir", VIII kitab – Bakı, "Azərnəşr", 1998. 172 səh.
3. Azərbaycan-Türkiyə İş Adamları birliyi. "Azərbaycan-Türkiyə əlaqələri son 20 ildə: uğurlar və imkanlar" - Bakı, 2011. 158 səh.
4. Muxtarov K. "Azərbaycan Respublikası və TÜRKSOY" / Tarix və onun problemləri. Bakı – "Adiloğlu", 2012
5. "TÜRKSOY" təşkilatının dövri nəşri. "TÜRKSOY" jurnalı. №68. 139 səh.
6. Türk Devlet ve Topluluklarının I, II, III, IV, V ve VI dostluk, kardeşlik ve işbirliği Kurultayı (Komisyon rapor ve sonuç bilgileri) – Ankara, "Tudev", 1999, 152 səh.
7. Mais Əmrahov. "Azərbaycan-Türkiyə mədəni əlaqələrində TÜRKSOY-un rolu" – "Geostrategiya" jurnalı, sentyabr-oktyabr 2018, №5 (47)
8. https://www.turkicstates.org/assets/pdf/temel_belgeler/Nahcivan_Anlasmasi_Turkce_20140417_193951.pdf
9. www.turksoy.org

# İRƏVAN QUBERNİYASINDA DİNİ QURUMLAR, MƏSCİDLƏR VƏ VƏQF MÜLKİYYƏTİ HAQQINDA

**Elçin Qarayev**
**AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu**
**elchin_garayev@mail.ru**

***Açar sözlər:*** *İrəvan, quberniya, müsəlman, din, ruhani, məscid*

*Məqalə İrəvan quberniyasında dini qrumlar, məscidlər, vəqf mülkiyyəti və vəqflərdən gələn gəlirlərdən bəhs edilmişdir. Çar Rusiyası Azərbaycanı və onun ayrılmaz tərkib hissəsi olan İrəvan bölgəsini işğal etdikdən sonra əhali arasında böyük nüfuz sahibi olan müsəlman din xadimlərini nəzarətdə saxlamaq üçün müxtəlif illərdə dini islahatlar keçirməyə başladı. Nəticədə, uzun sürən islahatlardan sonra İrəvan quberniyasında çar hakimiyyət orqanlarının nəzarəti altında "Quberniya məclisi" və qəzalarda "Qazilik" adlanan dini qrumlar yarandı. Bu qrumların əsas məqsədi yerlərdə din xadimlərinə nəzarət etmək, onların fəaliyyət istiqamətlərini müəyyən etmək, vəqfdən gələn gəlirləri lazımi yerlərə xərcləmək idi.*

# О РЕЛИГИОЗНЫХ ГРУППАХ, МЕЧЕТЯХ И ИМУЩЕСТВЕ ВАКУФНОГО В ИРЕВАНСКОЙ ГУБЕРНИИ

**Эльчин Гараев**

***Ключевые слова:****Иреван, губерния,мусульманин, религия, духовный, мечеть*

*В статье рассматриваются религиозные группы, мечети, пожертвования и доходы от вакуфного имущества в Иреванской губернии. Заняв Азербайджан и его неотъемлемую часть Иреванской губернии, царская Россия в разные годы начала проводить религиозные реформы, чтобы держать под контролем мусульманских священнослужителей, имевших большое влияние среди населения. После длительных реформ в Иреванской губернии под контролем местного губернатора в результате образовались религиозные группы под названием «Губернский меджлис» и «Газилик». Главной целью этих групп был контроль над деятельностью местных религиозных деятелей и тратой доходов от вакуфного имущества.*

# ABOUT RELIGIOUS GROUPS, MOSQUES AND PROPERTY OF THE WAQF IN THE IREVAN GOVERNORATE

**Elchin Garayev**

***Key wods:****Irevan, governorate, muslim, religion, spiritual, mosque*

*The article deals with religious groups, mosques, donations and income from waqf property in the Irevangovernorate. Having Azerbaijan and its integral part of the Irevangovernorate, tsarist Russia in different years began to carry out religious reforms in order to keep under control the Muslim clergy, who had great influence among the population. After lengthy reforms in the Irevangovernorate under the control of the local governor, as a result, religious groups were formed under the name "Governorate Mejlis" and "Gazilik". The main goal of these groups was to control the activities of local religious figures and the spending of income from waqf property.*

İrəvan quberniyasında əhali arasında xüsusi sosial təbəqə təşkil edən din xadimləri böyük nüfuza malik olmuşdular. Quberniyada həm müsəlman, həm də xristian din xadimləri fəaliyyət göstərsə də, məqaqlədə məqsədimiz müsəlman din xadimləri, dini qurumlar vəbu qrumların əmlakı olan vəqf mülkiyyətindən bəhs etməkdir. Müsəlman ruhaniləri yerli əhali arasında böyük nüfuza malik olduğundan çar hakimiyyət orqanları işğalın ilk günlərindən bu təbəqənin nümayəndələrini nəzarətdə saxlamış, onlara ehtiyatla yanaşmışdır. Din xadimləri tarix boyu Azərbaycanda və onun tərkib hissəsi olan İrəvan bölgəsində daimi xüsusi statusa malik, yerli xalqın mənəviyyatında, dini inanclarında və maariflənməsində böyük rol oynamışdılar. Din xadimləri islam dininin şiə və sünnü məzhəblərinə qulluq edən ruhanilərdən ibarət olmuşdir.

Qeyd etmək lazımdır ki, Rusiya işğalından sonra din xadimləri yerlərdə təhqirlərə məruz qalmış, sıxışdırılmış və hüquqları tez-tez tapdalanmışdı. Çar hakimiyyət orqanlarının yerli adət-ənənələri nəzərə almadan keçirdikləri islahatlar yerli xalqla bərabər ruhanilərin də narazılığına səbəb olurdu.Din xadimləri öz nüfuzlarından istifadə edərək müsəlmanların yeni hakimiyyətdən narazılıqlarını dəstəkləyir, silahlı çıxışlarda iştirak edirdilər. Bu baxımdan XIX əsrin 30-40-cı illərində Şimali Azərbaycanda-Şuşada, Nuxada, Qubada və digər ərazilərdə baş vermiş üsyanlarda müsəlman din xadimləri böyük rol oynamışdılar. Məhz buna görə, xalq arasında din xadimlərinin xüsusi statusa və nüfuza malik olması, çar hakimiyyət orqanlarını müsəlman din xadimlərinin tərkibini, quruluşunu öyrənməklə islahatlar keçirməyə məcbur etmişdi[1, s.72-78].

Azərbaycanda baş vermiş bu üsyanlar, din xadimlərinin üsyanlarda iştirakı çar hakimiyyət orqanlarını narahat etməyə bilməzdi. Bu sosial təbəqəni

sakitləşdirmək, yeni hakimiyyətə tabe edən bir qurum yaradılması üçün yollar axtarılmağa başlandı. Buna görə,çar hakimiyyət orqanları tərəfindən ayrı-ayrı illərdə bir neçə dəfə komissiya yaradılmış, bu komissiyalar məqsədi müsəlman din xadimlərinin quruluş formasını, vəziyyətini və mövqeyini öyrənmək idi. Qafqazda rus qoşunlarının baş komandanı qraf Paskeviç hələ ilk illərdə din xadimlərinin nüfuzunu rus hakimiyyəti üçün təhlükəli olduğunu anlayaraq, 1829-cu ildə Zavileyskinin başçılığı ilə tərkibi 3 nəfərdən-Palavadanov, Çelyayev və İlinskidənibarət xüsusi komissiya təşkil edilmiş, onlara müsəlman əyalətlərində din xadimlərinin vəziyyəti haqqında layihə hazırlamağı tapşırmışdı. Bu komisiya 4 il fəaliyyət göstərmişdi. Layihə hazır olsa da, Qafqazın yeni baş komandanı baron Rozen(1833-1837) tərəfindən bəyənilmədi. Çünki burada müsəlman din xadimləri bir idarəyə tabe olan, heç bir təriqət nəzərə alınmadan göstərilmiş, din xadimlərinin məvacibi indiyə qədər məlum olmayan məscidin gəliri hesabına saxlanılması, şəriət məhkəmələrinin heç bir xeyri olmadan yeni hakimiyyətin münsiflər məhkəməsinə tabe olması təklif edilirdi. Hətta layihədə şəriət məhkəmələrinin forması münsiflər məhkəməsinin formasıma uyğunlaşdırılması təklif olunmuşdu [2, s.364-365].

Qafqazın baş komandanı baron Rozen yeni layihə hazırlamaq üçün yeni komissiya yaradır, bu işi Kazaçenkoya tapşırdı. Lakin o da birinci layihədən fərqli layihə tərtib edə bilmədi, yalnız birinci layihəni nisbətən qısaltdı. 1838-ci il avqustun 10-da bu iş Çiçakova, 1842-ci ildə isə Leqkobıtova tapşırıldı. Lakin hər iki komissiyanın sədrləri bu işin öhdəsindən gələ bilmədilər. Çiçakov layihəni tərtib edərkən əsas kimi Krım müsəlman din xadimlərinin mövqeyini əsas götürmüş, Leqkobıtovun layihəsi isə hökumətin tələbini təmin etmədi [2, s.365-368;1, s.64-65).

Həhayət, bu iş 1848-ci ilin aprelində Daxili İşlər Nazirliyinin tapşırığı ilə N.V.Xanıkova tapşırıldı. Ona böyük salahiyyətlər verildi. N.V.Xanıkov canişin Voronsovun tapşırığı ilə Cənubi Qafqazda müsəlmanlar yaşayan ərazilərə, Osmanlı Türkiyəsinə və Qacar dövlətinə ezamiyyətə göndərildi. Nəticədə, 1849-cu ildə N.V.Xanıkov öz layihəsini başa çatdıraraq, canişinə təqdim etmişdir. Llayihəni müzakirə etmək üçün canişin Voronsovun göstərişi ilə Baş İdarənin Şurasına təqdim edilmişdi. Layihə Qafqaz komissiyası üzvləri tərəfindən müzakirə edilərək bəyənilmişdi. N.V.Xanıkov öz layihəsində Cənubi Qafqazda müsəlman din xadimlərinin tərkibi və xüsusiyyətlərini, vəziyyətlərini ətraflı təsvir etmişdi. Burada müsəlmançılığın tarixinə qısaca toxunulmuş, xanlıq dövründə istər müsəlman, istərsə də din xadimlərinin vəziyyəti, mövqeyi və sayı göstərilmişdir. Lakin 1853-1856-cı illər Krım müharibəsi başladığından bu bu iş müvəqqəti dayandırılır.N.V.Xanıkovun layihəsi müsəlman din xadimləri haqqında irəliyə doğru addım olsa da, onun əsas müddəalarını 1856-cı ildə Qafqaz canişini təyin olunmuş knyaz Baryatinski tərəfindən bəyənilmədi [2, s.368-388;3, s.134-135;1, s.69-72].

Dini qrumların yaradılması yolunda din xadimlərininvəziyyətini, tərkibi öyrənilməklə bərabər, hakimiyyət müvəqqəti də olsa bu sahədə müəyyən işlər görməyə çalışırdı. 1860-cı ildə müfti Məmmədzadə sünnü müsəlmanların vəziyyətini yaxşılaşdırmaq, vəsait axtarmaq üçün Cənubi Qafqaza ezam olunmuşdu. Bundan əlavə, 1862-ci ildə Əhməd Hüseynzadəni şiə müsəlmanlarına nəzarət etmək üçün Cənubi Qafqazın şeyxül islamı təyin edilmiş, qrumun idarəçiliyinin qısa təlimatını yazmağı ona tapşırılmişdi. Həmin ilin dekabrında hazır olan təlimat bəzi düzəlişlərlə canişin Voronsov və general-adyutant knyaz Orbeliani tərəfindən təsdiq edilmişdir. Həmin təlimata görə, şeyx-ül-islamın dini vəzifələrinə öz vəzifəsini yerinə yetirməklə bərabər, qəza və mahalların qazilərinə ətraflı göstərişlərin verməsi daxil idi. Belə təlimat sünnü təriqətinin başçısı Cənubi Qafqaz müftüsünə də verilmişdi [2, s.135-136]

Lakin din sahəsində islahatlar bir qədər gec davam etdirildi. Xüsusilə çar II Aleksandrın qardaşı Mixail Nikolayeviçin canişinliyi dövründə (1862-1882) müsəlman ruhaniliyi dini qurumlarının təşkil edilməsi istiqamətində işlər bir qədər sürətləndi. N.V.Xanıkovun layihəsi yenidən müzakirə edilməyə çıxarıldı. Müzakirələrə baron Tornau və Mirzə Kazımbəy də cəlb olunmuşdular. Nəhayət, uzun çəkən müzakirələrdən sonra 1872 -ci il aprelin 5-də II Aleksandrın fərmanı ilə “Zaqafqaziya Şiə və Sünni Məzhəbləri Müsəlman Ruhani idarəsi haqqında” əsasnamə təsdiq edildi [4, s.379-397;3, s.167;1, s.91; 5, s.304]. Beləliklə, çar hakimiyyət orqanlarını qane edən Şiə və Sünnü ruhani idarəsi təsis edildi. Şiələrin dini rəhbəri Şeyx-ül-islam, sünnü təriqətinin rəhbəri isə Müfti adlandırıldı. Cənubi Qafqazda müsəlmanların baş dini idarəsi Tiflis şəhərində yerləşmişdi.

Əsasnaməyə görə,bu idarələrin üzvüləri Qafqaz canişinliyinin Başmülki idarəsinin tərəfindən seçilirdi. Dini İdarənin konkret öz vəzifəsi var idi. Vəzifələr bunlar idi; Ruhani Şuralarında Qafqazın ali orqanları tərəfindən verilmiş işlərlə bağlı məsələlərə baxılırdı; quberniya məclislərinin qərarlarından din xadimlərinin şikayətlərinə baxılırdı; ümumi illik siyahı və məlumatlar tərtib edilərək Qafqaz üzrə Ali baş komandana təqdim edilirdi; ilahiyyat məktəbləri üçün proqramların hazırlanması və ruhani dərəcələrin təsdiqi məsələsi; axund və əfəndilərin dərəcələrinin təsdiqi üçün sınaqların keçirilməsi. Dini İdarələrdəməsələlər səs çoxluğu ilə qəbul edilirdi [4, s.379 ].

Əsasnaməyə görə, din xadimləri ali və aşağı olmaqla iki kateqoriyaya bölünmüşdü. Ali kateqoriyaya Şeyx-ül-islam, Dini İdarənin üzvləri, quberniya məclislərinin üzvləri və qazilər, aşağı kateqoriyaya məscid mollaları daxil idi. Müsəlman din xadimlərinin dəstəsinə daxil olan Şeyx-ül-islam şiə dini rəhbəri, qazilər dini hakimlər, Müfti “şünnü” məzhəbinin qanunlarının nəzarətçisi, pişnamaz həyatını Allaha ibadətə həsr edən və xalqla birlikdə ibadət edənlər, vaizlər mərasimlərdə təbliğatçı, üləmalar ilahiyyat alimləri, müdərrislər dini elmlərin və ərəb dilinin müəllimləri, əfəndilər “sünnü” məzhəbinin alimləri,

axundlar "şiə" məzhəbinin alimləri, müəzzinlər azan verənlər, imamlar kənd cəmiyyətində dini rəhbərlər, müştəhidlər "şiə" məzhəbində din xadimi, heç bir dini vəzifə daşımayan, xalq arasında xüsusi hörmətə malik peyğəmbər və imam nəslindən hesab olunan seyidlər və dərvişlər idi [4, s.379; 6, s.385-388]. Müsəlman din xadimləri hacı, məşhədi və kərbəlayi adı daşımışdılar.

Rusiya hakimiyyət orqanlarının nəzarəti altında Qafqazda baş müsəlman dini idarələri yarandıqdan sonra quberniyalarda fəaliyyət göstərən ruhaniləri də nəzarətdə saxlamaq lazım gəlirdi. Çar tərəfindən təsdiq edilmiş əsasnamədə bütün Cənubi Qafqazda müsəlman dini qrumlara nəzarət canişinə tapşırılmışdı. Hər bir quberniyalarda isə din xadimlərini nəzarətdə saxlamaq məsədilə dini idarələr- "quberniya şiə və sünni dini məclis"ləri və qəzalarda "qazilik" yaradıldı. Quberniya dini məclisləri sədri Şeyx-ül-islam olmaqla qazilərdən ibarət üzvlərindən, qəzalarda isə dinə nəzarət qazilərdən təşkil olunmuşdu. Məscid ruhaniləri mollalardan ibarət idi. Quberniya məclisləri qubernatorun şəxsən nəzarəti altında idi. Axund və əfəndilərdən təşkil edilmiş məclisin üzvləriqubernator tərəfindən təyin edilirdi. Məclisin öz kargüzar da var idi. Kargüzar rus və Azərbaycan türkcəsini yaxşı bilən ruhanilərdən təyin edilirdi. Məclisdə müəyyən məsələlərin həlli yerli polisin nəzarəti altında keçirilirdi. Hətta məclisə nəzarət etmək üçün qubernator tərəfindən xüsusi məmur da təyin edilmişdi.Burada qərarlar səs çoxluğu ilə qəbul olunurdu. Bundan əlavə, məclisin özünün möhürü də var idi. Quberniya məclislərində dini ibadətlərin və adət- ənənələrin qaydası ilə bağlı bir çox məsələlərə baxılırdı.Quberniya Dini məclislərinin funksiyasına ibadətlərin icrası və adət-ənənələrin və dini tələblərin qaydası ilə bağlı məsələlər, məscid ruhanilərinin dini vəzifələrini pozaraq etiqadla bağlı əməlləri və cinayətləri haqqında işlərə baxılması, evlilik və boşanma işlərində qazilərin qərarlarından şikayətlər və qazilər arasında bu işlərdə səlahiyyət haqqında mübahisələr, qanuna görə şiə məzhəbinə mənsub müsəlmanların cinayət və pis əməlləri ilə bağlı işlərin məhkəməyə göndərilməsi, qubernator tərəfindən müzakirəyə çıxarılan işlərə və məsələlərə baxılması, məclis üzvlərinin biri vasitəsilə mədrəsə və məktəblərə nəzarət etmək, ruhani adını almaq üçün imtahanların hazırlanması, hökumət tərəfindən icazə verilən məscid və digər əmlakların idarə edilməsinə dair işlər daxil idi [4, s.385-386].

Qəzalarda "qazilik" idarəsinin funksiyasına yerlərdə məscid mollalarına nəzarət etmək, nigah, xalq arasında olmuş mübahisəli məsələlər daxil idi. Bundan əlavə qəza "qazi" idarəsi qubernatora və quberniya "dini məclisi"nə bir tərəfdən məscid mollaları, digər tərəfdən ruhanilikdən xaric edilmiş, işdən çıxarılmış mollalar, məscidlərin, onların nəzdində olan məktəblər, dövlət tərəfindən icazə verilmiş vəqf mülkiyyəti, zəkat, nəzir və digər dini ianələr, əhali arasında doğum və ölüm aktlarının uçotunun aparılması üçün müəyyən edilmiş qaydalara uyğun döğlulanların və ölənlərin, evlilik və pozulmuş

nigahların sayı haqqında şəhadətnamələrin verilməsi haqqında məlumat verməli idi. Bütün bu məsələlər Qafqaz canişininin təlimatına uyğun yerinə yetirilməli idi [4, s.383-384].

Hər bir məscidə bir molla düşürdü. Lakin iri məscidlərdə-“Cümə məscidləri”ndə isə bir baş molla olmaqla bir neçə molla fəaliyyət göstərə bilərdi. Burada 150-200 evə bir molla düşürdü. Məscid mollalarının məvacibi məscid gəlirləri hesabına ödənilirdı. Hər bir mollanın məvacibi xüsusi miqdarda müəyyənləşdirilmişdi[4, s.389].

İrəvanda da Şeyx-ül- islamın rəhbərliyi ilə İrəvan quberniya məclisi fəaliyyətə başladı. Qeyd etmək lazımdır ki, quberniya məclisi təşkil edilməmişdən əvvəl burada “Müsəlman dini şəriət” idarəsi fəaliyyət göstərmişdir. Bu idarənin sədri Şeyx-ül-islam Əkbər ağa Axund Molla Məhəmməd oğlu başçılıq etmiş, onun köməkçisi qazi Hacı molla Mehdi Mustafa oğlu, idarənin üzvləri isə Axund molla Sadıq, Axund molla Kərim Qazi oğlu, Hacı molla Məmməd Hacı molla Zaman oğlu və Hacı molla Nəsrulla Kazın bəy oğlu idi. Qəzalarda fəaliyyət göstərən ruhanilər birbaşa bu idarəyə tabe olmuşdur [7, s.601].

Məlum, 1872-ci ilin 5 aprel əsasnaməsinə əsasən İrəvan quberniyasında “şiə və sünnü quberniya məclisi” təşkil olundu və qəzalarda isə “qəza qaziliyi” yaradıldı. 1880-ci il məlumtına baxdıqda görmək olar ki, “İrəvan quberniya şiə məclisi” təşkil edilərkən yuxarıda göstərilən tərkib dəyişilmişdir. Həmin il məclisin sədri Qazi molla Xəlil Qazizadə, üzvləri Axund molla Məhəmmədbağır Axunda Hacı molla Mehdi oğlu, Axund molla Abbasqulu Axunda Hacı molla Əli Nağı oğlu və kargüzar Lütvəli bəy Qazıyev olmuşdur. “Qəza qazisi” isə belə idi: Naxçıvan qəzasında- Hacı molla Saleh; Üçmüəzzin qəzasında-Axunda Şeyx Mehdi Qazizadə; Yenibəyazid qəzasında-Axund molla Qurban Cənnətzadə; Şərur-Dərələyəz qəzasında- Axund Hacı molla İsmail Nadirzadə; Ordubad dairəsində- Axund Mehdi Məhəmmədzadə [8, s.81-82].

İrəvan quberniyasında şiələrə nisbətən sünni məzhəbinə itaət edənlər az olduğundan, burada sünni məzhəbi üzrə yalnız qazilik yaradılmış, bir neçə qəzaya bir qazi başçılıq etmişdir. 1881-ci il məlumatına görə, quberniya üzrə sünni məzhəbiqaziliyin sədriXəlil Əfəndi Qasım Əfəndi oğlu olmuşdur [8, s.82].

XX əsrin əvvəllərində quberniya dini məclisinin üzvlərinin tərkibində dəyişiklik baş vermişdi. 1900-cü ildə İrəvan quberniyası şiə məclisinin sədri AxundMəmmədbağır Qzizadə, məclisin üzvləri Axund Mirzə Abdulla Qaziyev və Axund Həsən Qazizadə, kargüzar Ağabəy Qaziyev, Naxçıvan qəzası üzrə qazi Axund Hacı Molla Əli Axundzadə, Sürməli qəzası üzrə vakant, Şərur-Dərələyəz qəzası üzrə Axund Hacı İsmayıl Nadirxanzadə, Ordubad dairəsi üzrə Molla Mirhaşım Ağamir Qasımzadə, Yeni Bəyazid qəzası üzrə Axund Qurban Cənnətzadə, Üçmüəzzin qəzası üzrə Axund Məhəmmədəli Qazızadə, quberniya sünni məclisi üzrə İrəvan, Naxçıvan, Şərur-Dərələyəz və Yeni Bəyazid qəzaları

üzrə qazi Mustafa Əfəndi Şərif Əfəndizadə (Yeni Bəyazid şəhərində yerləşmişdi), Sürməli, Üçmüəzzin və Aleksandropol qəzaları üzrə vakant yer olmuşdur [9, s.454]

1902-ci il məlumatına görə, "İrəvan quberniya şiə məclisi" nin sədri Axund Məmmədbağır Qazizadə, üzvləri Axund Həsən Qazizadə, kargüzar isə Əlibəy Qaziyev olmuşdur. Qəzalar üzrə qazilik isə belə idi: Naxçıvan qəzasında-Axund Hacı molla Əli Axundzadə; Ordubad qəzasında-Molla Mirhaşım Ağa Mirqasımzadə; Sürməli qəzasında Molla Qəmbər Axundzadə; Şərur-Dərələyəz qəzasında-Hacı molla Əli Axundzadə; Yeni Bəyazid qəzasında-Axund Qurban Cənnətzadə; Üçmüəzzin qəzasında-Axund Məmmədəli Qazizadə [10, s.92].

İrəvan quberniyası üzrə sünni qaziliyi isə belə idi: İrəvan, Naxçıvan, Şərur-Dərələyəz və Yeni Bəyazid qəzalarının qazisi Mustafa Əfəndi Şərif Əfəndizadə; Sürməli, Üçmüəzzin və Aleksandropol qəzalarında qazilik yeri vakant [10, s.93].

1908-ci ilin məlumatında İrəvan quberniya məclisinin sədri və üzvləri olduğu kimi qalmış, lakin quberniya məclisinin qəzalar üzrə qaziləri dəyişmişdir. Məsələn, Naxçıvn qəzasında Axund Şeyx Kərim Axundzadə, Qrdubadda Axund Əbdülhəsən Qazizadə, Sürməli qəzasında Molla Axundzadə, Şərur-Dərələyəz qəzasında Şeyx Həmid Axundzadə, Yeni Bəyazid qəzasında Axund Qurban Cənnətzadə, Üçmüəzzin qəzasında Axund Məmmədəli Qazizadə olmuşdur [11, s.64-65; 5, s.306].

İrəvan quberniyası sünni məclisində də dəyişiklik baş vermişdir. İrəvan quberniyası sünni məslisinin İrəvan, Naxçıvan, Şərur-DƏrələyəz və Yeni Bəyazid qəzaları üzrə qazisi Osman Əfəndi Hacızadə olmuş, Sürməli, Üçmüəzzin və Aleksandropol qəzaları üzrə qazi vəzifəsi vakant olaraq qalırdı [11, s.65; 5, s.306].

1914-cü ildə həm İrəvan quberniyası şiə məclisinin tərkibində, həm də sünni məclisinin tərkibində dəyişiklik baş vermişdir. İrəvan quberniyası şiə məclisinin sədri Axund Abdulla Axund Xəlil oğlu Qaziyev, Naxçıvan qəzası üzrə qazi Şeyx Əbdülkərim Axundzadə, Sürməli qəzası üzrə qazi Molla Baxşəli Mustafa oğlu, Qrdubad dairəsi üzrə qazi Hacı Mirzə Lütfullah Axundzadə, Şərur-Dərələyəz qəzası üzrə qazi Axund Miriismayıl Hacı Seyid İbrahimzadə, Yeni Bəyazid qəzası üzrə qazi Axund Zülfüqar İbrahimzadə, Üçmüəzzin-Aleksandropol qəzaları üzrə qazi Axund Məmmədəli Qazizadə olmuşdur [12, s.75; 5, s.307].

Həmin il İrəvan quberniyası sünni məclisində böyük dəyişiklik baş vermiş, kəndlər üzrə bu məzhəbin nümayəndələri təyin olunmuşdur. İrəvan quberniyası üzrə qazi Osman Əfəndi Hacızadə Hacıyev idi. Qəza və kəndlər üzrə sünni mollalar belə idi: Yeni Bəyazid qəzasında Rəhman kənd mollası Hacı Molla Abdulla Hacı Əbdülqədir oəlu; Zod kənd mollası Molla Mustafa

Hacı Hacalı oğlu, Hüseynqulu Ağalı Molla Əhməd Sadıq oğlu; Aleksadropol qəzasında saralaı kəndinin mollası Məhəmməd Əfəndi Molla Yusif oğlu, ərduç mollası Molla Abdulla Nəbi Əfəndi; Sürməli qəzasında Saraclı kəndinin mollası Molla Əlibəyli Əli oğlu; Göydəkli kənd mollası Molla Əbdül Əziz Hacı Rəsul oğlu [12, s.75-76; 5, s.307].

1917-ci ildə İrəvan quberniyası üzrə şiə və sünnü məzhəblərinin ali ruhaniləri haqqında az məlumat verilmişdir. Həmin il məlumatında quberniya şiə məclisinin sədri Axund Abdulla Qaziyev, məclisin üzvü Hacı Mirzə Məmmədəli İdriszadə, kargüzar isə Aslan bəy Məmmədbəy oğlu Nabatəlibəyov, sünni məzhəbinin qazisi molla Məhəmməd Molla Ömər oğlu göstərimişdir [13, s.777-778].

Qeyd edildiyi kimi, müsəlman din xadimləri yerli əhalinin həyatında böyük rol oynamışdılar. Bu səbəbdən din xadimlərinə böyük güzəştlər verilmişdir. İstər ali ruhanilər, istərsə də məscid mollaları bu vəzifədə işlədikləri müddətdə xəzinəyə vergi və mükəlləfiyyətlərdən, cismani cəzalardan ömürlük azad edilmişdilər. Bundan əlavə, şəxsi evlərə malik olan ruhanilər şəhər küçələrinin işıqlandırılması, abadaşdırılması və saxlanmasına görə vergilər istisna olmaqla, mənzil, torpaq vergisindən və digər şəhər rüsumlarından azad edilmişdilər [4, s.381-382].

Quberniya dini qrumlarının tərkibinə məscidlər, məscidlərin nəzdində fəaliyyət göstərən mədrəsə və məktəblər, qəbristanlıqlar, torpaq sahələri, din xadimlərinə məxsus daşınan və daşınmaz əmlaklar olan vəqf mülkiyyətləridaxil idi. Vəqfdən gələn gəlir məscidlərin təmirinə, məktəb və mədrəsələrin maliyyə işlərinə və digər xeyriyyə işlərinə xərclənirdi. Lakin vəqf mülkiyyəti məscidlərə məxsus olmasına baxmayaraq hakimiyyətin nəzarətində idi. Hər il vəqf komissiyası təşkil olunur, bu komissiya məscidin mədaxil və məxaricinə nəzarət etməklə illik hesabat tərtib edirdi. Həmin hesabat Quberniya Məclisində baxılır və qubernator tərəfindən təsdiq olunurdu. Öz növbəsində həmin hesbat Qafqaz Mülki İdarəsinin Baş Rəisliyinə və Daxili İşlər Nazirliyinə təqdim edilirdi [4, s.387-388; 14,c.42].

İrəvan quberniyasında yüzlərlə məscid var idi.1888-ci ilin məlumatına görə, İrəvan quberniyasında 210 məscid, 1902-ci il məlumatına görə isə 310 məscid olmuşdur [10, s.120-121].

İrəvan quberniyasında ən iri məscidlərin nəzdində dini təhsil ocaqları olan məktəb və mədrəsələrinfəaliyyətinə icazə verilmişdi. Qeyd etmək lazımdır ki, Azərbaycanda, onun ayrılmaz tərkib hissəsi olan İrəvan bölgəsində tarixən məscidlərin nəzdində dini təhsil ocaqları fəaliyyət göstərmişdir. Əsasnaməyə görə, məktəb və mədrəsələrin fəaliyyətinə icazə verilsə də, bunlar hakimiyyət orqanlarının xüsusi nəzarəti altında olmuşdular.Məscidlərdə yeni məktəblər qubernatorun icazəsi ilə açılırdı. Bu o şərtlə icazə verilirdi ki, həmin məktəblərin saxlanması vəqf gəlirlərinin, müsəlmanların könüllü ianələrinin və

digər ödənişlərin hesabına olsun. Bunda əlavə, məscid mollalarına yerli qazilərin nəzarəti altında müsəlman uşağlarına oxumağı və yazmağı, islam dinini öyrənməyə o şərtlə icazə verilirdi ki, burada hökumət əleyhinə zərərli təbliğat olmasın. Məktəb və mədrəsələrə ümumi nəzarət quberniya məclisinə verilmişdi. Məclisin müdərris adlanan üzvlərindən biri nəzarət üçün dini məktəblərə təhkim edilmişdi [4, s.387].

"İcmal" dəftərlərində İrəvan quberniyasının məscidlərinin tərkibində fəaliyyət göstərən mədrəsələrin və burada oxuyan tələbələrin sayı haqqında məlumatlar öz əksini tapmışdır. İrəvan quberniyasında illər üzrə mədrəsələrin və oxuyan tələbələrin sayı belə idi: 1891-ci ildə 28 mədrəsə, 637 şagird; 1892-ci ildə 27 mədrəsə, 683 şagird; 1893-cü ildə 26 mədrəsə, 676 şagird; 1894-ci ildə 28 mədrəsə, 474 şagird; 1895-ci ildə 588 şagird; 1896-cı ildə 20 mədrəsə, 438 şagird; 1897-ci ildə 21 mədrəsə, 336 kişi, 3 qadın; 1898-ci ildə 30 mədrəsə, 385 oğlan, 2 qız; 1899-cu ildə 21 mədrəsə, 261 şagird; 1900-cu ildə 32 mədrəsə, 437 şagird (yalnız oğlan); 1901-ci ildə 44 mədrəsə; 1902-ci ildə 34 mədrəsə, 416 şagird; 1903-cü ildə 18 məktəb, 304 şagird; 1907-ci ildə şiə mədrəsəsi 19, şagird 350, sünni mədrəsəsi 9, şagird 138; 1908-ci ildə şiə mədrəsəsi 36, şagird 624, sünni mədrəsəsi 9, şagird 137; 1909-cı ildə şiə mədrəsəsi 33, şagird 503, sünni mədrəsəsi 9, şagird 160 [15, s.132-133, s.75-76, s.70-71, s.70-71, s.76-77, s.70-71, s.67-68, s.62-63, s.62-63, s.62-63, s.32, s.44-45, s.49-50, s.59, s.59-60, s.59-60].

Müəllimlik fəaliyyəti ilə molla, mirzə və axundlar məşğul olurdular. Mənbələrdə dini məktəb və mədrəsələrdə konkret təyin olunmuş məvacib haqqında müxtəlif fikirlər öz əksini tapmışdır. İrəvan müəllimlər semnariyasının üçüncü kurs tələbəsi Mir Haşım bəy Vəzirovun yazdığına görə, məktəblərdə müəllim üçün konkret təyin olunmuş məvacib yox idi. Onlar hər bir uşaqdan hədiyyələr qəbul edirdi. Bu hədiyyələrin böyük hissəsi Quran oxunub başa çatdırıldıqda-yəni uşaq məktəbi bitirdikdə verilirdi. Müəllim dini bayramlarda, əsasən də Qurban bayramında müəyyən-hədiyyə mükafat alırdı [16, s.3]. Lakin məvacib haqqında onun verdiyi bu məlumat digər mənbələrin verdiyi məlumatla üst-üstə düşmürdü. XIX əsrin 70-80-ci illərin əvvəllərində verilən məlumata görə, İrəvan şəhərində məscidlərin nəzdində olan ibtidai məktəblərdə dərs deyən müəllimlər hər bir uşaqdan hədiyyələr qəbul etməklə bərabər, hər ay 50 qəpikdən 60 qəpiyə qədər, İrəvan quberniyasının qəzalarında isə 15 qəpikdən 30 qəpiyə, digər məlumata görə isə 15 qəpikdən 20 qəpiyə qədər qədər təhsil haqqı alırdılar [17, vv.38$^{ob}$; 18, s.44; 19, s.3].

Mənbələrdə İrəvan quberniyasının şəhər və qəzalarında olan məscidlərin müxtəlif vəqf mülkiyyətindən gələn gəli haqqında xeyli məlumatlara rast gəlmək mümkündür. Məscidlər özlərini bu vəqf mükiyyətindən gələn gəlir hesabına saxlayırdı. Məsələn, 1885-ci ildə Yuva kəndinin Came məscidinin 1720 rubl, Caharbağ və Xarabasarvanlar kəndində məscidin icarəyə götürülmüş

6 dank torpaq sahəsindən isə 1335 rubl gəliri olmuşdur. Bu gəlirin $^{1}/_{4}$ –i məscidin nəzdində fəaliyyət göstərən mədrəsədə təhsil alan tələbələrin oxumağına gedirdi. 1889-ci ildə İrəvan şəhər Came məscidinin və Caharbağ, Xarabasarvanlar və Azad kəndlərinin məscidləri ilə birlikdə gəliri 1100 rubl, 1891-ci ildə İrəvan Came məscidinin və Yuva, Axund, Bozavənd, Baxcevazlı, Qarahəmzəli kəndlərində olan məscidlərin gəliri ilə birlikdə 1860 rubl, 1894-cü ildə isə İrəvan şəhər məscidlərinin gəliri isə 3998 rubl olmuşdur (V.Quliyeva, 50-51). Ümumilikdə 1892-1895-ci illər İrəvan quberniyasında şiə məscidlərinin ümumi gəliri 30185 rubl, xərci isə 22763 rubl olmuşdur. Bu gəlirin bir hissəsi mədrəsə və məktəblərin maliyyəsinə, məscidlərin təmirinə, yoxsullara köməyə və digər xeyriyyə işlərinə xərclənmişdir[14,s.48].

XIX əsrin sonu-XX əsrin əvvəllərində olan məlumatlarda İrəvan quberniyasının məscidləriin gəliri haqqında da məlumatlara rast gəlmək mümkündür. 1899-cu ildə İrəvan şəhərində olan baş məscidinin gəliri 4098 rubl, Şəhər məhəlləsində olan məscidin gəliri 487 rubl, Hacı Novruzəli bəy məscidinin gəliri 150 rubl, Hacı Mirzə Səfi bəy məscidinin gəliri 24 rubl, İrəvan qəzasına məxsus Hacı İlyas kəndinin məscidinin gəliri 264 rubl, Sədərək kəndinin məscidinin gəliri 15 rubl, Naxçıvan şəhərində məscidin gəliri 569 rubl 50 qəpik, Ordubad dairəsində Yayçı kəndinin məscidinin gəliri 68 rubl, Pikmond kəndinin məscidinin gəliri 13 rubl, Vənənd kənd məscidinin gəliri 230 rubl, Vənənd kəndində olan digər məscid-Takiyə məscidinin gəliri 30 rubl, Pirçinli kəndinin məscidinin gəliri 83 rubl, Əylis Ulya kəndinin məscidinin gəliri 6 rubl, Velaverq kəndinin məscidinin gəliri 48 rubl, Çexletanq kəndinin məscidinin gəliri 45 rubl, Ordubad şəhərində Sarşarx məscidinin gəliri 9 rubl, Naxışlı kəndinin məscidinin gəliri 10 rubl, mədrəsənin gəliri 305 rubl, Kürdatal kəndinin məscidinin gəliri 28 rubl, Qadı kəndinin məscidinin gəliri 55 rubl, Fəxri kəndinin məscidinin gəliri 5 rubl, Molla Kazım kəndinin məscidinin gəliri 59 rubl, Cami məscidinin gəliri 45 rubl, Kiçik Kürdatal kəndinin gəliri 8 rubl, "Qoç Meydan" qəbristanlığının gəliri 8 rubl, Naxırbaşı məscidinin gəliri 22 rubl olmuşdur[14, s.48].

İrəvan şəhər Came məscidinin müxtəlif kəndlərdə vəqf mülkiyyəti olan torpaq sahələri dəolmuşdur. Məsələn, Yuva kəndində 3 dənk, Bəyçedazlı kəndində 2 dənk, Buzavənd Axund kəndində 2 dənk, Qarahəmzəli kəndində 1,5 dənk, Caharbağ kəndində 6 dənk, Sarvanlar kəndində 6 dənk (90 desyatin 600 sajen) idi [14, s.50].

1910-cu ildə Hacı İlyas məscidinin gəliri 1034 rubl, Qəmərli kənd məscidinin gəliri 29 rubl, Üçmüəzzin qəzasında Əkərək kəndindəki məscidin gəliri 12 rubl, Kolanı kənd məscidinin gəliri 126 rubl, Naxçıvan şəhər Came məscidinin gəliri 699 rubl, Ordubad şəhər məscidinin nəzdində olan məsdrəsənin gəliri 1455 rubl, Ordubad şəhər Came məscidinin gəliri 103 rubl, Molla Kazım kənd məscidinin gəliri 72 rubl, Kiçik Kürdatal kənd məscidinin

gəliri 8 rubl, Hüseyniyyə Kürdatal kənd məscidinin gəliri 35 rubl, Təzə Kürdatal kənd məscidinin gəliri 6 rubl, Susanabad qəristanlığının gəliri 3 rubl, "Qoç Meydan" qəbristanlığının gəliri 6 rubl, Fəxri kəndinin məscidinin gəliri 5 rubl, Hadi kənd məscidinin gəliri 80 rubl, Minkis kənd məscidinin gəliri 17 rubl, Sarşəhər kəndinin məscidinin gəliri 32 rubl, Naxır Başlı kənd məscidinin gəliri 11 rubl, Ordubad sahəsinin Nus-Nus kənd məscidinin gəliri 58 rubl, Uklis –ulya kənd məscidinin gəliri 6 rubl, Valaver kənd məscidinin gəliri 44 rubl, Vənənd kənd Came məscidinin gəliri 165 rubl, Ağrı kənd məscidinin gəliri 14 rubl, Öanagah kənd məscidinin gəliri 37 rubl, Dostak kənd məscidinin gəliri 12 rubl, Diklun kənd məscidinin gəliri 14 rubl, Şərur-Dərələyəz qəzasında Tanrı Ocaq kənd mscidinin gəliri 5 rubl olmuşdur[14, s.50].

1915-ci ildə İrəvan quberniyasında olan məscidlərin gəliri daha da artmışdır. Həmin ildə İrəvan şəhərdə olan Came məscidinin gəliri 5421 rubl, Tatar (Azərbaycan türk) məscidinin gəliri 1120 rubl, Hacı Novruzəli bəy məscidinin gəliri 183 rubl, Hacı İmamverdibəy məscidinin gəliri 234 rubl, Hacı Mirzə Səfibəy məscidinin gəliri 812 rubl, Ərəblər qəbristanlığının gəliri isə 54 rubl olmuşdu. Qəzalar üzrə də məscidlərin gəliri haqqında məlumatlar vardır. İrəvan qəzasında Hacı İlyas kənd məscidinin gəliri 643 rubl, Sədərək kənd məscidinin gəliri 12 rubl, Qəmərli kənd məscidinin gəliri 6 rubl, Torpaqqala kənd məscidinin gəliri 3 rubl, Arbat kənd məscidinin gəliri 86 rubl, Şərur-Dərələyəz qəzasında Tərki Ocaq kənd məscidinin gəliri 28 rubl, Parçi Ocaq kənd məscidinin gəliri 108 rubl, Üçmüəzzin qəzasında Əkərək kənd məscidinin gəliri 20 rubl, Tərki kənd məscidinin 54 rubl, Sürməli qəzasında Güllücə kənd məscidinin gəliri 10 rubl, Ordubad şəhər Zöhriyyə məscidinin gəliri 2589 rubl, Came məscidinin gəliri 155 rubl, Molla Kazım məscidinin gəliri 132 rubl, Yahyabəy məscidinin gəliri 10 rubl, Təzə Kürdatal kənd məscidinin gəliri 3 rubl, Hüseyn Kürdatal kənd məscidinin gəliri 33 rubl, Hadi kənd məscidinin gəliri 136 rubl, Minkis kənd məscidinin gəliri 30 rubl, Naxışlı kənd məscidinin gəliri 35 rubl, Ordubad sahəsində Nus-Nus kənd məscidinin gəliri 52 rubl, Vənənd kənd Came məscidinin gəliri 168 rubl, həmin kəndin Pirçinli məscidinin gəliri 53 rubl, Ağrı kənd məscidinin gəliri 14 rubl, Xanikax kənd məscidinin gəliri 36 rubl, Diklul kənd məscidinin gəliri 24 rubl, Yaycı kənd məscidinin gəliri 44 rubl idi [14, s.49].

Beləliklə, Azərbaycanda, xüsusən də onun ayrılmaz tərkib hissəsi olan İrəvan quberniyasında din xadimlərini nəzarətdə saxlamaq üçün çar Rusiyası xüsusi dini qrumlar yaratmaq üçün islahatlar keçirməyə başladı. Nəticədə, İrəvan quberniyasında dini qrumlar "quberniya məclisi", qəzalarda "qazilik" yaradıldı. Bu qrumlar quberniyada din xadimlərinə və məscidlərə nəzarət etməli, həmin qrumların mülkiyyəti olan vəqflərdən gələn gəlirləri lazımi işlərə xərcləməli idilər.

## Ədəbiyyat

1. Hüseynli R. Azərbaycan ruhaniliyi. Bakı: “Kür”, -2002.

2. Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в, [в 2 томах] / - Москва-Ленинград: Из-во Академии наук СССР, – 1937. т.2/

3. ИсторическаязапискаобуправленииКавказом [в 2 томах] / Сос.С.Эсадзе. - Тифлис: ТипографияГуттенберг, - 1907. т.II.

4. ПолноесобраниезаконовРоссийскойимперии // СПБ: Печатано в Типографии II отделениясобственнойегоимператорскоговеличестваКанцелярии, – 1872.т.47, отдел 1.

5. ƏmrahovZ. İrəvan quberniyasının tarixi (1850-1917-ci illər) / - Bakı:“Nurlar”, -2022.

6. Потто, В. Утверждение русского владычества на Кавказе: [в 4 томах] / В.Потто. – Тифлис: Типография Я.И.Либермана, 1901. – т.1.

7. Кавказский календарь на 1854 / Тифлис:-1853.

8. Кавказский календарь на 1881 / Тифлис:-1880.

9. Кавказский календарь на 1900 / Тифлис:-1899.

10. Памятная книжка Эриванской губернии на 1902 /-Эриван: 1902.

11. Памятная книжка Эриванской губернии на 1908 /-Эриван: 1908.

12. Памятная книжка Эриванской губернии на 1914 /-Эриван: 1914.

13. Кавказский календарь на 1917 / Тифлис:-1916.

14. Кулиева В. Роль и позиция мусульманского духовенства в социально-политической и культурной жизни Нахичевани, Эриванской губернии и Зангезура в Х1Х – начале ХХ вв. – Баку: Элм, 1999.

15. Обзор Эриванской губернии за 1891-1909 /-Эриван: 1892-1910.

16. Сборник материалов для описания местностей и племен Кавказа: [в 82 т и 4 доп] // - Тифлис: Изд.во Упр. Кавказ. Учеб. Округа, – 1890. выпуск 9, отдел 2.

17. ГГИА, ф.5, с.1, д. 3077, лл.38$^{об}$.

18. Сборник материалов для описания местностей и племен Кавказа: [в 82 т и 4 доп]//. - Тифлис: Изд.во Упр. Кавказ. Учеб. Округа. – 1881. выпуск 1.

19. Сборник сведений о Кавказе: [в 9 томах] /Под редакцией главного редактора Кавказского статистического комитета Н.Зейдлица. Тифлис: Типография ГлавногоУправления Наместника Кавказа, – 1880. т.7.

# О ВЫПУСКЕ БУМАЖНЫХ ДЕНЕЖНЫХ ЗНАКАХ ЦЕМЕНТНОГО ЗАВОДА «ТАУЗЪ»

**Габил Зейниев**
**кандидат технических наук (Россия, Москва)**
**zeyniev@yandex.ru**

**Санубар Касимова**
**Национальный музей истории Азербайджана**
**qasimova.ktfm@mail.ru**

***Ключевые слова:*** *Товуз, цементный завод, марки, акции*

*В статье впервые предоставляется информация об истории создания и функционирования цементного завода «Таузъ» и о выпусках денежных знаков и акции.*

*Главной целью данной статьи является восполнить имеющийся пробел в существующих информациях о бумажные денежные знаки Потребительского Общества цементного завода «Таузъ».*

*В начале 1913-го года цементный завод «Таузъ» приступил к полноценному выпуску продукции. На основе начального уставного капитала в 600 000 рублей состоялся выпуск из 6 000 акций номиналом в 100 рублей.*

*Ссылаясь на реальные фактические материалы и исторические сведения в статье отражены подробные описания, а также видоизменения денежных знаков - марок, номиналами в 3, 10 и 20 копеек.*

*Впервые описаны особенности бумажных денежных знаков, а также предоставлен таблицами полный системный каталог Потребительского Общества при цементном заводе "Таузъ".*

*Статья предназначена для историков, коллекционеров и студентов.*

## TOVUZ SEMENT ZAVODUNUN KAĞIZ PUL NİŞANLARININ İSTEHSALI HAQQINDA

**Qabil Zeyniyev**
**Sənubər Qasımova**

***Açar sözlər:*** *Tovuz, sement zavodu, markalar, aksiyalar*

*Məqalədə ilk dəfə olaraq "Tovuz" sement zavodunun yaradılması və fəaliyyəti, kağız pul nişanları ilə səhmlərinin tarixi barədə məlumat təqdim edilib.*

*"Tovuz" sement zavodu İstehlak Cəmiyyətinin kağız pul nişanları haqqındakı mövcud məlumatlardakı yetərsizliyi aradan qaldırmaq məqalədəki başlıca məqsədlərdəndir.*

*1913-cü ilin əvvəllərində "Tovuz" sement zavodu tam istehsal ilə fəaliyyətə başlamışdır. 600 000 rubl məbləğindəki ilkin vəsaitlə istehsala başlayan zavodda 100 rubl nominallı 6000 ədəd səhm çap edilmişdir.*

*Məqalədə mövcud faktiki materiallara və tarixi məlumatlara istinadən dövrün pul nişanlarının – 3, 10 və 20 qəpik nominallı markaların ətraflı təsviri və görünüşündəki dəyişikliklər şərh edilmişdir.*

*İlk dəfə olaraq kağız pul nişanlarının xüsusiyyətləri, eləcə də "Tovuz" sement və inşaat materialları zavodunun nəzdindəki İstehlak Cəmiyyətinin tam sistemli kataloqu cədvəllər şəklində təqdim edilmişdir.*

*Məqalə tarixçilər, kolleksiyaçılar və tələbələr üçün nəzərdə tutulmuşdur.*

## ABOUT THE ISSUE OF PAPER BANKNOTES CEMENT PLANT "TAUZ"

**Qabil Zeyniyev**
**Sanubar Qasimova**

***Keywords:*** *Tovuz, cement plant, money stamp, actions*

*The article for the first time provides information about the history of the creation and operation of the cement plant "Tauz" and about the issues of banknotes and shares.*

*The main purpose of this article is to fill the existing gap in the existing information about paper banknotes of the Consumer Society of the cement plant "Tauz".*

*At the beginning of 1913, the Tauz cement plant began full-fledged production. Based on the initial authorized capital of 600,000 rubles, an issue of 6,000 shares with a par value of 100 rubles took place.*

*Referring to real factual materials and historical information, the article reflects detailed descriptions, as well as modifications of banknotes - stamps, in denominations of 3, 10 and 20 kopecks.*

*For the first time, the features of paper banknotes are described, and the complete system catalog of the Consumer Society at the cement plant "Tauz" is provided in tables.*

*The article is intended for historians, collectors and students.*

Согласно исследованиям, цементный завод «Таузъ», расположенный близ станции Тауз Закавказской железной дороги был заложен с 1911-го по 1912-е гг. в Елизаветпольской губернии Газахского

уезда(ныне город Товуз, расположенна северо-западе Азербайджанской Республики примерно в 430 км от Баку; 6).

Выбор места постройки цементного завода был не случайным. Земли Товузского района богаты известняковыми породами, приуроченными к верхнему мелу (так называемая сеноманская известняково-мергельная толща), в свою очередь являющимися прекрасным сырьем для изготовления цементной продукции.

В начале 1913-го года цементный завод «Таузъ» приступил к полноценному выпуску продукции.Проектная мощность цементного завода «Таузъ» составляла до 4 тысяч тонн цемента в год.

Устав Акционерного общества для производства портландцемента и других строительных материалов «Таузъ» был Высочайше утвержден 20 марта 1913-го года (3, с. 351).

На основе начального уставного капитала в 600 000 рублей состоялся выпуск из 6 000 акций номиналом в 100 рублей (см.: рис.1). А через год они были увеличены до 1 200 000 рублей, что явно свидетельствует об успешном начале выпуска и увеличении объема выпускаемой продукции.

До середины 1918-го года в Акционерном обществе для производства портландцемента и других строительных материалов «Таузъ» председателем правления был представитель от немецкого концерна «Siemens», а директором-распорядителем - С.Лионозов (штаб-квартира цементного завода «Таузъ» располагалась в Санкт-Петербурге на улице Захарьевская, дом 12).

Завод имел свой геральдический знак (см: рис. 2). Этому свидетельствует титульный лист документа (книга учета?) данного завода, хранящийся вНациональном музее истории Азербайджана в фонде документальных источников под инв. №2857.

В верхней части листа изображен геральдический знак. Знак состоит изовального ободка,по всей окружности, на котором отмечено: «Акционерное общество для производства портландь цемента и других строительных материалов». Во внутренней части знака рисунок, состоящий изсидячего орла на горе с раскрытыми крыльями и слово «Таузъ». В центре титульного листа надпись: «Заводоуправленıе акцıонернаго о-ва для производства портландъ-цемента и другихъ строительныхъ матеріаловъ «Таузъ», Ст. Тауз Зак. жел. дор. Елисаветпольск. губ. Казахской уездъ № 504».

В начале 1918-го года денежное хозяйство Азербайджана подверглось финансовому кризису. Дефицит денежных знаков с каждым днем становился все масштабнее. В целях частичного удовлетворения требований трудового коллектива потребительским обществом

цементного завода «Таузъ» было принято решение о выпуске собственных денежных знаков. Таким образом, создавались условия для возможности покупки товаров и продуктов питания в магазинах (лавках) завода.

Потребительское общество в начале 1918-го года приступило к выпуску денежных знаков – марок номиналамив 1, 2, 3, 5,10, 15, 20 и 50 копеек.

Денежные знаки выпускались на бумаге повышенной плотности светло-бежевого цвета и оформлялись только аверсом в простом исполнение.

В качестве основного рисунка использован круг, в центре которого размещено значение номинала. По всей окружности надпись: «Марка на. О-во Потреб. при Цемент. Заводъ «Таузъ». Для фона внутри основного рисунка (круга) использован темно-желтый цвет. Надписи выполнены черным цветом. Аверс имеет рамку обрамления, также выполненную черным цветом (Рис. 3).

Все денежные знаки печатались на листе и впоследствии срезались вручную с отступлением на незначительное расстояние по наружным краям квадратной рамки оформления. Встречаются экземпляры, которые срезаны вручную по наружному периметру круга, т.е. отсутствует наружная рамка обрамления. Такие экземпляры несоответствовали общепринятому выпуску изготовления денежных знаков и были выполнены вследствие коллекционного оборота. Основные показатели особенностей выпуска денежных знаков приведены в таблице (см.: таблица 1).

В середине 1918-го года завод был приобретен Торговым Домом «Питоевы», учредителем которого являлся Г.К.Питоев. После появления нового собственника выпуск денежных знаков продолжался в том же оформлении, без изменений основных рисунков и надписей. Единственное отличие - на аверсе прибавить дополнительный штамп с надписью: «Дом. Питоев». При этом слово «Дом.» имеет точку, что является подтверждением понимания «Дома» не как имущества, а того, что собственником был Торговый «Дом Питоевы» как учреждение. Под словом «Дом.» написано «Питоев», штамп имеет синий цвет и выполнен только надписями, без рамки, размерами 20 х 10 мм. На иллюстрации (рис 4 и 5)представлены изображения дополнительного штампа «Дом. Питоев». Дополнительная регистрация денежных знаков цементного завода «Таузъ» Торговым Домом «Питоевы» («Дом. Питоев») осуществлялось не только путем проставления вручную штампа «Дом. Питоев» на аверсе, но и путем проставления вручную печати синего цвета круглой формы на реверсе номинала.

Так как, денежные знаки цементного завода «Таузъ» выпускались не более года в очень малом количестве, они являются крайне редкими. Встречаются только в частных коллекциях в незначительном количестве.

В данной статье представлен полный системный каталог выпуска бумажных денежных знаков цементного завода «Таузъ».
В составе которогоимеется информация о степени редкости разновидностей денежных знаков, при определении которой использованы следующие обозначения (категории):
RRR – известны в минимальном количестве − от 5 до 10 экземпляров;
RR – известны в малом количестве − от 10 до 30 экземпляров (см.: таблица 2).

Впервые в статье, основываясь на фактические материалы привлеченык анализу бумажно-денежные знаки – марки, их особенности и разновидности, а также составлен системный каталогпотребительского общества цементного завода «Таузъ».

Статья предназначена для историков, коллекционеров-бонистов и студентов.

## Литература

1. Горянов И.М. (2015). Ценные бумаги России и СССР. Горнодобывающая, нефтяная промышленность. Металлургия. Производство строительных материалов. Том 2. Москва: «Знакъ-Консалтинг», - 48 с.

2. Жуков А.А., Малышев В.П. (2008). Энциклопедия. Денежные эмиссии Закавказье. Грузия, Азербайджан, Армения. 1917-1924 гг. - СПб.: Издательский дом «Петрополис», – 139с.

3. Полное собранiе законовъ Россiйской имперiи (1913). Закон 59072, Том XXXIII, Петроград: Гостип. с. 351

4. Рзаев И. (2007). Частные боны Азербайджана // Петербургский коллекционер. - № 5 (45). - с. 7−9.

5. Рябченко П.Ф. (1995). Полный каталог бумажных денежных знаков и бон России, СССР, стран СНГ (1769-1994). - Киев: Издательско-культурный центр «София», - 537 с.

Web resurs:

6. Tovuzda bir vaxtlar yeddi rəngdə sement istehsal edən zavod // https://video.azertag.az/video/98847 /21.07.2020

**Приложения**




Рис. 1. Акция в сто рублей. 1913 г. (см.: список лит. 6)




Рис. 2. Фотокопия титульного листа Заводоуправления «Таузъ». 1913 г.




Рис. 3. Марка. 3 копейки.




Рис. 4. Марка. 10 копеек.




Рис. 5. Марка. 20 копеек.

Таблица 1

**Особенности выпуска денежных знаков Потребительского общества при заводе по производству портландцемента и других строительных материалов "Таузъ".**

| номинал | размеры по наружной рамки номинала (мм) | диаметр наружного ободка основного рисунка - круга (мм) | особенности бумаги для выпуска денежных знаков |
|---|---|---|---|
| марка на **1** копейку | 29 х 29 | 23 | - бумага повышенной плотности 0, 70 мм по микрометру;<br>- цвет бумаги - светло-бежевый;<br>- цвет наружной квадратной рамки номиналов - черный;<br>- цвет фона основного рисунка (внутри круга) - темно-желтый;<br>- цвет оформление основных надписей и круга - черный |
| марка на **2** копейки | 29 х 29 | 25 | |
| марка на **3** копейки | 29 х 29 | 28 | |
| марка на **5** копеек | 29 х 29 | 28 | |
| марка на **10** копеек | 29 х 29 | 22 | |
| марка на **15** копеек | 29 х 29 | 26 | |
| марка на **20** копеек | 29 х 29 | 29 | |
| марка на **50** копеек | 34 х 34 | 34 | |

**Таблица 2.**

| индекс | номинал | год выпуска | описание | редкость |
|---|---|---|---|---|
| AZR 2 - 1.1.1 | марка на **1** копейку | 1918 | Вариант № 1. Без дополнительных штампов и печатей. | RRR |
| AZR 2 - 1.1.2 | | | Вариант № 2. С дополнительным штампом "**Дом. Питоев**" на аверсе и печатью круглой формы на реверсе | RR |
| AZR 2 - 1.2.1 | марка на **2** копейки | 1918 | Вариант № 1. Без дополнительных штампов и печатей. | RRR |
| AZR 2 - 1.2.2 | | | Вариант № 2. С дополнительным штампом "**Дом. Питоев**" на авресе и печатью круглой формы на реверсе | RR |
| AZR 2 - 1.3.1 | марка на **3** копейки | 1918 | Вариант № 1. Без дополнительных штампов и печатей. | RRR |
| AZR 2 - 1.3.2 | | | Вариант № 2. С дополнительным штампом "**Дом. Питоев**" на аверсе и печатью круглой формы на реверсе | RR |
| AZR 2 - 1.4.1 | марка на | 1918 | Вариант № 1. Без | RRR |

| | | | | |
|---|---|---|---|---|
| | **5** копеек | | дополнительных штампов и печатей. | |
| AZR 2 - 1.4.2 | | | Вариант № 2. С дополнительным штампом "**Дом. Питоев**" на аверсе и печатью круглой формы на реверсе | RR |
| AZR 2 - 1.5.1 | марка на **10** копеек | 1918 | Вариант № 1. Без дополнительных штампов и печатей. | RRR |
| AZR 2 - 1.5.2 | | | Вариант № 2. С дополнительным штампом "**Дом. Питоев**" на аверсе и печатью круглой формы на реверсе | RR |
| AZR 2 - 1.6.1 | марка на **15** копеек | 1918 | Вариант № 1. Без дополнительных штампов и печатей. | RRR |
| AZR 2 - 1.6.2 | | | Вариант № 2. С дополнительным штампом "**Дом. Питоев**" на аверсе и печатью круглой формы на реверсе | RR |
| AZR 2 - 1.7.1 | марка на **20** копеек | 1918 | Вариант № 1. Без дополнительных штампов и печатей. | RRR |
| AZR 2 - 1.7.2 | | | Вариант № 2. С дополнительным штампом "**Дом. Питоев**" на аверсе и печатью круглой формы на реверсе | RR |
| AZR 2 - 1.8.1 | марка на **50** копеек | 1918 | Вариант № 1. Без дополнительных штампов и печатей. | RRR |

| | | | | |
|---|---|---|---|---|
| AZR 2 - 1.8.2 | | | Вариант № 2. С дополнительным штампом "**Дом. Питоев**" на аверсе и печатью круглой формы на реверсе | RR |

**Каталог бумажных денежных знаков Потребительского общества при заводе по производству портландцемента и других строительных материалов "Таузъ".**

# KİPR PROBLEMİNİN TARİXİNDƏN (XX ƏSRİN 60-CI İLLƏRİ)

**Ləman Zülqədərova**
**Gəncə Dövlət Universiteti**
**mubariz.aqalar@gmail.com**

***Açar sözlər:*** *Türkiyə, ABŞ, SSRİ, Yunanıstan, müstəqillik, respublika, Kipr Xruşşov*

*XX əsrin 60-cı illərin əvvəllərində Türkiyənin xarici siyasətində yeni bir problem yarandı. Bu da Kipr hadisələri ilə bağlı oldu. 1960-cı ilin avqust ayında müstəqilliyi elan edilən Kipr Respublikasının təminatçı dövlətləri Böyük Britaniya, Türkiyə və Yunanıstan idi. Müstəqil olmasına baxmayaraq, Kiprdə Böyük Britaniyanın iki böyük hərbi bazası saxlanılırdı. Kipr müstəqil olduqdan sonra yunanlar kiprli türklərin hüquqlarını kobudcasına pozmağa başladılar. Adadakı türk varlığının mövcudluğu sual altına düşdü. Dinc türk əhalisinə qarşı təqiblərin həyata keçirilməsi gərgin vəziyyət yaratdı. Bu isə Türkiyə hökumətinin narahatlığına səbəb oldu. Kipr problemi Ankaranın xarici siyasətində ən vacib məsələlərdən birinə çevrildi.*

*Mövcud məqalədə müxtəlif qaynaqlar və mövcud tarixşünaslığın məlumatları əsasında Kipr konfliktinin gedişi, təkamülü, bu dramatik, qanlı beynəlxalq konfliktin müxtəlif aktorlarının mövqeyi və hərəkətləri izlənilir.*

*Məqalənin müəllifi ABŞ, SSRİ, Türkiyə və b. kimi müxtəlif hərbi-siyasi mərkəzlərin Kipr siyasətini mümkün qədər ətraflı işıqlandırmağa çalışır. Məqalənin sonunda haqlı olaraq qeyd edilir ki, bütün cəhdlərə baxmayaraq ABŞ və digər Qərb dövlətləri Türkiyənin qanlı 1964-cü il hadisələrinə müdaxiləsinə imkan vermədilər; doğrusu, belə Türkiyə müdaxiləsi üçün müvafiq şərait də hələlik yetişməmişdi.*

## ИЗ ИСТОРИИ КИПРСКОЙ ПРОБЛЕМЫ (60-Е ГОДЫ XX ВЕКА)

**Ляман Зульгадарова**

***Ключевые слова:*** *Турция, США, СССР, Греция, самостоятельность, республика, Кипр, Хрущев*

*В начале 60-х годов 20 века во внешней политике Турции возникла новая проблема. Это также было связано с событиями на Кипре. В августе 1960 года Кипр объявил о своей независимости. В этот период государствами-гарантами Республики Кипр были Великобритания, Турция и Греция. Несмотря на независимость, Кипр содержал две крупные британские военные базы. После того, как Кипр стал*

*независимым, греки стали нарушать права турок-киприотов. Существование турецкого присутствия на острове было поставлено под сомнение. Преследования мирного турецкого населения создали напряженную обстановку. Это вызвало обеспокоенность турецкого правительства. Кипрская проблема стала одним из важнейших во внешней политике Анкары.*

*В данной статье на основе данных различных источников и существующей историографии прослеживается ход, эволюция кипрского конфликта, позиция и действия различных актеров этой драматичной, кровавой международной проблемы.*

*Автор статьи постарался как можно подробно осветить кипрскую политику различных военно-политических центров, таких как США, СССР, Турция и др. В конце статьи правильно отмечено, что несмотря на все попытки США и другие страны Запада не позволили Турции вмешиваться в кровавые события 1964 года; с другой стороны, если честно признаться, еще не существовала соответствующая ситуация для турецкого вмешательства.*

## ON THE HISTORY OF THE CYPRUS PROBLEM (60S OF THE XX CENTURY)

**Laman Zulqadarova**

***Keywords:*** *Turkey, USA, USSR, Greece, independence, republic, Cyprus, Khrushchev*

*In the early 60s of the 20th century, a new problem arose in Turkey's foreign policy. This was also related to the events in Cyprus. The guarantor states of the Republic of Cyprus, which declared its independence in August 1960, were Great Britain, Turkey and Greece. Although independent, Cyprus maintained two large British military bases. After Cyprus became independent, the Greeks began to violate the rights of the Turkish Cypriots. The existence of the Turkish presence on the island was questioned. Persecution against the peaceful Turkish population created a tense situation. This caused the concern of the Turkish government. The Cyprus problem has become one of the most important issues in Ankara's foreign policy.*

*This article, based on data from various sources and existing historiography, traces the course and evolution of the Cyprus conflict, the position and actions of various actors in this dramatic, bloody international problem.*

*The author of the article tried to cover the Cypriot policy of various military-political centers, such as the USA, the USSR, Turkey, etc., in as much detail as possible. At the end of the article, it is correctly noted that despite all*

*attempts, the United States and other Western countries did not allow Turkey to interfere in the bloody events of 1964; on the other hand, to be honest, there was not yet an appropriate situation for Turkish intervention.*

XX əsrin 60-cı illərin əvvəllərində Türkiyənin xarici siyasətində yeni bir problem yarandı. Bu da Kipr hadisələri ilə bağlı oldu. 1960-cı ilin avqust ayında müstəqilliyi elan edilən Kipr Respublikasının təminatçı dövlətləri Böyük Britaniya, Türkiyə və Yunanıstan idi. Kiprin müstəqilliyinin elan olunmasını adada ingilis nüfuzuna vurulan zərbə kimi qiymətləndirən sovet hökuməti baş verən hadisələri diqqətlə izləyirdi. Müstəqil olmasına baxmayaraq, Kiprdə Böyük Britaniyanın iki böyük hərbi bazası saxlanılırdı. Kipr müstəqil olduqdan sonra yunanlar kiprli türklərin hüquqlarını kobudcasına pozmağa başladılar. Adadakı türk varlığının mövcudluğu sual altına düşdü. Dinc türk əhalisinə qarşı təqiblərin həyata keçirilməsi gərgin vəziyyət yaratdı. Bu isə Türkiyə hökumətinin narahatlığına səbəb oldu. Kipr problemi Ankaranın xarici siyasətində ən vacib məsələlərdən birinə çevrildi.

1964-cü ildə Kipr ətrafında vəziyyət yenidən gərginləşdi. Kiprdə iki icma arasında toqquşmalardan sonra vəziyyət kəskinləşdi. NATO üzvləri olan Yunanıstan və Türkiyə bir-birinə qarşı hərbi hazırlıq işini gücləndirdilər.

Belə bir şəraitdə Türkiyənin hər hansı bir dövlətlə münasibətlərinin necə olması onların Kipr məsələsinə yanaşmalarından asılı idi. Türkiyənin həyati mənafeləri ilə bilavasitə bağlı olan Kipr məsələsində türklərin haqlı tələblərinə Qərb blokundakı müttəfiqlərinin biganə qalmaları, tərəddüd etmələri narazılıqla qarşılanırdı. Belə vəziyyətdə Türkiyənin baş naziri İsmət İnönü 1964-cü il yanvarın 5-də sovet lideri N.S. Xruşşova məktub göndərdi. Səfir F. Korutürk yanvarın 6-da həmin məktubu SSRİ xarici işlər naziri A. Qromıkoya təqdim etdi. Məktubda adada yaranmış vəziyyət şərh edilir, Türkiyənin Kipr adasında yunan mənşəli terrorçuların fəaliyyətini dayandırmaq niyyətinin olduğu bildirilirdi [6, v. 4.17].

Xruşşov fevralın 7-də İnönüyə cavab məktubu göndərdi. Sovetlər Kiprə silahlı müdaxilənin əleyhinə çıxdı. Adaya beynəlxalq qüvvələrin göndərilməsinə etiraz etdi. Baş verən hadisələrdə Türkiyəni təqsirləndirdi. Bununla belə, Xruşşov sovet dövlətinin adada yaşayan hər iki icmanın hüquqlarının müdafiə edilməsinə, problemin dinc vasitələrlə həllinə tərəfdar, enosisə və terrora isə qarşı çıxdı. Sovet hökumətinin SSRİ ilə Türkiyə arasında münasibətlərin inkişafını arzuladığını bildirdi [1, s. 70-71].

Başqa bir teleqramı Xruşşov Makariosa göndərdi. Teleqramda deyilirdi: "Kiprin müstəqilliyi və ərazi bütövlüyünün qorunması istiqamətindəki səylərinizdə sizə tam qələbə arzulayıram". Xruşşovun Makariosa teleqramı türk dairələrini hiddətləndirdi. Münasibətlər yenidən gərginləşdi. Nəticədə Türkiyənin xarici işlər naziri F. C. Erkinin Moskvaya planlaşdırılan səfəri təxirə

salındı [4, v. 203.3].

Bütün ziddiyyətli məqamlarına baxmayaraq, sovetlərin Kipr məsələsində mövqeyi Türkiyə üçün ciddi əhəmiyyət daşıyırdı. Çünki Türkiyə belə yanaşmanı indiyədək bir blokda olduğu NATO üzrə müttəfiqlərindən görməmişdi. Sovetlərin adanın enosisinə qarşı çıxması müsbət hal idi. Bununla belə, türk mətbuatı sovet mövqeyini tənqid etməyə başladı. "Milliyet" qəzetində dərc olunmuş "Kipr və sovetlərin mövqeyi" adlı məqalədə yazılırdı: "Azadlıq mübarizəsi dövründə doğulmuş türk-rus dostluğunu Stalin dağıtdı. Sovetlərin səhvi ucbatından Xruşşovun bu dostluğu bərpa edəcəyi yubanır". Türkiyə parlament nümayəndə heyəti SSRİ-yə səfər etsə də, sovet parlamentarilərinin Türkiyəyə səfəri Moskvanın Makariosu açıq şəkildə müdafiə etdiyi üçün Ankara tərəfindən təxirə salındı. Sovetlər Kiprin Yunanıstanla Türkiyə arasında bölüşdürülməsini də istəmirdi. Qəzet yazırdı: "Hər addımda Türkiyə ilə yaxşı münasibətlər qurmaq istədiyini bildirən şimal qonşumuz türk hökumətini ittiham edir, bununla da öz hərəkətlərini təkzib edir" [3, v. 84.1].

Xruşşovun məktubu Ağ evi hərəkətə gətirdi. Kipr məsələsi amerikan rəsmi dairələrində geniş müzakirə edilməyə başlandı. Bəzi rəsmilər "Kipr problemini həll etməkdən ötrü ABŞ Türkiyəyə etdiyi yardımları azaltmalıdır, onda türklər başlarını aşağı əyib deyilənləri qəbul edəcəklər" söyləyirdilər. Amerikan prezidentinə yaxın adam sayılan Ağ evin mətbuat məsələləri üzrə müşaviri Dru Pirson 1964-cü il fevralın 4-də və martın 4-də "Washington Post" qəzetində çap etdirdiyi məqaləsində "türklərə edilən yardımlar dayandırılsa, onlar ağıllanacaqlar, bundan sonra Kiprə iddia etməyəcəklər" yazırdı. Daha sonra qeyd edirdi ki, yardımların dayandırılması türklərin məhvinə gətirəcəkdir. Türkiyə iflasa uğrayacaqdır. Onda Kipr problemi özü-özündən həllini tapacaqdır. O yazırdı ki, bir zamanlar ABŞ-ın müdafiəsi üçün Türkiyənin böyük əhəmiyyəti olmuşdur. İndi isə ABŞ-ın özünü qorumaq üçün kifayət qədər silahları vardır. Türkiyənin müdafiə qabiliyyətinin möhkəmlədirilməsi yükünü Ağ ev öz üzərinə götürməməlidir. Digər rəsmilər isə "Türkiyəyə yardımların kəsilməsi yoxsulluq və çətinlik gətirəcəkdir. Antiamerikan əhval-ruhiyyə güclənəcəkdir. Türkiyənin dostlarının başında ABŞ durur. Ondan uzaqlaşmaq olmaz" deyirdilər [1, s. 73].

Beləliklə, Kipr məsələsi SSRİ ilə ABŞ arasında soyuq müharibə forması aldı. Problemin həlli dalana dirəndi.

Bu zaman adada türk hərbçilərinin sayı 65 min nəfərə çatırdı. Problemə dair suala cavab verən prezident Gürsel "elə etmək lazımdır ki, ruslar bundan istifadə edib çay pulu yığmasınlar" dedi. Makariosun SSRİ ilə münasibətlərinə dair suala cavab verən Gürsel "ruslar Kiprlə deyil, Makariosla yaxınlaşırlar. Ona görə də biz qan qardaşlarımızın qanının axıdılması ilə razılaşa bilmərik" deyə vurğuladı. Türkiyədə bəziləri sovet təhlükəsinin aşağı düşməsinin NATO daxilində soyuq münasibətlərin yaranmasına səbəb olduğunu deyirdi. Şükrü

Baban "Yeni Sabah" qəzetinin 1964-cü il 2 mart tarixli sayında "sovetlərə qarşı yaradılmış Qərb bloku rus təhlükəsinin azaldığını görüb bir-birini inkar edir" yazırdı [2].

Adada qanlı hadisələr nəticəsində yaranmış ağır vəziyyət BMT-də geniş müzakirə edildi. Sovet diplomatiyası adaya NATO qüvvələrinin yeridilməsinin əleyhinə çıxdı. SSRİ 1964-cü il mart ayının 4-də BMT Təhlükəsizlik Şurasının iclasında iki icma arasında qan tökülməsinin qarşısını almaq məqsədi ilə adaya BMT ordularının göndərilməsinə səs verdi. Buna baxmayaraq, adada türklərə qarşı qətllər hələ də davam edirdi. Törədilən qırğınları dayandırmaqdan ötrü Türkiyə təyyarələri 1964-cü ilin yayında yunan hərbi hissələrini bombardman etdi. Adada iki icma arasında yaranmış ağır vəziyyət NATO üzvləri olan Yunanıstanla Türkiyə arasındakı münasibətləri kəskinləşdirdi. NATO-nun cənub qanadı xeyli zəifləmiş oldu [7, s. 67].

Xruşşov 1964-cü il aprel ayının əvvəllərində çıxış edərək "Kipr hadisələrinə kənardan müdaxilənin yolverilməz olduğunu, qan tökülməsinin dayandırılması vacibliyini" bildirdi. Bu bəyanat Türkiyədə rəğbətlə qarşılandı. Xarici işlər naziri Erkin belə mövqeni "nəhayət, bizim böyük qonşumuz həqiqəti görməyə başladı" kimi qiymətləndirdi. Bununla belə, sovetlər hələ də Makariosu müdafiə edirdi. SSRİ Makariosa silah verirdi. "Hürriyet" qəzeti "75825 №-li rus təyyarəsi Nikosiya hava limanında yerə endikdən sonra ciddi təhlükəsizlik tədbirləri həyata keçirildi. Təyyarədən çoxlu qutular boşaldılaraq naməlum istiqamətə aparıldı. Qutularda silahın olduğu güman edilir" yazırdı [4, v. 203].

Belə bir mürəkkəb siyasi şəraitdə SSRİ-dən ixrac edilən Kommunist təhlükəsi adanın parçalanmasına təsir edən faktorlardan biri idi. ABŞ-ın Kiprdəki səfiri T. Belcher 1964-cü il aprelin 7-də Dövlət Departamentinə göndərdiyi teleqramda Kommunist Partiyasının rəhbərliyi altında Kiprin müstəqil olmasını Türkiyə hökumətinin qəbul etməyəcəyini vurğulayırdı. O, Kiprin Yunanıstanın tərkibində NATO təhlükəsizlik sisteminə daxil olması ilə Türkiyənin mövqelərinin yumşalacağını yazırdı. Lakin Türkiyə Kiprin Yunanıstan daxilində NATO sisteminə girməsinə razı deyildi.

Moskvadan geniş dəstək alan Kipr Kommunist Partiyası olan AKEL (Zəhmətkeşlərin İrəli Tərəqqi Partiyası) Makariosla əməkdaşlıq edirdi. Sov.İKP və AKEL Kiprdə kommunist rejimi qurmağa çalışırdılar. SSRİ Kiprdə kommunist təşkilatını gücləndirirdi. Kiprli yunanları Qərb ölkələrinin əleyhinə yönəldirdi. SSRİ AKEL-in köməyi ilə Aralıq dənizində mövqelərini möhkəmləndirmək, istəyinə çatmaq istəyirdi. Kipr əhalisinin 78,8%-i yunandı. Onların da üçdə biri kommunist idi. AKEL üzvlərinin 55%-ini yunanlar təşkil edirdi [1, s. 75].

Kipr türkləri arasında kommunistlər çox az idi. Kommunizmə qarşı duran dünya lideri ABŞ və müttəfiqi Türkiyə kommunistlərlə əhatə olunmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Buna görə də Türkiyə adada baş verən hadisələrə

biganə qala bilməzdi.

Xruşşov Kipr böhranının əvvəlində Yunanıstana müraciət edərək Kritlə Rodos adası arasında yerləşən Karavi adasını almaq istəmişdi. SSRİ bu adada hərbi baza yaratmaq niyyətində idi. Lakin Yunanıstan hökuməti dumanlı cavab vermişdi. Bundan sonra sovetlər Kipr adasında baş verən hadisələrdən istifadə etməyə başladı.

Kipr "Aralıq dənizinin Kubası"na çevrilmişdi. Kuba təhlükəsizlik baxımından amerikanlar üçün hansı strateji əhəmiyyəti daşıyırdısa, Kipr də Türkiyə üçün o əhəmiyyəti daşıyırdı. Kubadakı sovet raketləri ABŞ-ı necə təhdid edirdisə, Kiprin enosisi və ya sovetlərin nüfuzu altına düşməsi Türkiyəni ondan da artıq təhdid edirdi. Kipr iki sistem dövlətləri arasında soyuq müharibə meydanına çevrilmişdi. Kipr məsələsində Türkiyənin geri çəkilməsi nəinki Aralıq dənizində və Yaxın Şərqdə nüfuzunun itirilməsinə, eyni zamanda milli təhlükəsizliyi üçün təhdidin artmasına gətirərdi.

Qərb bloku ölkələrinin Kipr məsələsində tutduğu mövqe sovetləri hərəkətə gətirdi. İnönü və Gürselin müsahibələrindən sonra Ankaradakı sovet səfiri xeyli fəallaşdı. Səfir Nikita Rıjov xarici işlər naziri Erkin tərəfindən qəbul edildi. Söhbətdə səfir Sovet İttifaqının Türkiyənin iqtisadi inkişafına kömək göstərə biləcəyini söylədi. Səfir daha çox yardımlar, kreditlər, Sovet İttifaqının Türkiyənin maraqlarına zərbə vurmayacağı barədə ifadələr işlətməyə başladı. Erkin sovet səfirinə "Kipr məsələsində Türkiyənin NATO üzrə müttəfiqləri onu tamamilə tək qoydu" dedi. Rıjov isə "Kipr məsələsi üstündə Türkiyə ilə SSRİ arasında münasibətləri pozmaq lazım deyildir. SSRİ Kipr məsələsində Türkiyə əleyhinə cəbhə yaratmamışdır. Onun bu məsələdə mövqeyinin səbəbi SSRİ-nin daxili siyasi şərtləri ilə bağlıdır" deyə cavab verdi. Səfir Türkiyəyə sovet yardımlarının mümkünlüyü barədə danışaraq müəssisələrin tikintisi və yardımlar edilməsi barədə geniş söhbət açdı. Erkin sovet yardımları barədə təkliflərə baxmağın Kipr məsələsinə münasibətdən keçdiyini səfirə açıq şəkildə bildirdi. Görüşdən sonra türk rəsmi dairələri ölkənin xarici siyasətində dəyişikliklərin olacağı barədə danışırdılar [1, s. 79]. Səfir bir qədər keçmiş türk rəsmi adamları ilə söhbətlərində SSRİ-nin birtərəfli qaydada enosislə heç vaxt razılaşmayacağını söylədi [8, s. 200].

Sovetlərin Kiprin enosisinə qarşı çıxması əbəs deyildi. Yunanıstanın adaya təktərəfli yiyələnməsi ilə regiona NATO hökmran olardı. Nəinki ada, həmçinin Aralıq dənizi tamamilə Qərb blokunun nəzarətinə keçə bilərdi. Sovetlər eyni zamanda adanın Türkiyənin nəzarəti altına keçməsinə də razı deyildi. Çünki yenə də eyni vəziyyət yarana bilərdi. Buna görə də sovetlər Kipr problemindən istifadə edərək türk-yunan ziddiyyətlərini qızışdırıb dərinləşdirərək NATO blokunu zəiflətmək məqsədi güdürdü.

1964-cü il mayın 5-də TBMM-də çıxış edən İnönü Moskvanın enosisin əleyhinə olduğunu, sülh və təhlükəsizlyi istədiyini bildirdi [5, v. 7].

Belə bir şəraitdə SSRİ-nin Türkiyədəki səfirliyinin fəaliyyəti daha da genişlənirdi. Səfirlik əməkdaşları Türkiyənin müxtəlif, o cümlədən dini dairələri ilə əlaqələrin qurulmasına xüsusi diqqət yetirməyə və görüşlərə başladılar.

Türkiyə hökuməti avqust ayının 17-də bütün dünya ölkələrinin hökumətlərinə Kipr məsələsi ilə bağlı müraciət etdi. Müraciətdə adada türklərə qarşı 1963-cü il dekabrın 21-də başlayan kütləvi qırğınlar, türklərin olmazın əzab-əziyyət çəkdikləri, türk kəndlərinin hücumlara məruz qaldıqları qeyd olunur, problemin həllinə kömək xahiş edilirdi [3, v. 87].

Lakin bu müraciət də NATO ölkələri tərəfindən soyuq qarşılandı. Qərb blokundakı müttəfiqləri Kipr məsələsində Türkiyəni ya başa düşmür, ya da başa düşmək istəmirdilər. Belə bir şəraitdə SSRİ-nin Türkiyəni müdafiə etməsi artıq bütün beynəlxalq sistemə, Ankaranın müttəfiqləri ilə münasibətlərinə ciddi təsir edən amillərdən biri oldu.

Yaranmış ağır şəraitdə türk hökuməti aşağıdakı istiqamətlərdə müzakirələr açmağı təklif etdi: Birincisi, Kipr problemi Türkiyənin milli problemidir. Onun həlli zamanı Türkiyənin və kiprli türklərin əleyhinə qərar qəbul edilə bilməz. İkincisi, Yunanıstan hökumətinin mövqeyi sovet-türk dostluğunu tamamilə dağıtmışdır. Ona görə də Türkiyə Yunanıstana qarşı sərt siyasət yeritməlidir. Üçüncüsü, Türkiyənin haqlı olduğu Kipr məsələsində Qərbdəki müttəfiqləri, o cümlədən ABŞ və Böyük Britaniya Türkiyəni müdafiə etmədilər. Bu isə Qərbə olan inamı azaldır. Xarici siyasətə yenidən baxmağı zəruri edir. Lakin bu, Qərb blokundan ayrılmaq demək deyildir. Türkiyə Qərb bloku daxilində daha müstəqil siyasət yeritməlidir [4, v. 203].

Yunanlar adanın Yunanıstana birləşdirilməsindən ötrü ABŞ və SSRİ-nin razılığını almaq istəyirdi. 1964-cü il sentyabrın 30-da ABŞ dövlət katibi Dean Rusk ilə Vaşinqtonda danışıqlar aparan Kiprin xarici işlər naziri Kiprianu Moskvaya getmək istədiyini, sovetləri incitmək istəmədiyini dedi. Adanın Yunanıstana birləş-dirilməsinə ABŞ və SSRİ-nin razılığını verəcəkləri təqdirdə Türkiyənin heç bir hərbi hərəkət etməyəcəyinə zəmanət verib-verməyəcəyini soruşdu. Səfərinin əsas məqsədinin sovet rəhbərlərinə Kiprin Yunanıstanla birləşdirilməsini izah etmək olduğunu dedi. ABŞ dövlət katibi bunun onun şəxsi işi olduğunu bildirdi. Amma “özünü SSRİ ilə birlikdə hərbi və siyasi təhlükəsizlikdə görmək böyük səhv olacaqdır” dedi. Xüsusi vurğuladı ki, Varşava paktı ilə NATO, SSRİ ilə ABŞ arasında narahatlıq var. Bu, Kipri məhv edə bilər. Kiprianu adaya müdaxilə olacağı təqdirdə SSRİ-nin proseslərə birtərəfli qaydada qarışacağını xatırlatdı. Rusk bildirdi ki, Sovet İttifaqının əsas məqsədi başqa insanlar üçün çətinlik və NATO ittifaqı daxilində gərginlik yaratmaqdır. Sovetlər belə hallarda ikiqat və üçqat oyun oynayır. O, SSRİ-nin Türkiyənin enosisə qarşı getməsini təşviq etməsi mümkünlüyünü dedi. Kiprianu Moskvadan qayıtdıqdan sonra Kiprdəki amerikan səfiri Belcherlə görüşərək səfəri barədə məlumat verəcəyini bildirdi. Rusk “sovetlərin müdaxiləsi yalnız

Türkiyənin qarşısını almağa xidmət etmir" dedi [1, s. 91].

1964-cü ilin payızında Kiprianu Moskvaya səfər etdi. O, enosis məsələsində Moskvanın dəstəyinə ümid bəsləyirdi. Lakin amerikanların dediyi kimi, Kiprianu sovetlərin özlərinin yaratdığı problemin həllində enosisə razı olmayacağını heç bir zaman başa düşmədi. Moskvadakı görüşlərində Kiprianu adadakı ermənilərin türk zülmündən daha çox əziyyət çəkdiklərini qabartdı. Bununla o, Mikoyanın sovet rəhbərlərindən biri olmasından istifadə edərək erməni məsələsini istismar etmək istəyirdi. Lakin SSRİ xarici işlər nazirinin müavini V.V. Kuznetsov Kiprianuya birbaşa dedi ki, sovet hökuməti Kiprin müstəqil qalmasına üstünlük verir. Enosis Kipri NATO birliyinə üzv edəcəkdir. Beləliklə, Aralıq dənizi NATO-nun nüfuz dairəsinə düşəcəkdir. SSRİ enosisə razı ola bilməz. Bununla belə, Kuznetsov Kipr əhalisinin enosisi qəbul edəcəyi təqdirdə sovet hökumətinin bu seçimə hörmət bəsləyəcəyini də bildirdi. Sovetlərin xalqın enosisi qəbul edəcəyi ilə bağlı düşüncələri türk-yunan ziddiyyətlərini qızışdırıb NATO-nu zəiflətmək niyyəti güdürdü [1, s. 91-92].

Kiprianu Moskvada keçirdiyi danışıqlar barədə BMT sessiyası keçirilən zaman amerikan nümayəndə heyətinə ətraflı məlumat verdi. "Kiprin müstəqilliyi, ərazi toxunulmazlığı və suverenliyi kimi məsələlərdə sovetlərin dəstəyinə inandığını" dedi. Kipruanu adada yaşayan kiçik erməni azlığının türklərin əllərindən əziyyət çəkdiyini yenidən xüsusi vurğuladı. Amerikanlar problemin sovetlərlə yaxınlaşmaqla həll ediləcəyinə inanmadıqlarını bildirdilər [9, s. 342].

Bütün səylərinə baxmayaraq, ABŞ və Qərb ölkələri 1964-cü ildə Türkiyəyə Kiprə müdaxilə etməyə imkan vermədi. Əslində müdaxilə üçün bu dövrdə münasib şərait yetişməmişdi.

## Ədəbiyyat

1. Qasımlı M. SSRİ-Türkiyə münasibətləri (Türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək). I cild. 1960-1979. Bakı, "Adiloğlu" nəşriyyatı, 2007.
2. "Yeni Sabah" gazetesi, 1964, 2 mart.
3. АВПРФ, ф.132, референтура по Турции, оп.54, папка 173, д. 9.
4. АВПРФ, ф.132, референтура по Турции, оп.54, папка 173, д. 11.
5. АВПРФ, ф.132, референтура по Турции, оп.54, папка 173, д.12.
6. Письмо И.ИненюН.С.Хрущеву от 5 января 1964 г.-АВПРФ, ф.132, оп.54, папка 172, д.1.
7. Поцхверия Б.М. Турция и кипрский вопрос. Политика Англии на Ближнем и Среднем Востоке, М.: Наука, 1966.
8. Annexation of Cyprus by Great Britain", The American Journal of nternational Law, Cilt 9, No. 1, 1915, p. 204.
9. Memorandum of Conversation. Washington, February 4, 1965.-Foreign Relations of the USA. 1964-1968. Vol.XVI. Cyprus, Greece, Turkey, doc.№175.

# GƏNCƏNİN İŞĞALINDAN KÜRƏKÇAY MÜQAVİLƏSİNƏDƏK QARABAĞ-RUSİYA QARŞIDURMASINA DAİR

**Hacı Həsənov**
**A.A. Bakıxanov adına Tarix İnstitutu**
**hacihasanov@mail.ru**

***Açar sözlər:*** *Qarabağ, Şuşa, İbrahimxəlil xan, Gəncə, Sisianov, Kürəkçay*

*Mövcud məqalədə mötəbər ilkin qaynaqların əsasında, ilk növbədə XIX əsr Qafqaz tarixi üzrə əsl xəzinə olan qaynaqların məlumatları üzrə, dəqiq desək, "Qafqaz Arxeoqrafiya Komissiyasının Aktları"nın materialları üzrə Qarabağ xanlığının sonuncudan əvvəlki hökmdarı İbrahimxəlil xanın Qafqazdakı rus qoşunlarının baş komandanı general P.D.Sisianovla qarşılıqlı münasibətlərinin bəzi maraqlı tərəfləri nəzərdən keçirilir.*

*Mötəbər obyektiv məlumatlara, bu tarixi raritetlərin məşhur Qafqaz-şünas A.Berjenin rəhbərliyi altında tərtib edilmiş (yeri gəlmişkən bu qaynağın yaradılmasında iştirak etmiş adamların sırasında Mirzə Fətəli Axundov da vardı) qiyməti bilinməyən xəzinəsindən toplanmış çılpaq faktlara söykənərək, biz bu Azərbaycan xanı və rus generalının 1804-cü ilin əvvəlindən 1805-ci il mayın 14-də Kürəkçay müqaviləsinin imzalanmasınadək olan dövrdə qarşılıqlı münasibətlərinin təkamülünün gedişini və nəticələrini nəzərdən keçirməyə cəhd göstərmişik.*

*Bu qiymətli qaynaqlardan əxz edilərək gətirilmiş məlumatlar XIX əsrin əvvəlinin bu tarixi şəxsiyyətlərinin qarşılıqlı münasibətlərinin gedişini izləməyə imkan verir. Aparılmış tədqiqatlar müstəmləkəçi generalın əsl qəsbkar məqsədlərini, açıq-aşkar qaba müstəmləkəçi hərəkətlərini, habelə İbrahimxəlil xanın XIX yüzilliyin əvvəllərində Qarabağ xanlığının suverenliyini real şəkildə hədələyən müxtəlif ciddi güclər arasında manevr etmək istəyini, xanın hansı yollarla olursa-olsun öz hakimiyyətini və xanlığın müstəqilliyini qoruyub saxlamaq cəhdlərini göstərir.*

*Gətirilmiş materiallar həmçinin xan ailəsinin özünün daxilindəki qarşılıqlı münasibətlərin bəzi mürəkkəb məqamlarını nəzərdən keçirməyə imkan verir. Aydın olur ki, müstəmləkəçilər öz qəsbkar məqsədlərinə çatmaq üçün heç bir üsuldan imtina etmirdilər.*

# К КАРАБАХО-РОССИЙСКОМУ ПРОТИВОССТОЯНИЮ ОТ ОККУПАЦИИ ГЯНДЖИ ДО КУРАКЧАЙСКОГО ДОГОВОРА

**Гаджи Гасанов**

***Ключевые слова:*** *Карабаг, Шуша, Ибрагимхалил хан, Гянджа, Цицианов, Кюрекчай*

*В настоящей статье на основе достоверных первоисточников, в первую очередь, по сведениям настоящей кладези по истории Кавказа XIX века, а точнее по материалам «Актов, собранных Кавказской Археологической Комиссией», рассматриваются некоторые интересные стороны взаимоотношений предпоследнего государя Карабагского ханства Ибрагимхалил хана с главнокомандующим российскими войсками на Кавказе генералом П.Д.Цициановым.*

*Опираясь на объективные, достоверные сведения, только на голые факты, собранные в этом бесценном кладезе исторических раритетов, составленный под руководством известнейшего кавказоведа А.Берже (кстати, среди тех людей, которые участвовали в создании этого источника был и Мирза Фатали Ахундов), мы попытались рассмотреть ход эволюции и итоги взаимоотношений этого азербайджанского хана и российского генерала с начала 1804 до заключения Кюрекчайского договора 14 мая 1805 года.*

*Приведенные сведения, исчерпанные из этих бесценных источников, позволяют следить за ходом взаимоотношений этих исторических лиц начала позапрошлого века. Проведенные исследования показывают истинные захватнические цели, неприкрытые грубые колониальные замашки генерала-колонизатора, а также стремление Ибрагимхалил хана лавировать между различными серьезными силами, которые в начале XIX столетия реально угрожали суверенитету Карабахского ханства и попытки хана как-то сохранить свою власть и самостоятельность ханства.*

*Приведенные материалы так же позволяют рассмотреть некоторые сложные моменты во взаимоотношениях среди самой ханской семьи. Становится ясным, что для достижения своих захватнических целей колонизаторы не чурались никакими методами.*

# FROM THE OCCUPATION OF GANJA TO THE KURAKCHAY AGREEMENT CONFRONTATION BETWEEN KARABAKH and RUSSIA

**Haci Hasanov**

***Keywords:*** *Karabagh, Shusha, Ibrahimkhalil khan, Ganja, Tsitsianov, Kurakchay*

*In this article, based on reliable primary sources, first of all, according to this treasure trove of the history of the Caucasus of the 19th century, and more precisely, based on the materials of the "Acts collected by the Caucasian Archaeological Commission", some interesting aspects of the relationship between the penultimate sovereign of the Karabakh Khanate, Ibrahimkhalil khan, and the commander-in-chief of the Russian troops in the Caucasus by General P.D. Tsitsianov are considered.*

*Relying on objective, reliable information, only on bare facts collected in this invaluable storehouse of historical rarities, compiled under the guidance of the famous Caucasian scholar A.Berger (by the way, Mirza Fatali Akhundov was among those people who participated in the creation of these sources), we tried consider the course of evolution and the results of the relationship between this Azerbaijani khan and the Russian general from the beginning of 1804 until the conclusion of the Kurekchay Treaty on May 14, 1805.*

*The above information, exhausted from these invaluable sources, allows us to follow the course of the relationship between these historical figures of the beginning of the century before last. The conducted studies show the true predatory goals, the undisguised coarse colonial manners of the colonial general, as well as the desire of Ibrahimkhalil khan to maneuver between various serious forces that at the beginning of the 19th century really threatened the sovereignty of the Karabakh Khanate and the khan's attempts to somehow maintain his power and independence of the Khanate.*

*The above materials also allow us to consider some difficult moments in the relationship among the khan's family itself. It becomes clear that the colonialists did not shy away from any methods in order to achieve their predatory goals.*

Məlum olduğu kimi, artıq XIX yüzilliyin əvvəllərində romanovlar Rusiyası imperiyanın cənub istiqamətində çoxdan bəri hərisliklə baxdığı ölkələrin bır hissəsini, o cümlədən Güney Qafqazın böyük bır hissəsini təşkil edən Quzey Azərbaycanı işğal etməyə nail olmuşdur.

Romanovların Cənubi Qafqaz işğallarında mühüm rol oynamış general P.D.Sisianovun qısamüddətli baş komandanlığı dövründə (sentyabr, 1802-

fevral, 1806) müstəmləkəçilərin Azərbaycanın feodal hökmdarlarına qarşı yürütdükləri siyasət özünün qatı mürtəceliyi, eybəcərlikləri, kobudluğu və qeyri-insaniliyi ilə xüsusilə fərqlənmişdi.

Bu kiçik məqalədə biz Gəncənin işğalından Kürəkçay müqaviləsinədək İbrahimxəlil-Sisianov münasibətlərində baş vermiş bəzi əsas proseslərə işıq salmağa çalışacağıq.

1803-cü ilin sonlarında Cavad xanla hərbi-siyasi çarpışmanın qızğın çağında Qarabağ hökmdarına çox məhrəmanə məktublar yazan, saxta tərifləri ilə İbrahimxəlil xanın "başının altına yumşaq-yumşaq yastıqlar qoyan" Pavel Dmitriyeviç Gəncənin işğalından, Cavad xanın şəhadətindən cəmisi beşcə gün sonra - 1804-cü ildə il yanvarın 8-də İbrahimxəlil xana həqarətyana, yekəxana, həyasız və hədələyici tələblərlə dolu bir məktub [3, s.696] yazır: "Cavad xanın qüruru qanla yuyuldu və mənim ona yazığım gəlmir, çünki Allah vüqarlıların əleyhinədir; lakin onun öz qismətinə məruz qoyduqlarına təəssüflənirəm. Mən ümid edirəm ki, siz alihəzrət ona oxşamaq istəməyəcəksiniz və belə bir ümumi qaydaya əməl edəcəksiniz ki, zəif güclüyə ram olur və onunla dartışmağı arzulamır". Bunun ardınca bu müştəbeh işğalçı Qarabağ hökmdarından tələb edir ki. Guya ki qarabağlılar tərəfindən Cavad xan və Gəncə sakinlərinin qovulub aparılmış mal-qarasını geri qaytarsın, Məlik Cəmşidin həbsdə olan oğlu Bahramı və nəvəsi Astvasaturu azad edib ruslara təhvil versin, Qarabağ xanlığının Rusiya tabeliyinə keçməsi barədə şərtlərin müəyyənləşdirilməsi üçün xan ya etibar etdiyi bir məmurunu və ya öz övladlarından birini Sisianovun yanma, Gəncəyə göndərsin [3, s.696]. Bir neçə o, dedi: "arasında qalmış İbrahimxəlil xan bu güclərin əhatəsində manevrlər edərək hakimiyyətini, dövlətini qoruyub saxlamağa çalışsa da, boğucu həlqə sürətlə daralırdı. Təxminən bir aydan sonra - 1804-cü il fevralın 4-də Sisianov xana növbəti məktubunda [4, s.696] qəzəblə yazırdı ki, "sizin işin mahiyyətinin bir damcısını belə özündə ehtiva etməyən, lakin hiyləgər İran ruhunu tam dolğunluğu ilə ifadə edən məktubunuzu aldım; Mirzə Məmmədəliyə verdiyiniz nə şifahi ismanşlan, nə də sizin etdiyiniz kimi, möhürsüz və imzasız göstərişlərinizi qəbul etmirəm və belə siyasətinizi siz də, Cavad xan kimi qanınızla ödəyəcəksiniz. Mən sizin mütiliyinizi və təbəəliyinizi arzulamıram, çünki mən İran sədaqətinizə, küləyə nə qədər ümid etmək mümkündürsə, o qədər ümid edirəm..." Hədəsini davam etdirən Sisianov daha sonra xana yazırdı ki, "Novruzu gözləyin, Baba xanın (Qacar şahı Fətəlinin - müəl.) köməyini gözləyin, mən isə öz vaxtında, gözlənilmədən sizə baş çəkəcəyəm. Bilirəm ki, mən Gəncə ətrafinda dayananda siz ağacdakı yarpaq kimi əsirdiniz... mən hələ Gəncəyə gəlməmişkən qorxaq dovşan və yaltaq tülkü kimi Şəmşəddil murovu Andronikovun yanına adam göndərmişdiniz... Mənə inanın ki, sizin qalanızın alınmazlığı ruslar üçün asan iş olacaqdır, vaxtı gələndə siz bunu işdə görəcəksiniz, - Cavad xan da ta torpağı dişləyənə qədər belə danışırdı. Mən

sözümə əməl etməyi bacarıram. Dünyada eşidilibmi ki, milçək qartalla danışıqlar aparsın; - güclüyə əmr etmək xüsusiyyəti məxsusdur, zəif isə güclüyə tabe olmaq üçün doğulmuşdur" [4, s. 696]. Rusiya-Qacar müharibəsinin aktiv fazasının sürətlə yaxınlaşmasına və daha sonra başlamasına baxmayaraq Sisianov Qarabağı qamarlamaq niyyətini bir an belə unutmur, qoca Qarabağ hökmdarını gərginlik və qorxu içərisində saxlamağı özünün əsas vəzifələrindən biri sayırdı. O, 1804-cü il mayın sonunda yazdığı məktublardan birində [5, s. 697] İbrahimxəlil xan Qarabağlıya müraciətən qeyd edirdi ki, "hərçənd ki, sizin davranışınız həm Gəncə sakinlərinin sizdə olan və mənim tələbimə rəğmən qaytarılmamış ilxısı üzrə, habelə mənim gözətçi dəstəmə hücumunuz baxımından, üstəlik əvvəllər Gəncə adlanan Yelizavetpoldan axırıncı dəfə 292 atm sürülüb aparılması İsrafil bəyin mənə təqdim etdiyi məktubunuza müvafiq deyildir, mən gərək sizə tərəf çıxmayaydım, öz adətləri üzrə sizin gözlərinizi çıxararaq və ya bumunuzu, qulağmızı kəsəcək iranlılardan sizi müdafiə etməyəydim; - hərçənd ki, mən sizi onların əlinə verməli və sonradan Şuşam onlardan almalı idim..." [5, s.697]. Lakin general bütün ədabazlığı ilə "mərhəmətli" Rusiya çarının adından İbrahim xam "böyük lütfkarlıqla" bağışlayıb onu aşağıdakı şərtlərlə "Ümumrusiya İmperiyasının təbəəliyinə" qəbul etməyə caiz sayırdı. Xan:

1) Sarsılmaz sədaqətə əməl etməli;
2) Bunu Sisianovun göndərəcəyi məmur qarşısında öz andı ilə təsdiq etməli;
3) Rus qoşunlarının yerləşməsi üçün qala verməli;
4) Böyük oğlunu ruslara "əmanət" (əslində girov - müəl.) verməli və
5) Hər il Rusiyaya 10000 çervon təzminat ödəməli idi [5, s. 697].

Sisianov elə həmin gün Rusiya imperiyasının xarici işlər naziri knyaz A.E.Cartonyskiyə məktubunda [6, s. 697-698] bildirdi ki, Qacar qoşunlarının yaxınlaşmasından qorxuya düşmüş İbrahimxəlil xan çaparla Sisianova məktub göndərib Rusiya himayəsinə keçməyə, çara sədaqətlə xidmət etməyə hazır olduğunu bildirərək, ondan hərbi qüvvə ilə yardım istəyib. Sisianov isə cavab məktubunda xanın qarşısında yenə də yuxanda sadaladığımız tələbləri yenidən irəli sürmüşdür. Ancaq Sisianov xarici işlər nazirinə etiraf edirdi ki, rus alaylarının tam komplektləşdirilməməsi, habelə yollan su basdığına görə payızadək əlavə qüvvələr ala bilməyəcəyi səbəbindən İbrahim xana hərbi yardım göstərməkdə çətinlik çəkir [6, s. 697-698].

Artıq 1804-cü ilin payızında Sisianov Qarabağ xanlığının Rusiyaya ilhaq edilməsinin rəsmiləşdirilməsi istiqamətində real addımların atılmasına başladı. Belə ki, o, 1804-cü il oktyabrın 13-də gürcü zadəgan Ninia Corayevə xüsusi məktubla İbrahimxəlil xanın yanına - Şuşaya getməyi əmr edir [13, s.697]. O zaman üçün çox böyük məbləğdə - 300 çervon ezamiyyət xərci (görünür ki, bu, təkcə ezamiyyət xərci deyildi, ola bilsin ki, bu vəsaitdən ələ almalar üçün də

istifadə edilməli idi - müəl.) almış Corayev qarabağlıların Gəncədən sürüb apardıqları ilxının geri qaytarılmasını təkidlə tələb etməli olsa da, onun başlıca vəzifəsi xanı Rusiya təbəəliyini qəbul etməyə meyilləndirmək idi. Sisianovun Corayevə məktubunda qeyd edilirdi ki, "xana təlqin edin ki, o, Rusiya təbəəliyini axtarsın. O, bu təbəəliyə aşağıdakı şərtlərlə qəbul oluna bilərdi:

1) Şuşa qalasında... rus qarnizonu yerləşdirilməli...;
2) Xanın böyük oğlu və ya nəvəsi girov verilməli;
3) Xanlıq hər il Rusiya xəzinəsinə 8000 çervon təzminat (deməli, general artıq iştahım bir qədər "gödəldib" 10000 çervondan 8000-ə düşmüşdü - müəl.) ödəməli və
4) Xanlıqdan keçib gedənlərin (təbii ki, Rusiyanın adamlarının - müəl.) təhlükəsizliyini təmin etməli idi [13, s.697].

Etiraf etmək lazımdır ki, Qarabağın azadlıq və müstəqilliyi kimi taleyüklü məsələlərin həll olunduğu belə bir mühüm dövrdə nəinki xanlığın əyanlan, heç xan ailəsinin öz içərisində fikir, mövqe birliyi yox idi. İbrahimxəlil xanın tərəddüdlər içərisində çırpındığı, çıxış yolu axtarışlarında min bir vasitəyə əl atdığı bir dövrdə onun böyük oğlu Məhəmmədhəsən ağa polkovnik Karyaginə məxsusi məktub [10, s. 698] yazaraq ona bol-bol yaltaqlandıqdan sonra rus zabitinə bildirirdi ki, bundan əvvəl də "iran qoşununun burada olduğunu xəbər vermişdim. İndi, ötən ayın 10-da Dizaqda onlarla vuruşub qalib gəldik, oradakı iran xanlarının hamısını - Müqəddəm Məhəmməd xan, Nəsəkçibaşı Əli xan Kəngərlini və Maqsud bəyi tutmuşuq, 1000 nəfərədək süvari və piyadanı əsir almış, xeyli İran əsgərini qırmışıq" [10, s. 698]. Bundan cəmisi bir neçə gün sonra Sisianov 17-ci yeger alayın mayoru Lisaneviçə göstəriş vermişdi [14, s. 698] ki, Corayevlə birlikdə İbrahimxəlil xanın Rusiya təbəəliyinə keçməsinin sürətləndirilməsi işini ona tapşınr, ruslann hazırladığı traktatı xana təqdim etməyi, ancaq bu sənəddə heç bir dəyişiklik edilməsinə yol verməməyi vurğulayırdı. General həmçinin Lisaneviç və Corayevə xanı, bu traktatı imzalamaq üçün heç olmasa ikicə günlüyə məhz Yelizavetpola gəlməyi razı salmağı tapşırırdı (Yelizavetpolun görüş yeri kimi təkid olunmasının əsl "səbəbi'ni aşağıda elə bu müştəbeh generalın öz sözləri ilə açıqlayacağıq - müəl.). Bunun üçün belə bir bəhanə gətirir ki, "traktat mənim və onun adından yazıldığı üçün bizim tərəfimizdən hazırlanmalıdır. Ona görə də Yelizavetpoldan başqa bir yerdə yığışa bilmərik (niyə? -müəl.)... O, (xan - müəl.) heç nədən ehtiyat etməməlidir, çünki ruslar heç vaxt yalan danışmırlar; əgər əminlik üçün kimisə istəyərsə, kimi istədiyini bildirsin". Rusların özləri demişkən "Без комментарий!" Bu təlimat-əmrdə daha bir maraqlı məqam var: Sisianov tapşırır ki, xanın böyük oğlu Məhəmmədhəsən ağaya da xüsusi məktub verərək, "onunla təklikdə danışmağa çalışın və danışıq zamanı ona izah edin ki, bütün bu iş onun xeyrinədir, onun nəslinin xeyrinə ola bilər" [14, s. 698]. Sisianov həm də eyni zamanda Şirvanda olan Səlim xan Nuxalıya da təcili olaraq belə bir

məktubun çatdırılmasını əmr edirdi. Elə həmin tapşırıqda Sisianov Lisaneviçə xanla mülayim davranmağı, eyni zamanda Şuşa qalasmda rus qarnizonu üçün əlverişli və təhlükəsiz yerin müəyyənləşdirilməsini, habelə qalanın girəcəyini rus arabaları üçün əlverişli hala salmaq imkanlarım araşdırmağı əmr edirdi [14, s. 699]. QAKA-nın П cildində Sisianovun elə həmin gün - 1805-ci il yanvarın 16-da İbrahim xana və onun böyük oğlu Məhəmmədhəsən ağaya ünvanladığı ikinci təklifi də yer almışdır [ll,s.699-700; 12, s. 700].

İlk təklifdə İbrahimxəlil xandan razılıq haqqında Corayev və Məmməd ağa tərəfindən çatdırılan xəbərdən göyün yeddinci qatmda olan Sisianov xanın bu qərarım tərifləyir, ona vədlər verərək lovğalanır ki, “kim məni tanıyırsa xəbərdardır ki, mənim dilim yalan danışmır və mənim verdiyim söz porfərdən və qranitdən möhkəmdir!” [11, s. 700].

Məhəmmədhəsən xan ağaya təklifdən isə məlum olur ki, ağa generala iki məktub yazsa da, Sisianov onlara cavab verməyərək ağam pəjmürdəhal etmişdir. Bu təkliflə Sisianov ağanın könlünü bir qədər alaraq Avropa adətlərində baş rəhbərə yazandan sonra onun məmuruna yazmaq qaydasının olmadığını bəhanə gətirib ağam Rusiya meyilliliyinə görə tərifləyər, bu işin ilk növbədə onun xeyrinə olduğu, atasından sonra onun xan taxtına çıxacağını vurğulayır, Əbülfət ağa üzərindəki qələbəyə görə Fətəli şah tərəfindən cəzalandırıla biləcəyi ilə qorxudur [12, s. 700].

1805-ci ilin fevralında İbrahimxəlil xanın böyük oğlu ilə birlikdə Araz sahillərinə səfərindən bərk əndişələnən Sisianov [15, s. 700-701] polkovnik Karyaginə də, Lisaneviçə də dərhal məlumat yığmağı tələb etmişdir.

Bunun ardınca Sisianov hər bir vəchlə İbrahimxəlili bu traktatı imzalamağa təhrik edir, bu günü mümkün qədər yaxınlaşdırmaq üçün əlindən gələni əsirgəmirdi. Artıq 1805-ci il martın 14-də o yeni bir məktubunda Qarabağ hökmdarına yazırdı ki, əgər Yelizavetpolda görüşmək istəmirsənsə, onda sənin təyin etdiyin yerdə tezliklə görüşək ki, “mən səni qardaşım kimi qəbul edib və bağrıma basım!” [7, s. 701].

Sən demə bu üççə ayın içində “Qorxaq dovşan və hiyləgər tülkü” doğma qardaşa da çevrilə bilərmiş!

Cəmisi iki gün sonra Sisianov xandan xahiş edirdi ki, Qarabağ hökm-danmn əlində əsir olan iki qacar xanım (onlardan biri Təbriz bəylərbəyinin qohumu idi) bəylərbəyinin əlində olan gürcü knyazlarına dəyişsin. Buna görə general hətta xana 1500 çervon verəcəyini də bəyan edirdi [8, s. 701].

1805-ci ilin aprelində İbrahimxəlil xan, çox güman ki, çoxtərəfli məqsədlərlə, Sisianova məktubunda Fətəli şahın elçilərinin onun yanına xüsusi fərman və bol-bol vədlərlə gəldiklərim bildirməklə generalın əhvalını durultmuşdu. Lakin general dərhal xanın elçilərə nə cavab verdiyini yazmamağından təəccübləndiyini bildirərək, hələ Kürəkçayda müqavilənin imzalanmasına 19 gün qalmış - aprelin 25-də xana az qala əmr tonunda bildirir

ki, siz elçilərə deməliydiniz ki, “səmalara bərabər və günəşəbənzər böyük Ümumrusiya İmperiyasının ah himayəsinə və təbəəliyinə girərək Gürcüstan baş rəisinə (yəni Sisianova - müəllif.) əvvəlcədən xəbər vermədən və onun razılığı olmadan digər dövlətlər və qonşu hökmdarlarla heç bir danışıqlara girə bilməzsiniz!” [9, s. 702].

Məktubun sonunda general artıq 4 gündür ki, Yelizavetpolda olduğunu və səbirsizliklə xanla birlikdə müqaviləm imzalayacaqlarını gözlədiyini bildirirdi [9, s. 702].

Kürəkçay müqaviləsinin imzalanmasından beş gün əvvəl Sisianov imperiyanın xarici işlər naziri Çartonyskiyə yazndı ki, “sabah - mayın 10-da 4 batalyonla (! - hətta bu görüşə bu “igid” car generalı dörd batalyonluq qoşunla gedirdi! - müəllif.) Yelizavetpolun 3 ağaclığında İbrahim xan Şuşalı ilə görüşə gedərək Qarabağ xanlığının Rusiya himayəsi və təbəəliyinə keçməsinin rəsmiləşdirilməsini başa çatdıracaqlar. Nazirə elə bu məktubundaca Sisianov müqavilənin məhz Yelizavetpolda imzalanmasında israrlı olmasının səbəbini açıqlayır: “...bu görüş indiyədək başqa heç bir səbəbdən yox, ancaq ona görə ləngiyirdi ki, mən Rusiyaya daha böyük şöhrət (seyrəltmə bizimdir - müəllif.) üçün İbrahimxəlil xam Yelizavetpola dəvət etməyi arzulayırdım, ancaq o, asiyalılara xas olan güvənsizliyi ilə bununla razılaşmadı və bizim hüdudlarda - Kürəkçayın sahilində bu görüşə güclə razılıq verdi. O, artıq oraya gəlmişdir və bizim bu görüşümüzün nəticələri haqqında Siz zati-alilərə oradan məlumat vermək şərəfmə nail olacağam” [2, s. 702].

General Sisianov mayın 22-də, yəni Kürəkçayda İbrahimxəlil və Səlim xanlarla müqavilələrin imzalanmasından dərhal sonra çar I Aleksandra (1801-1825) raportunda [1, s. 702-705] böyük təmtəraqla çan yeni ərazilərin tutulması münasibəti ilə təbrik edir, Qarabağ xanlığının coğrafi mövqeyi, 85 yaşh İbrahimxəlil xanın şəxsiyyəti, xanlığın əhalisi, bu ilhaqın Rusiya üçün əhəmiyyəti haqqında məlumat verir, xan ailəsinin təltifi haqqında təklif və xahişlərini bildirirdi. Sonuna 14 may 1805-ci il tarixli Kürəkçay müqaviləsinin mətni əlavə edilmiş bu raportun axırında inianteriya generalı P.D.Sisianov başqalan ilə, o cümlədən Corayev, Lisaneviç, habelə ərəb (?!) dili tərcüməçisi Mirzə Abraam Yenikalopovla yanaşı bu məktubu və Şuşa qalasının açarlarını Peterburqdakı çar sarayına çatdırmış leyb-qvardiya İsmayıl alayının podporuçiki - öz yavəri kn. Sisianovun da təltif olunmasım xahiş edirdi.

Beləliklə, yuxanda gətirilən bəzi qaynaq materialları sübut edir ki, İbrahimxəlil xan Qarabağın müstəqilliyini qoruyub saxlamaq üçün nə qədər cəhdlər göstərsə də, hiyləgər və amansız Sisianovun şəxsində Rusiya işğalçıları bu xanlığı da qəsb edib, onu imperiyaya qata bildilər.

## Ədəbiyyat

1. Всеподданнейший рапорт кн.Цицианову, от 22 мая 1805 года, №19 //АКАК,т.П,док.1436,1238 с. - с.702-705.

2. Отношение кн. Цицианова к кн. Чарторыйскому, от 9 мая 1805 года, № 298 // АКАК, т. П, док. 1435, с.702.

3. Письмо кн. Цицианова к Ибрагим-хану, от 8 января 1804 года.Гянджа // АКАК,тДдок. 1416,с. 696.

4. Письмо кн. Цицианова к Ибрагим-хану, от 4 февраля 1804 года, №79// АКАК, т.П, док. 1417, с. 696.

5. Письмо кн. Цицианова к Ибрагим-хану, от 26 мая 1804 года, №261 // АКАК, т. II, док. 1420, с. 697.

6. Письмо кн. Цицианова к кн. Чарторыйскому,от 29 мая 1804 года,№297// АКАК, т.II,док. 1421,с. 697-698.

7. Письмо кн. Цицианова к Ибрагим-хану, от 14 марта 1805 года, №162//АКАК, т. II, док. 1431,с.701.

8. Письмо кн. Цицианова к Ибрагим-хану, от 16 марта 1805 года, №165 // АКАК, т. II, док. 1432, с.701.

9. Письмо кн. Цицианова к Ибрагим-хану, от 25 апреля 1805 года, № 279 // АКАК, т. II, док. 1434, с.702.

10. Письмо Мамед-Хасан аги, сына Ибрагим хана, к полк. Карягину, - получено 7 января 1805 года (перевод старый) // АКАК, т. П, док. 1423, с. 698.

11. Предложение кн. Цицианова Ибрагим хану, от 16 января 1805 года, №37 // АКАК, т. II, док. 1428, с. 699-700.

1429, Предложение кн. Цицианова к Мамед Хасан аге, от 16 января 1805 года, №39 // АКАК, т. II, док. с. 700.

12. Предписание кн. Цицианова грузинскому дворянину Ниниа Джораеву, от 13 октября 1804 года // АКАК, т. П, док. 1422, с. 697.

13. Предписание кн. Цицианова 17-го егерского полка майор Лисаневичу, от 16 января 1805 года, №11 //АКАК, т. II, док. 1425, с. 698.

Предписание кн. Цицианова полк. Карягинуот 26 февраля 1805года, №110//АКАК, т.П,док.

# ŞİMALİ AZƏRBAYCANIN ŞƏKİ BÖLGƏSİNDƏ İPƏKÇİLİKDƏ KUSTAR İSTEHSALI VƏ KAPİTALİST SƏNAYE FORMASINA KEÇİDİN ƏVVƏLİ

***Anar Məmmədov***
***Sumqayıt Dövlət Universiteti***
***bfazil4444@mail.ru***

***Açar sözlər:*** *Şəki, region, iqtisadi, ipəkçilik, sənaye, kapitalizm, kustar*

*İpəkçiliyin sənaye əsaslarına keçməsi çətin tarixi yol keçmişdir. Rus məmurlarının materiallarında bildirilir ki, XIX əsrin birinci yarısında çar hökuməti, xüsusi ilə rus burjuaziyası sənaye müəssisələrinin tələbatlarını ödəmək naminə əyalətlərdəki xammal məhsullarından istifadə məsələləri ilə ciddi maraqlanırdı.*

*Şəki bölgəsində ipəkçilik, tikinti materialları, geyim-məişət əşyaları və bəzi digər kustar istehsal sahələri istisna olmaqla, heç də hamısı sənaye istehsalının növbəti mərhələsinə keçməmişdir.*

*Bölgədə ipək emalı kustar xarakteri daşısa da, yenə də bir müddət, dəqiq desək, XIX əsrin sonlarına qədər öz yerini ipəkçiliyin sənaye əsasları üzərində qurulmasına verməyə tələsmirdi. Bunun ən əsas səbəbi bu idi ki, bölgədəki ipəkçilik fabriklərinin xammal kimi yalnız əla növ ipək saplardan istifadə edirdilərsə, kustar müəssisələrdə yerli istehsal olan daha aşağı keyfiyyətli ipək saplardan da istifadə etmək mümkün idi.*

## КУСТАРНОЕ ПРОИЗВОДСТВО ШЕЛКОВОДСТВО В ШЕКИНСКОМ РЕГИОНЕ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА И НАЧАЛО ЕГО ПЕРЕХОДА К КАПИТАЛИСТИЧЕСКОЙ ФОРМЕ ПРОМЫШЛЕННОСТИ

**Анар Мамедов**

***Ключевые слова:*** *Шеки, регион, экономика, шелководство, промышленность, капитализм, ремесло*

*Переход шелководства на промышленные основы прошел трудный исторический путь. В материалах русских официальных лиц указывается, что в первой половине XIX века царское правительство, особенно русская буржуазия, серьезно интересовались использованием сырья в провинции для удовлетворения нужд промышленных предприятий.*

*За исключением производства шелка, строительных материалов, одежды и предметов быта и некоторых других направлений кустарного производства в Шекинском районе, не все они перешли на следующий этап промышленного производства.*

*Хотя обработка шелка в регионе носила кустарный характер, она не спешила уступать место созданию шелководства на промышленных основах некоторое время, если быть точным, до конца XIX века. Основная причина этого заключалась в том, что в то время как шелковые фабрики региона использовали в качестве сырья только высококачественные шелковые нити, на кустарных предприятиях можно было использовать шелковые нити более низкого качества местного производства.*

## HOUSEHOLD PRODUCTION SILK BREEDING IN THE SHEKI REGION OF NORTHERN AZERBAIJAN AND THE BEGINNING OF ITS TRANSITION TO THE CAPITALIST FORM OF INDUSTRY

**Anar Mamedov**

***Keywords:*** *Sheki, region, economy, sericulture, industry, capitalism, handicraft*

*The transition of sericulture to an industrial basis has passed a difficult historical path. The materials of Russian officials indicate that in the first half of the 19th century the tsarist government, especially the Russian bourgeoisie, were seriously interested in the use of raw materials in the provinces to meet the needs of industrial enterprises.*

*With the exception of the production of silk, building materials, clothing and household items and some other areas of handicraft production in the Sheki region, not all of them have moved to the next stage of industrial production.*

*Although the processing of silk in the region was of an artisanal nature, it was in no hurry to give way to the creation of sericulture on an industrial basis for some time, to be precise, until the end of the 19th century. The main reason for this was that while the region's silk factories used only high quality silk threads as raw materials, artisanal enterprises could use lower quality locally produced silk threads.*

Şəki bölgəsində kapitalist sənayesinin formalaşması bir neçə mərhələdən keçmişdir. Bu sırada kustar istehsal sahələrinin keçdiyi inkişaf yolunun nəzərdən keçirilməsinin mühüm əhəmiyyəti var. İlk baxışda bu məsələ o qədər də ciddi təsir bir bağışlamasa da, əslində diyarın, eləcə də bölgələrin iqtisadiyyatında kustar istehsal üsulunun təxminən bir əsrdən çox davam edən gedişi ərzində əldə edilmiş nəticələr, görülmüş işlər sənaye istehsalının növbəti mərhələsinə keçidin reallaşmasında mühüm rol oynamışdır.

Bu baxımdan Cənubi Qafqaz və imperiya idarəçilik strukturlarının, eləcə də müxtəlif rütbəli məmurların, bəzi müəlliflərin hazırladıqları hesabatlarda, nəşrlərdə çoxsaylı faktik materiallar və məlumatlar var. Müxtəlif illərdə bir sıra

kiablar, məcmuələr də çap edilmişdir. 1900-cü ildə təşkil edilmiş Qafqaz Kustar Komitəsi 1902-ci, 1903-cü, 1913-cü və digər illərdə məlumat-statistik kitablar çap edilmişdir. Bu sıradan 1902-ci ildə Qafqaz kustar sənayesinin nümayəndələrinin qurultayıın materialları mühüm əhəmiyyət kəsb edir (7, s.3). Bu və Qafqaz kustar sənaye komitəsinin xətti ilə hazırlanmış materialların tədqiq edilməsi, alınan nəticələrin elmi dövriyəyə daxil edilməsi bölgədə kapitalist sənayesinin formalaşması mərhələlərinin öyrənilməsi baxımından əhəmiyyətlidir.

Başqa bir mənbədə göstərilir ki, bölgələrdə ipəkçilik sahəsində iri müəssisələrlə yanaşı, xırda kustar istehsalı müəssisələri də fəaliyyət göstərmişdir (4, s.59).

Şimali Azərbaycan bölgələri içərisində Şəkinin tarixən xüsusi yeri olmuşdur. Azərbaycanın "ipək paytaxtı", Böyük İpək yolu üzərində yerləşən şəhər, Şəki xanlığının paytaxtı, Rusiya imperiyasının əsas əyalət şəhərlərindən biri və s. 1840-cı ildə rəsmi olaraq, şəhər statusu almışdır.

Şəki bölgəsinin ən əsas yaşayış məntəqəsi, ticarət və sənətkarlıq mərkəzi kimi qəbul edilən Nuxa qəzası Qafqaz silsiləsinin cənub qollarının ucqarlarında, Kiş dərəsinin şimal-şərq tərəfində yerləşir. Əvvəllər Şəkidə ipəkçiliklə məhdud şəkildə şəxsi emalatxanalarda, sexlərdə məşğul olunmuş, sonralar, konkret olaraq XIX əsrin ortalarından başlayaraq ilk ipəkçilik fabrikləri fəaliyyətə başlamışdır. Sonralar bu qiymətli məhsulun, Şəki ipəyinin şöhrəti həm ölkədə, həm də xaricdə yayılmış, bu məhsula olan tələbat artmağa başlamışdır.İmperiya idarəçilik strukturlarının mərkəzlərindən biri olmuşdur. Məhz şəhərin iqtisadi baxımdan xüsusi əhəmiyyətli olması səbəbindən Azərbaycanın "ipək paytaxtı" tezliklə, rəsmi qaydada öz gerbinə də sahib oldu Bu da bu şəhərin ölkə iqtisadiyyatı üçün əhəmiyyətini əks etdirirdi (2, s.9).

Belə ki, 1843-cü il mayın 21-də Xəzəryanı bölgənin digər gerbləri ilə yanaşı, Xəzər vilayətinin tərkibində olan, sonra isə Yelizavetpol quberniyasının tərkibində olan Nuxa (Şəki) qəzasının gerbi qanunla təsdiq edildi. Rusiya imperiyasının qanunlar məcəlləsində Nuxa gerbi belə təsvir edilmişdir: "Qalxanın yuxarı yarısında, qızılı sahədə, Xəzəryanı ərazinin gerbinin bir hissəsi; dibində, yaşıl sahədə, tut budağında ipək qurdu; budağın altında ipəkçiliyin genişliyinə işarə olaraq üç ipək barama, hər baramada isə bir kəpənək var. Bu, ilk dəfə XIX əsrdə Alman heraldisti Hugo Strehl tərəfindən təsvir edilmişdir (2, s.9).

Azərbaycanın tarixi "Böyük İpək yolu"nun üzərində yerləşməsi tarixən ərazimizdə, xüsusi ilə də Şəkidə bu sahənin təşəkkül tapmasına və inkişafına səbəb olmuş, digər ölkələrlə ticarət iqtisadi əlaqələrinin genişlənməsinə təkan vermişdir.

Şəki ipəyi hər zaman dünya bazarlarında öz şöhrətini qoruyub saxlamış və həmişə yüksək qiymətləndirilmişdir. Şəki vilayətində ipəkçilik

inkişaf etdikcə onun texnologiyası və istehsalını mənimsəyən xüsusi ixtisaslaşmış təbəqə də formalaşmışdır (2, s.9).

Şəhər əsas hissə və ayrı bir şəhərətrafı ərazidən ibarət olmaqla Nuxa və Qışlaq adı almış iki məhəlləyə bölünür. Hər iki məhəllənin sakinlərinin sayı 7608 təşkil edirdi. Eyni zamanda şəhər əhalisi Azərbaycan ərazisində tarixən yaşamış çoxmillətli tərkibi ilə də fərqlənirdi. Onlardan 207-i bəylər və ya zadəganlar kimi qeydə alınmışdır(6, s.3).

Əsrin oratalarında əhalidən 3100 nəfər ticarətlə məşğul idi. Lakin onların arasında gildiyalar formasında birləşməsi haqqında bəhs edilən dövrədək heç bir məlumata rast gəlinmir. Şəhər iqtisadiyyatı və sakinlərinin təsərrüfat fəaliyyəti dairəsi kifayət qədər geniş olmuşdur. Şəhərdə istehsal edilən bəzi məişət əşyaları və digər məhsullar Bakıya və başqa şəhərlərlə yanaşı, Rusiya, hətta Avropa şəhərlərinə də aparılırdı. Bu məhsulların çoxu sənətkarlar tərəfindən, kustar yolla hazırlansa da, lakin daxili və xarici bazarlarda çox yüksək qiymətləndirilirdi. Müxtəlif peşələri təmsil edən usta və sənətkarların gündəlik gəlirləri 50 qəpik – 1 rubl arasında dəyişirdi (6, s.3).

1827-ci ildə Nuxada dövlət bağlarından alınan baramaları yeni üsulla açmaq üçün dövlətə məxsus Zavedeta yaradıldı. onların o zaman 490-ı var idi. 1836-cı ildə Zaqafqaziya diyarında İpəkçiliyin və ticarət sənayesinin yayılması üzrə Cəmiyyət yaradıldı və ona İmperator ona 15 may 1836-cı ildə Dövlət Senatının fərmanı ilə bir sıra imtiyazlar da verilmişdi.O cümlədən, Şəki rayonunun 587 ailə, ümumilikdə 1586 işçi, 5000 hektar boş torpağı əhatə edən 816 tut bağından ibarət 27 xəzinə kəndini otuz il müddətinə cəmiyyətin ixtiyarına verilmişdi. 1840-cı ildə Cəmiyyətin verdiyi məlumata görə, yerli müəssisədə istehsal edilən keyfiyyətli baramanın ümumi miqdarı 18 pud - 20 pud, dəyəri 2900 gümüş rubla bərabər idi (6, s.3).

Lakin bütövlükdə Şəki bölgəsində 15 min puda qədər ipək hasil edildiyi halda Cəmiyyətin belə məhdud fəaliyyət dairəsi ipəkçiliyinin yüksəldilməsinə müsbət təsir göstərə bilməzdi. Digər tərəfdən, həm Zaqafqaziya bölgəsində, həm də Şəki rayonunun özündə də ipəkçilik istehsalı primitiv vəziyyətdə qalırdı. Belə ki, cəmiyyətin yaxın ətrafında yaşayan, yerləşən ərazilərdə belə sakinlər, hətta fabrikə bitişik olanlar da baramaların emalının, ipək sapı alınmasının qabaqcıl Avropa üsullarını öyrənməyə maraq göstərmirdilər. Rus hökumət məmurları buna diqqət yetirsə də, yerli hakimiyyət orqanları vasitəsi ilə istehsalçılara bəzi təkliflər etsələr də, bu, hamı tərəfindən yekdilliklə qəbul edilmədiyindən, xüsusi ilə də alınan məhsulunın keyfiyətsiz olacağı qorxusu səbəbindən uğursuz olaraq qalır (6, s.3).

İpəkçilik təkcə şəhər sakinləri üçün deyil, bütün Şəki rayonu üçün demək olar ki, əsas məşğuliyyət sahə idi. Şəhərətrafı ərazilərlə birlikdə şəhərdə tut bağları təxminən 220 hektar ərazini əhatə edir, 10 milyon 250 minə qədər tut

ağacı becərilirdi. Əldə edilən ipək məhsulunun dəyəri təxminən 18900 gümüş rubl məbləğində qiymətləndirilirdi (6, s.3).

Zaqafqaziya diyarında İpəkçiliyin və Ticarət Sənayesinin Təbliği Cəmiyyəti ipəkçiliklə yanaşı, ticarət sənayesi üçün də böyük işlər görmüşdür. İpəyin çox hissəsini Tiflis tacirləri alırdılar.Moskvada daimi olaraq yaşayan və ən çox ipək satışı ilə məşğul olan Nuxinskilər ailəsinin nümayəndələri cəmi altı nəfərdir (6, s.3).

XIX əsrin 30-40-cı illərində müxtəlif sahələrdə geniş perspektivlərə malik olan Cənubi Qafqazın və ilk növbədə Şimali Azərbaycanın tədrici iqtisadi inkişafı prosesi başlandı. Bu illərdə kommersiya və sənaye cəmiyyətləri yaradıldı: Kənd və Manufaktura Sənaye və Ticarətini Təşviq edən Zaqafqaziya Cəmiyyəti (1833) və İpəkçilik və Ticarət Sənayesini Qafqazdan kənara çıxaran Cəmiyyət (1836) və s. (5, s.3).

Qeyd etmək lazımdır ki, Şimali Azərbaycanda hələ Rusiya imperiya-sınlmazdın tərkibinə qatılmazdan əvvəl bölgədə kapitalist münasibətlərinin formalaşmasının ilkin dövründə hiss olunacaq dərəcədə özünü göstərən böyük tacir təbəqəsi mövcud idi. Onların milli tərkibi, maliyyə imkanları, ticarət fəaliyyəti istiqamətləri və s. haqqında konkret məlumatlar o qədər çox olmasa belə, əldə edilən ayrı-ayrı faktlara əsasən onun o dövrün ticarət-iqtisadi münasibətlərinə təsiri haqqında mühakimə yürütmək mümkündür. Bu fakt məlumdur ki, hələ 1827-ci ildə Nuxa şəhərində birlikdə 20 min gümüş rubla qədər kapitalı olan 166 tacir var idi. Eyni mənbədə şəhərdə kiçik ticarətlə məşğul olan Qacarlar dövlətindən gəlmiş qırxa yaxın tacirin olması haqqında da məlumat verilir(5, s.3).

"Böyük İpək Yolu" karvan ticarət yolları sistemi Avrasiya ölkələrini – Qərbi Avropadan Çinə qədər birləşdirdi və Azərbaycan ərazisi də bu yolda yerləşirdi. Bu ticarət yolları müxtəlif sivilizasiyalara malik ölkələr və sosial-iqtisadi sistemlər arasında əlaqə rolunu oynayırdı.

Azərbaycanda yetişdirilən ipəkqurdu baramalarından təbii ipək istehsalı V-VII əsrlərə təsadüf edir. Həmin vaxtdan bu ipək bütün dünyada tanınaraq XIX əsrin sonlarına qədər Cənubi Qafqazdan dünya bazarına aparılan malların sırasında ən əsas yeri tutmuşdu.

O dövrün rus müstəmləkə idarəçilik strukturlarının materiallarından və bunlarad çalışan bir çox məmurlarının məlumatlarından görünür ki, XIX əsrdə Azərbaycan ərazisində "ipək parça ilə ticarət" və onun əsaslandığı mühüm və gəlirli fəaliyyət sahələri az olmamışdır.

Rus məmurları məlumat verirdilər ki, XIX əsrin birinci yarısında Rusiyanın xarici ticarətində Azərbaycanda hazırlanmış ipək məmulatları əsas yer tuturdu. Onların materiallarında bildirilir ki, buraya gələn səyyahlar Azərbaycanın ipək istehsalının və ipək xammalının zənginliyini və müxtəlifliyini qeyd ediblər.

Bununla belə, ipəkçiliyin sənaye əsaslarına keçməsi çətin tarixi yol keçmişdir. Rus məmurlarının materiallarında bildirilir ki, XIX əsrin birinci yarısında çar hökuməti, xüsusi ilə rus burjuaziyası sənaye müəssisələrinin tələbatlarını ödəmək naminə əyalətlərdəki xammal məhsullarından istifadə məsələləri ilə ciddi maraqlanırdı. Bu məqsədlə Rusiya sənayesi üçün lazım olan xammaldan istifadənin genişləndirilməsi imkanlarını öyrənmək üçün bir çox çar məmurları Azərbaycana göndərilirdi. Onlar Qafqazda ipəkçiliyin mərkəzi kimi Azərbaycanda xam ipək istehsalının genişləndirilməsinə və xaricə ixracının artırılmasına üstünlük verirdilər (1, s.14).

Ona görə də o dövrdə çar Rusiyasının tərkibində olan Azərbaycanı xammal mənbəyi səviyyəsində saxlamaq istəyi təbii olaraq bölgədə və bütövlükdə əyalətdə sənaye ipəkçiliyinin inkişafını əngəlləyirdi. Buna baxmayaraq, Rusiyanın xam ipəyə olan tələbatını ödəmək üçün yollar axtarılması və ipək sənayesinin inkişafı üçün şərait yaradılması özlüyündə iqtisadi inkişafı üçün az da olsa belə, müəyyən şərait yaradırdı.

1846-cı ildə “Kavkaz” qəzetinin 24-cü sayında yazılırdı: “Qafqazda dövlətin idarəçiliyində olan sənaye əsaslı ilk ipək fabriki 1827-ci ildə Nuxada qurulmuşdur” (6, s.3).

Şəki (Nuxa) ipək istehsalı üzrə əsas sənaye mərkəzinə çevrilmişdir. 1829-cu ildə Şəki yaxınlığında “Çarabad” ipəkçilik mərkəzi yaradılmışdır. “Qafqaz Manufakturası Çarabad” kimi tanınan baramaların açılması fabrikində muzdlu işçi qüvvəsindən istifadə olunurdu. İtaliyadan 12 fabrik işçisi ailələri ilə birlikdə yerli ustalara yeni avadanlıq üzərində işləmək üçün təlim keçmək üçün gətirildiyi xəbər verilirdi. Bu da xəbər verilirdi ki, o zaman barama açma zavodunda “Avropa üsulu” ilə alınan ipək xammalı Sankt-Peterburqdan gələn mütəxəssislər tərəfindən yüksək qiymətləndirilmişdi (8).

1837-ci ilin noyabrında çarın fərmanı ilə fabrik bir il əvvəl xüsusi olaraq yaradılmış Zaqafqaziyada İpək Sənayesi və Ticarətini İnkişaf etdirən Səhmdar Cəmiyyətinə verildi.

XIXəsrin 30-50 illərində Cənubi Qafqazda istehsal olunan ipəyin 85 faizi Azərbaycanın payına düşürdü (3). Azərbaycan xam ipəyi əsasən Moskva və Nijni Novqoroddakı yarmarkalara ixrac olunurdu.

Azərbaycan ipək sənayesinin inkişafı ilə onun şöhrəti də artdı. 1852-ci ildə Moskvada keçirilən Ümumdünya Kənd Təsərrüfatı və Sənaye Məhsulları Sərgisində Azərbaycandan çoxlu ipək, müxtəlif çeşidli ipək məmulatları, barama nümayiş etdirildi (8).

1861-ci ildə Çarabadda “Zaqafqaziyada İpək Sənayesi və Ticarətinin Təbliği Cəmiyyəti” səhmdar cəmiyyəti ilə Moskva kapitalistləri Aleksey və Vasili Voronin qardaşları arasında bağlanmış müqaviləyə əsasən, dünyanın ən böyük barama açma zavodu o vaxt başladı. Bu müəssisə xam ipək istehsalının

miqyasına görə dünyada birinci yeri tuturdu, keyfiyyətinə görə də Marsel ipəyindən geri qalmırdı.

1862-ci ilin yayında Londonda keçirilən Ümumdünya Sərgisində Voronin qardaşları yüksək keyfiyyətli xam ipək və barama istehsalına görə bürünc medalla təltif olundular. "Çarabad" ipəkçilik mərkəzinin direktoru, tanınmış ipək mütəxəssisi Zeddlist qızıl medala layiq görülmüşdü (8).

XIX əsrin ikinci yarısında Azərbaycan ipəkçiliyinin artan şöhrəti Qərb ölkələrindən, xüsusilə Fransa və İtaliyadan tacirlərin axınını artırdı. Maraqlıdır ki, 1861-ci ildə Şəkidə qərbli ipəkqurdu barama alıcılarının siyahısında fransız yazıçısı A.Dümanın da adı çəkilir. Sənədlərdə 300 funt barama alınaraq Fransaya göndərilməsi qeyd olunub. 1865-ci ildə barama almaq üçün Azərbaycana gələn Qərb vəkillərinin sayı 200 nəfərə çatırdı.

Azərbaycan ipəyi 1879-cu ildə Amerikanın Filadelfiya şəhərində keçirilən Ümumdünya Sərgisində böyük gümüş medala layiq görülmüşdü (8).Sərgidə iştirak edən "Kavkaz" qəzetinin əməkdaşının qeyd etdiyi kimi, "Azərbaycan ipəyini görən bütün amerikalılar heyran qaldılar və belə məhsullar istehsal edən ölkənin əlbəttə ki, gözəl olduğunu güman etdilər" (6, s.3). Məhz bu zaman Azərbaycana gələn müxtəlif iş adamları çoxdan tanıdıqları yerli "Talaman ipəyi" növünü yazıb təsvir edirdilər.

Rusiya rəsmilərinin məlumatlarına görə, artıq XIX əsrin birinci yarısında Milana, Marselə, Liona və digər Avropa şəhərlərinə hər il təxminən 40 min pud ipəkqurdu barama ixrac edilirdi. Azərbaycan, o cümlədədn, Şəki ipəyi keyfiyyətinə görə dünya bazarında yüksək qiymətləndirilirdi. Bu ipək Moskva, Lodz, Varşava, Milana, Marsel, Liona və başqa şəhərlərə uğurla ixrac edilirdi (8).

Rusiyanın Qafqazın idarəçiliyi ilə məşğul olan müxtəlif strurkturlarının fəaliyyətinə aid hesabat materialları və statistik məlumatlar XIX əsrin birinci yarısında Şimali Azərbaycanın Şərqi Avropa ticarətinin mərkəzinə çevrilməsindən xəbər verir və vurğulanırdı ki, əyalətin ticarət şəhərləri, xüsusi olaraq da Şəki, buna böyük töhfə verirdi. Bu şəhər vasitəsilə Cənubi Qafqaz, Qərbi Avropa, Rusiya və başqa şərq şəhərləri ilə ticarət aparılırdı.

Qafqazdakı rus rəsmiləri öz materiallarında bu şəhəri Şərqi Avropa ticarət əməliyyatlarında Rusiyanın ticarətinin iqtisadi mərkəzlərindən biri kimi qəbul edirdilər.

Şəki, ümumiyyətlə, Azərbaycan xam ipəyinin avropalılar tərəfindən nağd pulla alınması da vasitəçilərin vasitəsilə ən çox Həştərxan şəhəri üzərindən həyata keçirilirdi. Eyni zamanda vastəçilərə və digər qurumlara xam ipəyi yalnız rus gümüş sikkələri ilə almaq-satmaq barədə qəti göstərişlər də verilmişdi.

Rusiya, mənbələrdən göründüyü kimi, Şəki ipəyi ticarəti vasitəsi ilə Avropa və Şərq ölkələri ilə sıx ticarət əlaqələri saxlayırdı. Rusiyanın XIX əsrin

birinci yarısında Şimali Azərbaycan ərazisində fəal beynəlxalq ticarət əlaqələrinə malik olması onun mühüm dünya ticarət-iqtisadi mərkəzinə çevrilməsinə kömək edirdi.Zəngin təbii sərvətlərə və yüksək keyfiyyətli sənətkarlığa, cümlədən, ipəkçilik sahəsində güclü real və potensial imkanlara malik Şimali Azərbaycan XIX əsrin birinci yarısında ticarət-iqtisadi əməliyyatlarda Rusiyanın əhəmiyyətlidərəcədəiqtisadi rayonu kimi çıxış edir, xarici dövlətlərin onunla iqtisadi əlaqələr qurmasına təsər göstərirdi. Sözsüz ki, bütün bunlarda Şəki bölgəsinin, burada istehsal edilən məhsulların, əhəmiyyətli dərəcə də isə ipək istehsalı və ticarətinin öz yeri olmuşdur.

**Nəticə.**Tədqiqatımız gedişində alınan nəticələrdən biri budur ki, Şəki bölgəsində ipəkçilik, tikinti materialları, geyim-məişət əşyaları və bəzi digər kustar istehsal sahələri istisna olmaqla, heç də hamısı sənaye istehsalının növbəti mərhələsinə keçməmişdir.

Məlum faktdır ki, Şəki bölgəsi Cənubi Qafqazda, eləcə də imperiyanın digər ərazilərində ipəkçilik sənayesinin formalaşdığı bölgə olmamışdır. Buna baxmayaraq Şəki bölgəsində ipəkçilik sənayasinin, istər kustar, istərsə də sənaye-fabrik səviyyəsində olsun, hazır məhsulları tək keyfiyyət yox, bir çox parametrlər baxımından digərlərini geridə qoyması ilə fərqlənirdi.
Bölgədə ipək emalı kustar xarakteri daşısa da, yenə də bir müddət, dəqiq desək, XIX əsrin sonlarına qədər öz yerini ipəkçiliyin sənaye əsasları üzərində qurulmasına verməyə tələsmirdi. Bunun ən əsas səbəbi bu idi ki, bölgədəki ipəkçilik fabriklərinin xammal kimi yalnız əla növ ipək saplardan istifadə edirdilərsə, kustar müəssisələrdə yerli istehsal olan daha aşağı keyfiyyətli ipək saplardan da istifadə etmək mümkün idi.

Digər bir səbəb isə Şəki bölgəsində yerli istehsalçıların kustar üsulla fəaliyyət sahəsində əvvəlki ənənələri saxlayaraq daha da inkişaf etdirməsi, hazırlanan məhsulun görkəmi, bədii işlənmə və digər xüsusiyyətləri baxımından, hətta maya dəyəri bir qədər baha olsa belə, vasitəçi firmalar, tacirlər tərəfindən alınması idi.

## Ədəbiyyat

1.Vəliyev T.T. XX əsrin əvvəlllərində Azərbaycanın ipək emalı sənayesi. Elm, Bakı: - 1977. - 129 s.
2.Qəhrəmanova. Nərgiz. İpəkçilik Azərbaycanın milli və mədəni sənətidir // Вышка. -7 октября. 2016- 9.
3.БаннаеваНаиля. Город «нежного» золота. // Каспiй.-29 декабря 2016.- с.12-13.
4.Кустарная промысль на Кавказ. Вып.1., Тифлись: - 1902. - 148 с.
5.Искендер Гаджи // Бакинский рабочий.- 21 сентября.2010. - с.3.
6.Нуха. Кавказ. Тифлис: - 1846. № 24. - с.3.

7.Пиралов А.С. Краткий очеркь кустарных промыслов Кавказа. Издание второе. Типо-литографияЯкор, С.Пет.: - 1913. - 142 с.
8.Тагиева. М. Русские чиновники о шелке Азербайджана в мировой торговле (перв. пол. XIX в.) // https://azerhistory.com/?p=32509

# MÜNDƏRİCAT

**Nərminə Abdullayeva.** BİG DATA ƏSRİNDƏ AKADEMİK KITABXANAÇILARDAN TƏLƏB OLUNAN İNNOVATIV İDARƏETMƏ BACARIQLARI……………………………………….…..3

**Sevda Abdullayeva, Lalə Abdullazadə**. ŞƏDDADİLƏR SÜLALƏSİNİN HAKİMİYYƏT DÖVRÜNÜN BƏZİ MƏSƏLƏLƏRİ (İngilis dili ədəbiyyatlar əsasında)..........................................................................13

**Turanə Əsədova.** SÜNİ İNTELLEKT FƏLSƏFƏSİNİN İNKİŞAF MEYLLƏRİ..............................................................................................21

**Vaqif Hacıyev.** XX ƏSRİN 90-CI İLLƏRİNDƏ AZƏRBAYCANIN TÜRKDİLLİ DÖVLƏTLƏRLƏ ELM VƏ TƏHSİL SAHƏSİNDƏ ƏLAQƏLƏRİ.............................................................................................31

**Zakir Kərimov.** AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ XEYRİYYƏYÖNÜMLÜ TƏDBİRLƏR "AZƏRBAYCAN" QƏZETİ SƏHİFƏLƏRİNDƏ.......................................................................39

**Xankişi Məmmədov, Riyad Rüstəmli.** "DAĞ, DƏDƏ ŞƏMŞİR VƏ SƏMƏD VURĞUN" PARADİQMASINDA ORONİMLƏRİN FƏLSƏFİ-SOSİAL-SİNERGETİK TƏHLİLİ.................................................46

**Ülkər Məmmədzadə .** ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN İRSİ AZƏRBAYCAN DÖVLƏTİNİN MİLLİ SƏRVƏTİDİR.....................56

**Sultanəli Qurbanov, Eldar Muxtarlı, Telman Tağıyev.** HEYDƏR ƏLİYEV İRSİ VƏ MÜASİR AZƏRBAYCAN GƏNCLİYİ........................67

**Faiq Nadirsoy.** "TÜRKSOY"UNYARANMASI ZƏRURƏTİ VƏ TƏŞKİLATIN AZƏRBAYCANLA ƏMƏKDAŞLIQ TARİXİ....................74

**Elçin Qarayev.** İRƏVAN QUBERNİYASINDA DİNİ QURUMLAR, MƏSCİDLƏR VƏ VƏQF MÜLKİYYƏTİ HAQQINDA.............................83

**Габил Зейниев, Санубар Касимова.** О ВЫПУСКЕ БУМАЖНЫХ ДЕНЕЖНЫХ ЗНАКАХ ЦЕМЕНТНОГО ЗАВОДА «ТАУЗЪ».................95

**Ləman Zülqədərova.** KİPR PROBLEMİNİN TARİXİNDƏN (XX ƏSRİN 60-CI İLLƏRİ)..........................................................................105

**Hacı Həsənov.** GƏNCƏNİN İŞĞALINDAN KÜRƏKÇAY MÜQAVİLƏSİNƏDƏK QARABAĞ-RUSİYA QARŞIDURMASINA DAİR.....................................................................113

**Anar Məmmədov.** ŞİMALİ AZƏRBAYCANIN ŞƏKİ BÖLGƏSİNDƏ İPƏKÇİLİKDƏ KUSTAR İSTEHSALI VƏ KAPİTALİST SƏNAYE FORMASINA KEÇİDİN ƏVVƏLİ ..........................................................122

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – jhhsadpu@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2023, 2 (39)*

***Çapa imzalanmış  14.06.2023-cü il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 8***
***Sifariş 201,  sayı 100***

***ADPU-nəşriyyatı***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail:*** *jhhsadpu@mail.ru*
***www.adpu.edu.az***